**Hər kəs ədalətli olacaq** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 21 (6163) 12 iyun 2026-cı il | Qiyməti 40 qəpik

## Silahı gizlətməyin, polisə təhvil verin!

**Son günlər polis əməkdaşları tərəfindən paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 5 avtomat silahı, 3 tapança, 1 qumbara, 6 tüfəng, 2 patron darağı və 100 ədəd müxtəlif çaplı patron aşkar edilərək götürülüb.**

**Adalet.az xəbər verir ki, Daxili İşlər Nazirliyi vətəndaşlara qanunsuz saxlanılan odlu silah-sursatları könüllü qaydada polis orqanlarına təhvil verməyin bir daha vacibliyini xatırladaraq çağırış edib.**

**"Qanunsuz saxlanılan silah və sursatlar bədbəxt hadisələrə, ağır cinayətlərə və insan həyatı üçün ciddi təhlükələrə səbəb ola bilər. Vətəndaşlardan belə hallarla qarşılaşdıqda dərhal polisə məlumat verməleri və ictimai təhlükəsizliyin təmin olunmasına dəstək göstərmələri xahiş edilir.**

**Qanunvericiliyə əsasən, qanunsuz saxlanılan odlu silah və sursatları könüllü qaydada polis orqanlarına təhvil verən şəxslər müvafiq məsuliyyətdən azad olunurlar", - müraciətdə bildirilib.**



## Prezidentin köməkçisi: "Türk dünyası yeni siyasi reallığa çevrilir"



**Xəzər dənizi Azərbaycan üçün ticarət vasitəsidir və ölkəmizi Mərkəzi Asiya ilə birləşdirir.**

Adalet.az xəbər verir ki, bu sözləri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Trans-Xəzər Forumunda onlayn formatda çıxışı deyib. O bildirib ki, keçən il Azərbaycan region ölkələrinin yekdil dəstəyi və qərarı ilə Mərkəzi Asiya Məşvərət Görüşünə tamhüquqlu üzv qəbul edilib.

"Mən bunu metaforik olaraq C5+1 adlandırıram. Mərkəzi Asiya və Azərbaycan tarixi, mədəni, dil dəyərlərini və normalarını bölüşür. Azərbaycan, həmçinin Qazaxıstan, Özbəkistan və regionun digər ölkələri ilə strateji müttəfiqdir. Türk Dövlətləri Təşkilatı ona başqa bir çərçivə təqdim edir. Gənc demoqrafiya, strateji enerji və vacib mineral ehtiyatları, güclü iqtisadiyyatı ilə Türk dünyası yeni siyasi reallığa və geniş Avrasiya qitəsində əməkdaşlıq platformasına çevrilir".

## Məktəblərdə "TikTok" bloklanıb




**"Məqsəd uşaqların psixikasını və sağlamlığını qorumaqdır".**

Adalet.az xəbər verir ki, bunu elm və təhsil nazirinin müavini Firudin Qurbanov Milli Məclisin İnsan hüquqları, Ailə, qadın və uşaq məsələləri, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin iclasında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib. Nazir müavini bildirib ki, məktəblərdə internetə bəzi məhdudiyyətlər tətbiq etməyə çalışırlar: "Məktəblərdə "TikTok"a çıxış bloklanıb". "Həmçinin, terrorizm kimi mövzulara çıxış bloklanıb. Ümumilikdə, 200-dən çox təhlükəli mövzulara məhdudiyyət tətbiq olunub", - deyə nazir müavini əlavə edib.

## Türkiyə XİN-dən sülh açıqlaması



**Ermənistanda keçirilən parlament seçkilərinin sülh və əmin-amanlıq şəraitində uğurla başa çatmasından məmnunluq duyuruq. Seçkilərin nəticələrinin Ermənistan xalqı üçün xeyirli olmasını arzulayırıq. Adalet.az xəbər verir ki, bu ifadələr Türkiyənin Xarici İşlər Nazirliyinin açıqlamasında yer alıb.**

Mətndə deyilir: "Seçkilərdən sonrakı dövrdə Azərbaycan ilə Ermənistan arasında yekun sülh sazişinin imzalanması üçün mümkün şəraitin formalaşmasını ümid edirik. Bu məqsədlə Türkiyə, indiyədək olduğu kimi, bundan sonra da region ölkələrinin ortaq maraqları əsasında regional sabitliyə və rifaha töhfə verməyə davam edəcək".

## Hərbi xidmətdən yayınanları hansı cəzalar gözləyir?



**Hərbi xidmətə çağırışdan və ya səfərbərlik üzrə çağırışdan üzrlü səbəb olmadan yayınan şəxslər qanunvericiliyə uyğun olaraq inzibati və cinayət məsuliyyəti daşıyırlar.**

Adalet.az xəbər verir ki, İnzibati Xətalar Məcəlləsinin 606.3-cü maddəsinə əsasən çağırışçıların və hərbi vəzifəlilərin qanunla nəzərdə tutulmuş hallarda həqiqi hərbi xidmətə çağırış, tibbi müayinə (tibbi şəhadətləndirilmə), hərbi hissələrə təhkim edilmə, müvafiq toplanışlarla əlaqədar çağırış üzrə müvafiq icra hakimiyyəti orqanına üzrlü səbəblər olmadan gəlməməsinə görə onlar barəsində 300 manatdan 500 manatadək məbləğdə cərimə, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla 160 saatdan 240 saatadək ictimai işlər tətbiq olunur. Cinayət Məcəlləsinin 321.1-ci maddəsinə əsasən qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma 2 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Həmin cinayət işləri üzrə istintaqın aparılması prokurorluq orqanlarının səlahiyyətindədir.

## "BakıKart"ın qiyməti bahalaşdı

**İctimai nəqliyyatda rəqəmsal ödəniş imkanlarının genişləndirilməsi, xidmət keyfiyyətinin artırılması və kart infrastrukturunun davamlı inkişafı istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində 1 iyul 2026-cı il tarixindən etibarən "BakıKart" kartlarının satış qiyməti 2 manatdan 3 manata dəyişdiriləcək.**

Adalet.az xəbər verir ki, bu barədə "Bakıkart" məlumat yayıb. Bildirilib ki, "BakıKart" kartları 2015-ci ildən etibarən sərnişinlərin istifadəsinə təqdim olunub və ötən müddət ərzində kartın satış qiymətində dəyişiklik edilməyib. Bu dövr ərzində kart istehsalı, texniki xidmət, logistika və infrastruktur xərclərində baş verən artımlar nəzərə alınaraq qiymətə yenidən baxılıb. Son illər ərzində ictimai nəqliyyatda rəqəmsal ödəniş imkanları əhəmiyyətli dərəcədə genişləndirilib. Sərnişinlər hazırda "BakıKart" kartları ilə yanaşı, NFC texnologiyası vasitəsilə bank kartları, mobil cihazlar və QR kod üzərindən də ödəniş həyata keçirə bilirlər.

Qeyd edilib ki, kartın balansı və gediş haqları ilə bağlı hər hansı dəyişiklik nəzərdə tutulmur. Dəyişiklik yalnız yeni əldə edilən "BakıKart" kartlarının satış qiymətinə aiddir.

## Azərbaycan "KAAN" qırıcıları alacaq



**Azərbaycan Türkiyədən yeni nəsil "KAAN" qırıcı təyyarələri almaq niyyətindədir.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə mediası yazıb.

Məlumata görə, rəsmi Bakı bu döyüş təyyarələrindən 20-ni almağı nəzərdən keçirir.

## Zelenski: "Rusiyaya 40 milyard dollar zərər vurmuşuq"

**Ukrayna Prezidenti Vladimir Zelenski Ukrayna ordusunun PUA Qüvvələrinin yaradılmasından keçən bir il ərzində əldə etdiyi nəticələrdən danışıb.**

Bu barədə V.Zelenski Teleqram kanalında bildirib. O qeyd edib ki, bu qüvvələrin yaradılmasından bəri müxtəlif səviyyəli Rusiya hədəflərinə vurulan zərərin ümumi dəyəri təxminən 40 milyard dollar təşkil edib. Zelenski onu da vurğulayıb ki, ən vacib məqam müxtəlif növ zərbələrin Ukraynaya insan həyatını qorumağa kömək etməsidir.

## GÜNÜN LƏTİFƏSİ

Bir məşhur həkim öz işini oğluna tapşırır. Oğlu işdən evə sevinclə qayıdaraq deyir:

**- Ata, sənin 30 ildir müalicə edə bilmədiyin xəstəni mən bir günə müalicə etdim.**

Atası əsəbləşərək deyir:

**- Sən nə etdin?! Mən 30 ildir ailəmi o xəstənin hesabına saxlayıram.**

## Bakı Şəhər İcra Hakimiyyətinin strukturu və idarə edilməsi təkmilləşdirilir



**Bakı Şəhər İcra Hakimiyyətinin strukturunun optimallaşdırılması və onun fəaliyyətində səmərəliliyin artırılması qərara alınıb.**

Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Fərmana əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində aşağıdakı büdcə təşkilatlarının yaradılmasını təmin etməlidir:

Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan Mənzil Kooperativ Təsərrüfatı İdarəsinin əsasında Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Mənzil-Kooperativ Təsərrüfatı İdarəsi yaradılacaq. Bundan başqa, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan Bakı Şəhər Ticarət və Xidmət Departamentinin əsasında Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Bakı Şəhər Ticarət və Xidmət Departamenti təsis edilir. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində olan Heydər Məscidi İdarəsinin əsasında Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Heydər Məscidi İdarəsi; Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə birləşmə yolu ilə yenidən təşkilini təmin etsin.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Diplomatik korpusa və xarici nümayəndəliklərə xidmət göstərən müdiriyyət "İntervservis"in Bakı Şəhər İcra Hakimiyyətinin fəaliyyət istiqamətləri nəzərə alınmaqla yenidən təşkilini təmin etsin.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Bakımənzilkommunlayihə" Layihə İnstitutunun ləğv edilməsi ilə bağlı zəruri tədbirlər görməlidir.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində olan "Yaşıl Teatr" Bakı Konsert Kompleksinin və Bakı Şəhər Bələdiyyə Teatrının bütün əmlakı ilə birlikdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilməsini təmin etməlidir.

Bu Fərmanda nəzərdə tutulan qurumların balansında olan əmlakın həmin qurumların əsasında yaradılan yeni qurumların balansına verilməsi, habelə həmin qurumların maddi-texniki təminatı, əsasnamələrinin (nizamnamələrinin) təsdiqi, işçilərinin əməkhaqlarının (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) məbləğlərinin və əməyin ödənilməsi sisteminin, eləcə də Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla işçilərinin say həddinin müəyyən edilməsi ilə bağlı tədbirlər görsün və bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Bakı Şəhər İcra Hakimiyyəti strukturunun və ştat vahidlərinin bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş nümunəvi struktura və ştat vahidlərinə uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyətinin strukturunun və əməkhaqqı sisteminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla zəruri tədbirlər görmək tapşırılır.

Bu Fərmanın 5-ci hissəsi nəzərə alınmaqla, bu Fərmana əsasən yaradılması nəzərdə tutulan yeni qurumların strukturunun dörd ay müddətində təsdiq olunmasını təmin edilməlidir.

Bu Fərmanı tətbiqi ilə əlaqədar ştatları ixtisar olunan dövlət qulluqçularına münasibətdə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 464 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası"na uyğun olaraq tədbirlər görülməlidir.

Bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ştatları ixtisar olunan dövlət qulluqçularının analoji dövlət qulluğu vəzifələrinə təyin edilmələri ilə bağlı öz fəaliyyət istiqamətlərinə uyğun tədbirlər görməlidir. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, bu Fərmana əsasən yaradılması nəzərdə tutulan yeni qurumların strukturunun, ştat vahidlərinin və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görməlidir.

# XİN əhaliyə xəbərdarlıq etdi

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) vətəndaşlara müraciət edərək xarici ölkələrə səfərlər zamanı təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirməyə çağırıb.**



Adalet.az xəbər verir ki, XİN-in yaydığı məlumatda bildirilib ki, mövcud beynəlxalq təhlükəsizlik mühitində artan gərginlik, müxtəlif regionlarda, o cümlədən Ukrayna və Yaxın Şərqdə davam edən silahlı münaqişələr beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid olaraq qalır.

Qeyd olunub ki, son dövrlərdə belə ərazilərdə olan Azərbaycan vətəndaşlarının silahlı toqquşmalar və hərbi əməliyyatlar nəticəsində həlak olması və ya müxtəlif dərəcəli bədən xəsarətləri alması halları qeydə alınıb.

Nazirlik vurğulayıb ki, bü cür hadisələr münaqişə zonalarında və onların yaxınlığında yerləşən ərazilərdə təhlükəsizlik risklərinin son dərəcə yüksək olduğunu bir daha nümayiş etdirir və həmin bölgələrə səfər edən və ya fəaliyyət göstərən vətəndaşların həyat və sağlamlığı üçün ciddi təhlükələr yaradır.

Bu səbəbdən vətəndaşlara xarici ölkələrə səfər etməzdən əvvəl təhlükəsizlik vəziyyətini diqqətlə qiymətləndirmək, rəsmi dövlət qurumlarının xəbərdarlıq və tövsiyələrini nəzərə almaq, münaqişə və hərbi əməliyyatların aparıldığı ərazilərə səfərlərdən çəkinmək tövsiyə olunub.

XİN həmçinin xatırladıb ki, vətəndaşların muzdlu və ya könüllü əsasda xarici dövlətlərin ərazisində silahlı münaqişələrdə və hərbi əməliyyatlarda hər hansı formada iştirak etməsi Azərbaycan qanunvericiliyinə əsasən cinayət məsuliyyəti yaradır.

Məlumatda qeyd edilib ki, Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları vətəndaşların hüquq və maraqlarının müdafiəsi istiqamətində fəaliyyətlərini davam etdirir.

**Nazirlik beynəlxalq vəziyyətlə bağlı prosesləri diqqətlə izlədiyini bildirərək, vətəndaşları öz təhlükəsizliklərinə məsuliyyətlə yanaşmağa və yüksək riskli fəaliyyətlərdən uzaq durmağa çağırıb.**

# *Əhməd İsmayılov:* Erkən yaşlarda tənzimlənməyən sosial şəbəkə istifadəsi problemlərə səbəb ola bilər

**"Müasir diaqnostik təhlillərə görə, erkən yaşlarda tənzimlənməyən sosial şəbəkə istifadəsi gələcəkdə müxtəlif problemlərə səbəb ola bilər".**



Adalet.az xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov Agentliyin təşkilatçılığı ilə keçirilən "İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlara dəyişiklik edilməsi barədə" qanun layihəsinin ictimai müzakirəsində deyib. O bildirib ki, inkişaf etmiş ölkələrdə uşaqlar üçün zərərli hesab edilən, onların fiziki və psixoloji sağlamlığına mənfi təsir göstərən sosial media istifadəsinin məhdudlaşdırılması istiqamətində müxtəlif qanunvericilik tədbirləri həyata keçirilir. Əhməd İsmayılovun sözlərinə görə, ölkədə hazırlanan qanun layihələri bir neçə əsas aspekti əhatə edir və uşaqların rəqəmsal mühitdə daha təhlükəsiz şəkildə fəaliyyət göstərməsini hədəfləyir. "Bu qanun layihəsi rəqəmsal dünyanın mövcud problemlərindən qorunma baxımından mühüm əhəmiyyət daşıyır. Təklif olunan müddəaların etik və beynəlxalq hüquq normalarına uyğun olduğu qeyd edilir".

O, həmçinin qeyd edib ki, qanun layihəsinin hazırlanması və tətbiqi zamanı dövlət orqanları bu məsələyə ciddi diqqət yetirməlidirlər: "Bu istiqamətdə müvafiq dövlət qurumları arasında əməkdaşlığın gücləndirilməsi də vacib hesab olunur".

# "Nikol da bütün digər ermənilər kimi bir tərəfdən Azərbaycana bağlıdır"

**"Uzun illərdən sonra siyasi arenada peyda olan saqqalı və rukzaklı şəxs yükünü yerə qoyub, nəfəsini dərdikdən sonra bütün Güney Qafqazın taleyini dəyişməyə başladı. Sonralar bir çox tarixi sənədlər imza atacaq sağ əlini cəllad və qaniçən Sarkisyanın toxunuşundan qorumasına və sərxoş olub, ala buludlarda gəzəndə də başa düşüləcək addımlar atmırdı və bir çoxu onun məntiqini oxumaqda əziyyət çəkirdi. Yeni bir simanın administrasiya binasında ayağının tozu ilə gəlib, tərli - tərli oturması fonunda ev sahibi Sarkisyan bir tərəfini qaçaraq qoyması yolçunun qalib gəlməsinin ilkin təssüratı idi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib. Onun sözlərinə görə, şübhəsiz ki, qaynar Qafqazda sivil münasibət formasını tapmaq mümkün olmur:

"Tarixin harasından yapışsaq, emosional xalqların sapılcadakı qoyurğa kimi partlamağa hər an hazırdırlar. Soyuq rus psixologiyası da belə 200 il ərzində bu yaşayışı mental olaraq dəyişdirə bilmədi. Nikol da bütün digər ermənilər kimi bir tərəfdən Azərbaycana bağlıdır. Babası zurnaçı Nikol da Qazaxda oğul- uşaq toyunda, gəlingətirdidə az nəfəs tükətmədi.Amma bunun azərbaycanlı olmasının hekayəsi elə o qədərdir. Belə baxanda sırf azərbaycanlı



kişidən törəyən Koçaryandan və digər Qarabağlı separatçılardan daha çox azərbaycanlıdır deyirik". Politoloq deyib ki, 90-larda qəzetimdə "Qarabağı Azərbaycana qaytarmaq lazımdır" tezisi yalançı Petrosyandan siyasi varislik daşısa da, sonralar özünü çox pis aparmışdı:

"Məşhur lift görüşündə ilk dəfə gördüyü Əliyevdən "mənə bir az vaxt verin" xahişi etməsindən sonra qəfildən cildini dəyişdirməsini kim bilməsə də cənab Prezident onları tanıyan biri kimi yaxşı başa düşürdü.Nikol artıq başqa dildə danışırdı.Amerika erməni lobbisinin Paşinyan hakimiyyətinə "peredelka" etdiyi Tonoyan çıxıb açıqda dedi ki, yeni torpaqlar istəyirik və Yevlaxa qədər almalıyıq. Fikrin ardında Paşinyan və qeyrirəsmi qarısının hakimiyyətdən başgicəllləndirici dad almasından və qlobal sifarişdən qidalanması idi". Ə.Əlibəyli bildirib ki, Azərbaycan xalqının gözü qarşısında Şuşada çaxır içir, sərxoş olur, yallı gedir, Anya Mehriban xanımı Muğam dinləməyə çağırırdı:

"Tarix bax belə dəyişməyə başladı: Sonra Tovuza hücum edib, Azərbaycanın həyatı lojistik xətlərini sıradan çıxarmağ cəhd etdilər, general Polad Həşimov şəhid oldu. Azərbaycan xalqı meydanlara axışdı. Hakimiyyət arxasında böyük xalq gücü ilə, 27 sentyabr günü qalibiyyət dastanını yazmağa başladı.Qalib prezident, Qalib xalq tandemi işini gördü.Nikol əlini sarğıdan çıxartdı, donuz da darıdan döyülə - döyülə çıxdı və proses bitdi.Sabah Ermənistanda parlament seçkiləri keçiriləcək.Nə dövr o dövrdür, nə də Paşinyan o adamdır.Belə, bir az da sevdiyimiz profilə çevrilib. Seçkidə qalib gəlməsini və sülh müqaviləsinə İmza atmasını arzu edirik. Ondan sonra Yallı getməyə haqqı var!".

**Vasif ƏLİHÜSEYN**

### *Ermənistan KTMT-dən çıxarılacaq*

**Üzvlük haqlarına görə yaranan borc səbəbindən Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından xaric edilməsi imkanı nəzərdən keçiriləcək.**

Adalet.az Rusiya mətbuatına istinadən xəbər verir ki, bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov KTMT-yə üzv dövlətlərin xarici işlər nazirlərinin iclasının yekunlarına dair keçirilən mətbuat konfransında bildirib.

"Ermənistanlı həmkarım Ararat Mirzoyan KTMT ilə bağlı sualı cavablandırarkən deyib ki, üzvlük haqlarını ödəmirlər, çünki sadəcə orada iştirak etmirlər.

Bu gün bu məsələni müzakirə etdik. Artıq iki ildən çoxdur ki, Ermənistanın KTMT büdcəsinə borcu var - bu, KTMT-nin Nizamnaməsində nəzərdə tutulmuş bir vəziyyətdir.

Biz bu gün KTMT Nizamnaməsinin müvafiq maddəsini nəzərdən keçirmək barədə razılığa gəldik", - diplomat söyləyib.

**Qeyd edək ki, KTMT-nin Nizamnaməsinə əsasən, əgər üzv dövlət təşkilatın büdcəsinə borcunu iki il ərzində ödəmirsə, Kollektiv Təhlükəsizlik Şurası onun kvota vəzifələrinə namizəd irəli sürmək hüququnu dayandırır və borcun tam ödənilməsinə qədər səs hüququndan məhrum edir. Sistemli pozuntuya görə ölkə təşkilatdan xaric edilə və ya onun şuranın fəaliyyətində iştirakı məhdudlaşdırıla bilər. Bu qərar onun səsi nəzərə alınmadan qəbul edilir.**

# Prezident Administrasiyasında Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev ilə görüş keçirilib

**Prezident Administrasiyasında Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev ilə görüş keçirilib.**

Görüş haqqında məlumat Partiyanın Mətbuat xidmətindən verilib.

Qeyd olunur ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev cari ilin 10 iyun tarixində Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev ilə görüşüb.



Açıq fikir mübadiləsi şəraitində keçirilmiş görüş zamanı dünya və regionda cərəyan edən proseslər, həmçinin siyasi sabitliyi təmin edən amillər və siyasi partiyaların fəaliyyəti ətrafında söhbət aparılıb. Siyasi sabitliyin təməlində dayanan həmrəylik mühitinin təmin olunmasında sağlam iqtidar-müxalifət dialoqunun müstəsna əhəmiyyəti xüsusilə vurğulanıb. Bildirilmişdir ki, siyasi münasibətlər müstəvisində əməkdaşlıq təcrübəsinin şaxələnməsi qaçılmaz olaraq dövlətin demokratik ənənələrini inkişaf etdirir. Siyasi partiyaların legitim və şəffaf fəaliyyəti üçün yaradılmış imkanlar ölkənin siyasi həyatını zənginləşdirir və cəmiyyətin intellektual potensialının milli maraqların qorunması uğrunda səfərbər olunmasına xidmət edir.

Görüşdə həmçinin informasiya məkanında yaradılmış fəaliyyət sərbəstliyi nəticəsində siyasi partiyaların artan ictimai nüfuzu, partiya üzvlərinin müxtəlif dövlət qurumlarında çalışması və ölkənin ictimai həyatında yaxından iştirak etməsi ilə bağlı olan məsələlər də müzakirə olunmuşdur. Vurğulanıb ki, bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü ilə son illər ərzində həyata keçirilən tədbirlər sayəsində siyasi partiyaların işlək demokratik institut kimi inkişaf etməsi üçün zəruri şərait yaradılmışdır.

İctimai rəyi əks etdirən siyasi partiyalar cəmiyyətdə həmrəylik mühitinin qorunması prosesində də fəal şəkildə iştirak edir.

Milli birlik və siyasi sabitliyin qorunmasına xidmət edən həmrəylik mühitinin inkişafı naminə iqtidar ilə hər zaman sağlam əməkdaşlığa hazır olduğunu bildirən Partiya sədri dialoq dəyərlərinə bundan sonra da sadiq qalacağını vurğulamışdır.

Prezident Administrasiyasının rəsmisi görüşün sonunda milli maraqların qorunması uğrunda aparılan fəaliyyətdə Klassik Xalq Cəbhəsi Partiyasına müvəffəqiyyətlər arzulamışdır.

# "Erməni cəmiyyəti artıq ikinci dəfə sülh gündəliyinə, müharibə əleyhinə səs verdi...."

**"Ermənistanda tarixi 7 iyun parlament seçkilərinin Baş nazir Paşinyanın qələbəsi ilə başa çatması sülh gündəliyinin, sülh perspektivinin, bütün Cənubi Qafqazı əməkdaşlıq, açıq kommunikasiyalar coğrafiyasına transformasiyasını tamamlayacaq sülh təşəbbüslərinin qalibiyyətidir. Ermənistan Baş nazirinin "Vətəndaş müqaviləsi" Partiyasının qələbəsi, Rusiya tərəfdarlarının qələbə çala bilməməsi, erməni cəmiyyətinin revanşistləri dəstəkləməməsi ilk növbədə və başlıca olaraq Azərbaycanın sülh təşəbbüsləri, sülh diplomatiyası ilə formalaşan yeni reallığın, yeni tarixin, köhnə, müstəmləkəçi, forpost tarixi üzərində qələbəsidir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Zaur İbrahimli deyib. O, bildirib ki, Azərbaycanın onun rəhbəri Prezident İlham Əliyevin böyük qətiyyəti, mübarizəsi, dəyanəti, məharəti sayəsində reallaşan, real nəticə verən sülh diplomatiyasının uğurudur: "Bu diplomatiya Ermənistanda müasir, çağdaş tarixində ilk dəfə olaraq optimal, yeganə mümkün doğru yolu açmağa imkan verdi. Erməni cəmiyyəti artıq ikinci dəfə sülh gündəliyinə, müharibə əleyhinə səs verdi, birinci dəfə 2021-ci il 20 iyun seçkilərində Baş nazir Paşinyan 54% səs aldı. Bu gün Ermənistanda yerli vaxtla saat 06:30-a olan məlumata görə Ermənistan Mərkəzi Seçki Komissiyası bülletenlərin 55,95 faizi emal olunub. İlkin nəticələrə əsasən, hakim "Vətəndaş Müqaviləsi" Partiyası 50,86 faizlə liderlik edir.Ermənistan cəmiyyəti bu seçimi etməklə revanşist ideyaları ən azı tarixin indiki mərhələsində aktual saymadığını nümayiş etdirdi. Baş nazir Paşinyan məhz fəal şəkildə sülh təşəbbüsləri ilə çıxış etməklə, cəsarətli şüarlar səsləndirəndən, Azərbaycanla, Türkiyə ilə kommunikasiyaların açılması təşəbbüsləri, ticarət başlanandan sonra onun elektoral dəstəyi sürətlə artmağa başladı. Erməni cəmiyyəti bu təşəbbüslərə, şüarlara, sülhə səs verdi". O, bildirib ki, bu düşüncə dəyişikliyi əsasən Azərbaycanın sülh diplomatiyası ilə möhkəmləndi, Azərbaycan Prezidentinin irəli sürdüyü təkliflərlə başlayan sülh gündəliyi uzun müddət davam edən güclü müqavimətdən sonra yeganə real doğru seçim kimi ilk olaraq erməni elitası tərəfindən, daha sonra isə cəmiyyət tərəfindən qəbul edildi, dərk olundu. Üç il əvvəl



isə indiki hakim komanda tam fərqli mövqedən çıxış edirdi, ABŞ fərqli prizmadan yanaşırdı, Brüssel, Aİ ayrıcı xətlər çəkirdi. Yaxın keçmişə baxanda Azərbaycanın, Prezident İlham Əliyevin sülh uğrunda necə əzmlə mübarizə apardığı daha aydın görünür. Bütün təzyiqlərə, vədlərə baxmayaraq Azərbaycan rəhbərliyi real, dayanıqlı sülh perspektivini güzəştə, getmədi, sülh gündəliyini qorudu. Bu gün Paşinyan məhz Azərbaycanın qoruduğu, İrəli apardığı sülh gündəliyi ilə qalib gəlir. Əlbətdə zərərin yarısından qayıtmaq da xeyirdir, erməni cəmiyyəti sülhü seçməklə ilk növbədə öz müstəqil dövlətçiliyini qorumağı seçdi, vassal taleyindən imtina etdi. "Prioritet" Sosial iqtisadi Araşdırmalar Mərkəzi İB öz təhlillərində erməni cəmiyyətinin sülhü seçəcəyini, ən azı tarixin indiki mərhələsində bir daha vassallığa qayıtmaq istəməyəcəyini arqumentlərlə əsaslandırırdı və bildirirdi ki, seçkilərin nəticələri pozitiv dalğa yarada bilər. Azərbaycanın əsas gözləntisi seçkilərdən dərhal sonra Ermənistan rəhbərliyinin Qarabağ separatçılarının, bu cinayətkarların bütün tör-töküntülərinin rəsmi olaraq təmizlənməsidir. Xarici nümayəndəliklər bağlanmalıdır, bütün maliyyələşdirmə, dəstək göstərilməsi dayandırılmalıdır. Ermənistan hökumətinə məxsus bütün növ əmlak geri alınmalıdır, diasporaya açıq mesaj verilməlidir ki, Qarabağ separatçılarının, bu cinayətkarların tör-töküntülərinin hansısa formada dəstəklənməsi dövlətə, hakimiyyətə qarşı addım kimi qiymətləndiriləcək və adekvat reaksiya veriləcək.

Bu, həmçinin erməni cəmiyyətinin real olara yeni tarixi səhfə açmaqda qərarlı olmasının bariz əlaməti olacaq.Digər vacib məsələ, Zəngəzur dəhlizinin açılması ilə əlaqədar praktik addımlar atılması, sərhədlərin delimitasiya və demarkasiya işlərinin sürətlənməsi, sülh sazişinin imzalanması üçün konstitusiya islahatlarının həyata keçirilməsi, xaricdə ölkəmiz əlyehinə hər hansı ideoloji işin və aparılmasına dəstək verilməməsidir".

**Vasif**

# "Rusiyanın Ermənistan siyasəti keçmişdə ilişib qalıb"

**"Ermənistanda keçirilən seçkilər müxalifət üçün ağır məğlubiyyət, ona dəstək verən Rusiyanın isə uzunmüddətli regional siyasətinin fiaskosudur".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, Cənubi Qafqazda yeni siyasi transformasiya prosesi gedir və



Moskva bu dəyişən geosiyasi reallığa uyğunlaşmaq istəmir: "Rusiya Ermənistanda uğur qazana bilmir, çünki hələ də 1990-cı illərin siyasi yanaşması ilə hərəkət edir. Moskvanın region üzrə yeni və çevik siyasi strategiyası yoxdur. İrəli sürdüyü S. Karapetyan və R. Koçaryan kimi fiqurlar isə əsasən keçmiş Qarabağ məsələsinin siyasi ritorikasında ilişib qalıblar və cəmiyyətə gələcək vizyonu təqdim edə bilmirlər.

Məhz bu səbəbdən Rusiyanın Ermənistandakı siyasəti keçmişə bağlı qaldığı üçün dəyişən regional reallıq və gələcəyin siyasi tələbləri ilə uzlaşmadı".

**Sübhan**

*Rüstəm Hacıyev*

# Tramp atəşkəs deyir, İsraillə İran davam...



**ABŞ prezidenti Donald Tramp növbəti dəfə İran və İsraili təcili olaraq qarşılıqlı raket zərbələrini dayandırmağa çağırıb. "İsrail və İran təcili olaraq atəşi dayandırmalıdır"- deyə ABŞ prezidenti Truth Social sosial şəbəkə hesabında yazıb.**

**Xatırladıra ki, İyunun 8-də İran və İsrail qarşılıqlı raket zərbələriylə daha əvvəl hərbi əməliyyatların dayandırılması ilə bağlı elan etdilən atəşkəsi pozublar.**

**İranın xarici işlər nsziri Abbas Əraqçı "X" sosial şəbəkəsində, ABŞ-ın hərbi hava qüvvələrinə məxsus təyyarənin vurulma anının şəkilini paylaşıb. "Sadəcə olaraq baxın, görün biz onların hava hücumundan müdafiə komanda məntəqəsini nə günə qoymuşuq. Amerikan ordusu çoxdan bu ərazilərdən çıxarılmalıydı".**

**İranın Səudiyyə Ərəbistanı ərazisində yerləşən amerikan hərbi bazasına endiriyi rsket zərbəsi nəticəsində, 10 smrikalı əsgərin yaralandığı bildirilir.**

**Əraqçinin sözlərinə görə, Səudiyyə Ərəbistanı onlara qardaş ölkədir və onlar ABŞ hərbi qüvvələrini ölkə ərazilərindən çıxarmalıdır. "Tehranın zərbəliri nə ərəblərə, nə də iranlılara hörmət etməyən düşmən işğalçılara qarşı endirilir"-deyə İranın XİN rəhbəri qeyd edib.**

**Abbas Əraqçı daha sonra, İran sərhədləri yaxınlığında yerləşdirilən xarici dövlətlərin hərbi qüvvələrini bu ərazilərdən çıxarmağa səsləyib. "Bizim sərhədlərimizə yaxın ərazilərdə yerləşdirdiyiniz hərbi qüvvələri öz səhvləriniz ucbatından risk altına salırsınız"- deyə xəbərdarlıq edib.**

**İran bir tərəfdən münaqişəni diplomatiya yolu ilə həll etməyə çalışsada, başqa "dildə" danışmağada hazır olduğunu nümayiş etdirdir. Lakin, "başqa dil" İranın qələbəsini təmin edə biləcəkmi?**

**Yaxın Şərqdə atəşin dayandırılmasını tələb edən ABŞ prezidenti Donald Tramp, digər tərəfdən İran hərbi qüvvələrinin amerikan kəşfiyyat-zərbə helekopterinin vurulmasına "cavab veriləcəyini" bəyan edib.**

**Bir tərəfdən isə, İranın sərhədləri yaxınlığında yerləşdirilən ABŞ-ın hərbi bazalarına hücumlar ediləcəyi ilə təhdid edən İranın xarici işlər naziri, digər tərəfdən Avropa İttifaqı diplomatiyasının rəhbəri Kaya Kallassla telefon danışığı zamanı, Avropa İttifaqının ABŞ və İsrailin, İrana qarşı hərbi təzyiqlərini dayandırmağa çağırır.**

**Guya ABŞ və İsrail Avropa İttifaqını çox eşidirlər. ABŞ prezidenti Donald Trampın Aİ-yə münasibəti məlumdur. İsrailə gəldikdə isə, onlar on illərdi heç Birləşmiş Millətlər Təşkilatını saymırlar. "Nüfuzlu beynəlxalq təşkilatın" çıxardığı 200-dən çox qətnamələrini nəinki veclərinə almırlar, heç çoxunu açıb oxumurlarda. Qaldı hansısa Avropa İttifaqının tələbinə qulaq asalar...**

**Görünən odur ki, atəşin dayandırılması ilə bağlı ABŞ-ın təşəbbüsüylə ara-sıra aparılan danışıqların heç bir faydası olmayacaq. Tramp tərəfləri atəşi dayandırmağa çağıracaq, İsraillə İran isə, ona "hə" deyib, qarşılıqlı raket zərbələrini davam etdirəcəklər...**

## *"Son Zəng"lə bağlı qaydalar açıqlandı*

**Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) müvafiq təlimatına əsasən, bütün dövlət ümumi təhsil müəssisələrində ənənəvi "Son Zəng" tədbiri iyun ayının 13-də keçiriləcək.**

Adalet.az xəbər verir ki, bu barədə MÜTDA məlumat yayıb.

""Son Zəng" tədbirinin keçirilməsi qaydalarını tənzimləyən təlimatlar məktəblərə göndərilib, təlimatdan irəli gələn məsələlərlə bağlı şagird, müəllim və valideynlərlə müvafiq söhbətlər aparılıb. Təlimata əsasən tədbir ümumi təhsil müəssisəsinin həyətyanı sahəsində, həyətyanı sahəsi olmayan müəssisələrdə isə idman və ya akt zalında təşkil olunmalıdır. "Son zəng" tədbiri səhər saat 8:00, 9:00 və ya 10:00-da başlamalı və ən geci 2 saat ərzində bitməlidir.

Şagirdlər tədbirdə məktəbli formasında olmalıdır. Məzunların xarici görünüşü təhsil müəssisəsinin intizam qaydalarına uyğun və səliqəli olumalıdır. Bayağı musiqilərin səsləndirilməsinə yol verilməməlidir. Tədbir üçün milli-mənəvi dəyərlərə uyğun hazırlanmış, rəsmi və bədii hissədən ibarət ssenari olmalıdır.

Tədbirin açılışı Azərbaycan Respublikasının Dövlət Himni ilə başlamalı, daha sonra şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilməlidir.

Tədbirdə təşkilat və idarələrin nümayəndələri üçün xüsusi hazırlıq işləri aparılmamalı, masada yalnız içməli su olmalıdır.

Həmin şəxslərə hədiyyə və gül dəstələrinin təqdim olunması qadağandır; Tədbirin bədii hissəsi yalnız məktəbin daxili imkanları əsasında təşkil olunmalıdır", - deyə məlumatda qeyd olunub.



Səxavət Məmməd

# Ermənistandakı seçkinin nəticələri Azərbaycan üçün yeni...

*Ermənistanda keçirilən parlament seçkilərindən əvvəl xüsusilə Azərbaycanda bir çoxları düşünürdü ki, Nikol Paşinyan qalib gələcək və qısa zamanda həm sülh müqaviləsi imzalanacaq, həm konstitusiya dəyişdiriləcək, həm də işğal altındakı digər 4 kənd (Kərki və Qazaxın Yuxarı Əskipara, Barxudarlı, Sofulu kəndləri) Azərbaycana təhvil veriləcək.*

*Əslində, Paşinyanın hələ bir il öncə bu addımları atmaq üçün hüquqi və siyasi imkanları var idi. Çünki parlamentdə kifayət qədər səsə malik idi və istənilən sənədi maneəsiz keçirə bilərdi. Ancaq o, öz kreslosunu qorumaq və yenidən baş nazir olmaq üçün prosesi şüurlu şəkildə uzatdı. Çünki yaxşı anlayırdı ki, daxildə kiçik və orta sahibkarlığı nə qədər inkişaf etdirsə də, bu güzəştləri seçkidən əvvəl reallaşdıracağı təqdirdə müxalifət ona "xain" damğası vuraraq hakimiyyətdən devirə bilərdi. Ona görə də, Paşinyan maksimum riskləri sığortalayaraq prosesi iyun seçkilərinə qədər gətirib çıxardı.*

*Seçkinin nəticələri bəzilərində yenidən nikbinlik yaratsa da, Ermənistan qanunvericiliyi və mövcud siyasi reallıq qarşıdakı dövrün son dərəcə ağır və çətin keçəcəyini ortaya qoyur.*

*Paşinyan bundan əvvəl Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılının sovet dövründə Ermənistan SSR-in tərkibində olmadığını əsas gətirərək, prosesi "sərhədin dəyişdirilməsi" kimi deyil, sadəcə sovet xəritələrinə əsasən "sərhədin dəqiqləşdirilməsi" (delimitasiya) kimi təqdim etdi və parlament yan keçərək işi bitirdi. Ancaq o, yerdə qalan digər dörd kəndi eyni üsulla - sadəcə icra hakimiyyətinin birtərəfli qərarı ilə Azərbaycana verə bilməz. Bunun konkret hüquqi və praktiki səbəbləri var.*

*Əsas səbəb odur ki, Kərki (Naxçıvan istiqaməti) və Qazaxın Yuxarı Əskipara, Barxudarlı, Sofulu kəndləri Ermənistan ərazisi ilə tamamilə mühasirəyə alınıb (anklavdır). Ermənistanın daxili hüququna və Müstəqillik Bəyannaməsinə görə, bu ərazilər defakto Ermənistanın inzibati idarəçiliyində olan və onun "ərazi bütövlüyü" daxilində qəbul edilən yerlərdir. Ermənistan Konstitusiyasının 205-ci maddəsinə görə isə respublikanın ərazisinə aid olan dəyişikliklər mütləq ümumxalq referendumu yolu ilə həll olunmalıdır. Əgər ərazi mübadiləsi (məsələn, Başkəndlə dəyiş-düyüş) və ya birtərəfli qaytarılma baş verərsə, bu, birbaşa sərhəd dəyişikliyi sayılacaq. Yəni, Paşinyan istəsə belə, bu kəndləri Azərbaycana qaytarmaq hüquqi baxımdan asan olmayacaq. Əslində Azərbaycana geri qaytarılan kəndlər də asanlıqla qaytarılmamışdı. O zaman yaşanan hadisələr hər kəsin xatirindədir.*

*Paşinyan Azərbaycanla bu kəndlərin qaytarılma mexanizmini razılaşdırsa belə, imzaladığı beynəlxalq müqavilə Ermənistan Milli Assambleyasında (parlamentində) ratifikasiya olunmalıdır. Yeni parlamentdə Paşinyanın "Mülki Müqavilə" partiyası sadə çoxluğa (60+ deputat) sahibdir. Bu güc sadə qanunları və müqavilələri keçirmək üçün yetərlidir, ancaq radikal müxalifət bu addımı "torpaq vermək" kimi qələmə verərək prosesi Konstitusiya Məhkəməsinə daşıyacaq. Bu kəndlərin parlamentdən və referendum keçmədən birtərəfli təhvil verilməsi isə ölkədə birbaşa konstitusiya çevrilişi və ya baş nazirin impiçmenti iddialarına hüquqi zəmin yarada bilər.*

*Ümumiyyətlə, Paşinyan Ermənistandakı seçkiləri Avropa İttifaqı (Aİ) ilə Rusiyanın növbəti mübarizə meydanına çevirməyi bacardı. Bu gedişlə o, Qərbdən həm siyasi, həm də maliyyə dəstəyi qopardı. Eyni zamanda, Moskva ilə münasibətləri tarım çəkərək Rusiya ilə əlaqələri tamamilə kəsəcəyi təqdirdə Qərbin necə davranacağını və nələr vəd edəcəyini test etdi. Paralel olaraq, Rusiya ilə də pərdəarxası təmasları saxlayaraq rəsmi Moskvanın dözüm həddini yoxladı və anladı ki, Moskvadan tamamilə qopmaq həm onun özü, həm də Ermənistan üçün faciəvi sonluqla yekunlaşa bilər.*

*Seçkilərin nəticələrinə baxdıqda Paşinyanın həm Rusiyanı, həm də Avropa İttifaqını eyni dərəcədə razı sala biləcək bir balans yaratdığının şahidi oluruq: Rusiya Paşinyanı devirməsə də, parlamentdə onun qarşısında çox güclü bir müxalifət formalaşdırdı; Paşinyan isə hökumət qurmaq üçün lazımi sayı əldə etdiyindən Qərb və Aİ ilə əməkdaşlığı rahatlıqla davam etdirəcək. Fransanın seçkilərə Rusiyanın müdaxilə etdiyini bəyan edərək canfəşanlıq göstərməsi isə məsələni Paris-Moskva davasına çevirir ki, bu da Paşinyanın daxili məsuliyyətdən yayınması üçün əlverişli zəmindir.*

*Ancaq 7 iyun 2026-cı il seçkilərinin əsas nəticəsi odur ki, Paşinyan sadə səs çoxluğu qazansa da, konstitusiya çoxluğunu əldə edə bilmədi. Bu isə Bakı üçün Paşinyanın "vaxt qazanmaq oyununun" artıq tükəndiyi mənasına gəlir. Rəsmi Bakı Ermənistanın daxili siyasi gərginliklərinin girovuna çevrilmək niyyətindədirmi? Əgər Ermənistanın bu daxili qeyri-müəyyənliyi qəbul olunarsa, region 2020-ci ilin 27 sentyabrından öncəki dönəmə - bitməyən danışıqlar, nəticəsiz görüşlər və imitasiya mərhələsinə qayıdacaq. Yox, əgər Azərbaycanın mövqeyi qəti olacaqsa, Bakının masada və sahədə ata biləcəyi konkret addımlar var:*

*Birincisi, rəsmi Bakı Paşinyanın "parlamentdə gücüm çatmır" bəhanəsini qəbul etməyəcək. Azərbaycan açıq şəkildə bəyan edə bilər ki, konstitusiya dəyişikliyi Ermənistanın daxili işi yox, dayanıqlı sülhün əsas hüquqi təminatıdır. Çünki rəsmi Bakının sülhlə bağlı fundamental tələbi Ermənistan konstitusiyasından Azərbaycana qarşı torpaq iddialarının çıxarılmasıdır və Azərbaycanın indiki geosiyasi şərtlərdə bu şərtdən geri addım atması qeyri-mümkündür.*

*İkincisi, Azərbaycan Paşinyanı dəstəkləyən ABŞ və Avropa İttifaqının qarşısında birbaşa məsələ qaldıra bilər: "Bəslədiyiniz lider sülhə hazırdırsa, hüquqi öhdəliklərini yerinə yetirsin, əks halda yaranacaq gərginliyə görə məsuliyyət tamamilə İrəvanın üzərindədir".*

*Üçüncüsü, əgər Paşinyan (Fitch-in son hesabatlarında da qeyd olunduğu kimi) referendumu mütləq şəkildə 2027-ci ilə keçirmək istəyirsə, Bakı onun qarşısına şərt qoya bilər: Sülh müqaviləsin mətni imzalanır, lakin orada ayrıca bənd qeyd olunur: "Müqavilə yalnız Ermənistan konstitusiyasından Azərbaycana qarşı ərazi iddiaları rəsmən çıxarıldıqdan və referendum təsdiqləndikdən sonra hüquqi qüvvəyə minir". Bu gediş Paşinyanı daxili siyasi alverə məcbur edəcək - o, referendumu keçirmək üçün parlamentdəki digər qüvvələrlə (məsələn, müxalifətin biznes qanadı ilə) kompromis və güzəştlər axtarmalı olacaq.*

*Dördüncüsü, Paşinyan prosesi uzatdıqca Azərbaycan regional kommunikasiyalar mövzusunda İrəvanı tamamilə oyundan kənar (ofsayd) vəziyyətdə saxlamağa davam edə bilər. Düzdür, hazırda Azərbaycan Ermənistana benzin satır, digər ölkələrdən gələn mal və məhsulların keçidinə şərait yaradır. Rəsmi Bakı bu iqtisadi yumşalmanı tamamilə dayandıra bilər.*

*Eyni zamanda, Bakı Araz çayı üzərindən İran ərazisi ilə Naxçıvana gedən yolu (Ağbənd dəhlizi) sürətlə tamamlayır. İrəvan prosesi uzadarsa, Bakının regional təhlükəsizlik naminə Tehranla əlaqələrini daha da sıxlaşdırmaqdan başqa yolu qalmır, çünki müstəqillikdən bəri Naxçıvana tək quru yolu məhz İran üzərindən keçir. Ermənistan iqtisadiyyatının blokadadan çıxması və regional layihələrə (məsələn, Qərbin dəstəklədiyi yeni TRIPP layihəsinə) inteqrasiyası birbaşa sülh müqaviləsinə bağlıdır. Bakı İrəvanı bu böyük iqtisadi dividendlərdən məhrum etməklə daxili auditoriyanın Paşinyana "sülhü tezləşdir" təzyiqi etməsini təmin edə bilər. Ancaq burada Çin və ABŞ kimi qlobal güclərin maraqları və mümkün təzyiqləri də nəzərə alınmalıdır, çünki bu layihələrin sahibləri regional deyil, qlobal oyunçulardır.*

*Beşincisi, əgər İrəvan anklav kəndləri parlament baryeri ucbatından qaytara bilmirsə, Bakı demarkasiya prosesini birtərəfli qaydada dondura və ya həmin kəndlərin ətrafındakı strateji yüksəkliklərdəki hərbi mövqelərini daha da gücləndirə bilər.*

*Paşinyan öz hakimiyyətini qorumaq üçün prosesi bura qədər "yaxşıca oynadı". Ancaq o, artıq bu taktikaların sonuna gəlib çıxıb. Seçki bitdi, bəhanə qalmadı. İndi Azərbaycan növbəti mərhələdə topu tamamilə Ermənistanın meydanına ataraq konkret zaman qrafiki tələb etməlidir. Paşinyan ya parlamentdəki digər deputatları bir şəkildə razı salıb referenduma getməlidir, ya da Azərbaycan regional layihələri onsuz icra edib, İrəvanı növbəti geosiyasi və iqtisadi böhrana sürükləməlidir. Ermənistandakı seçkinin nəticələri Azərbaycan üçün yeni bir qeyri-müəyyənlik mərhələsi yaratdı. Bu qeyri-müəyyənliyin ucunda isə sülhdən hərbə qədər hər şey var...*

Etibar Əliyev

# Azərbaycan riyaziyyat məktəbinin layiqli davamçısı



*"Riyaziyyat- ağılın ornamenti, intellektual təxəyyülün sərbəst uçuşu və şairə, rəssama, şahmatçıya gələn ilham kimidir".*

*Qodfri Xardi*

**Fizika-riyaziyyat elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar elm xadimi, Türkiyə Tübitak Mükafatı Laureatı (PPÖ), Prezident yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının sədri, BDU-da kafedra müdiri Arif Ağacan oğlu Səlimovun 70 yaşı tamam oldu.**

**Universitetlərin reytinqinə böyük alimlərin orada çalışmalarının təsiri şübhəsizdir. Bakı Dövlət Universitetində xeyli nüfuzlu riyaziyyatçılar, fiziklər dərs deyib və ciddi elmlə məşğul olublar. Arif Səlimov BDU-nun nüfuzunu artıran alimlərdən biridir. O, elmi dərəcələrini 1804-cü ildə əsası qoyulmuş Kazan Dövlət Universitetində qazanıb. Bakı Dövlət Universitetinin mexanika -riyaziyyat fakültəsini bitirdikdən sonra 1980-1983-cü Kazan Dövlət Universitetinin əyani aspiranturasında "Həndəsə və topologiya" ixtisası üzrə təhsil almışdır. 1983-cü ildə aspiranturanı bitirmədən əvvəl dissertasiyasını müdafiyəyə təqdim etmiş və 1984-cü ilin yanvar ayında Kazan şəhərində məşhur sovet həndəsə alimi V. V. Vişnevskinin elmi rəhbərliyi altında namizədlik (PhD) dissertasiyasını müdafiə etmişdir. 1983-1999-cu illərdə Bakı Dövlət Universitetinin həndəsə kafedrasında müxtəlif vəzifələrdə çalışmışdır. 1998-ci ildə Kazan Dövlət Universitetində "Həndəsə və topologiya" ixtisası üzrə elmlər doktoru (D.Sc.) dissertasiyasını müdafiə etmişdir və bu ixtisas üzrə Azərbaycanda yeganə elmlər doktorudur. 2017-ci ildən Bakı Dövlət Universitetinin "Cəbr və Həndəsə" kafedrasının müdiri vəzifəsində çalışır.**



**Biz millət olaraq hələ də Riyaziyyat elminin ölkənin inkişafındakı rolunu dərk etmirik.**

**Nəhəng Çin riyaziyyatçısı Kalabi hipotezini (indi Kalabi - Yau hipotezi adlanır) isbat etdiynə görə 1982-ci ildə Riyaziyyat üzrə ən yüksək mükafat sayılan Filds medalına layiq görülmüş Yau Şintunun aşağıdakı fikirləri manifest xarakteri daşıyır:**

**"Biz riyaziyyatçıların varlanmaq fikri yoxdur, yaxud hansısa sülalə yaratmağa cəhd etmirik, əbədi həqiqət yolunda bizi irəli aparan nəzəriyyə və tənliklər axtarışındayıq. Riyaziyyat elmi dövləti varlı və qüdrətli etmək gücünə malikdir. Ona görə ki, bu elm bütün tətbiqi elmlərin fundamentini təşkil edir. Bununla yanaşı riyaziyyata sahib çıxmaq ölkədə sülhün və sabitliyin qorunmasının qarantı ola bilər. Bizim disiplin müasir cəmiyyətdə həyatın dayanıqlığı və planlaşdırmada əvəzsiz rol oynayır".**

**Arif Səlimovun Azərbaycanda Riyaziyyat elminin inkişafında əməyi böyükdür. Bu vacib elmi yaşatmaq üçün dərs deyir, alimlər yetişdirir və nüfuzlu riyaziyyatçı kimi ölkəmizi xaricdə tanıtdırır.**

**Dəyərli Arif müəllim! Sizə sağlam ömür sürməyi və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.**

# Bakıda iş saatları dəyişdirilir - Sıxlıq azalacaq

**"Bakıda tezliklə dəyişkən iş qrafikinə keçilə bilər".**

Adalet.az xəbər verir ki, bu barədə deputat Vüqar Bayramov sosial şəbəkə hesabında məlumat verib. Deputatın sözlərinə görə, "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"na əsasən, dövlət orqanlarının, təhsil və tibb müəssisələrinin, habelə digər hüquqi və fiziki şəxslərin iş rejiminin dəyişkən iş qrafiki ilə təşkili nəzərdə tutulub. "Proqrama görə, bu, məhz 2026-cı ildə reallaşacaq. Dəyişkən iş qrafikinin tətbiqi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, TƏBİB və Nəqliyyatı Əlaqələndirmə Şurası tərəfindən aparılan təhlillər yaxın zamanlarda tamamlanmalıdır. Bununla da, Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək siyahılara əsasən dəyişkən iş rejimi təşkil olunacaq", - deputat qeyd edib.

V.Bayramov bildirib ki, bir çox inkişaf etmiş ölkələrdə, xüsusilə Avropada dəyişkən iş rejimi artıq tətbiq olunur və bu model konkret nəticələr verir: "Təhlillər göstərir ki, fərqli işə başlama saatları nəqliyyat yüklənməsini bölüşdürür və səhər-axşam pik vaxtlarda sıxlığı azaldır. Avropa təcrübəsi göstərir ki, dəyişkən iş qrafiki yol-nəqliyyat sıxlığını azaldır, ictimai nəqliyyatda yüklənməni bölüşdürür, işçi məhsuldarlığını artırır və şəhər infrastrukturuna düşən təzyiqi azaldır.

Gözlənilir ki, 2026-cı ildə Azərbaycanda da dövlət proqramının tələblərinə uyğun olaraq fərqli sektorlarda iş saatlarının mərhələli şəkildə dəyişdirilməsi reallaşacaq. Bu modelə əsasən, bütün müəssisələr eyni saatda fəaliyyətə başlamayacaq və bu da nəqliyyat sıxlığına təsir göstərəcək. Təbii ki, dəyişkən iş qrafikinin tətbiqi nəqliyyat sıxlığını tam aradan qaldırmaq deyil, azaltmaq üçün tətbiq olunur. Nəqliyyata sıxlığın aradan qaldırılması infrastrukturun genişləndirilməsi ilə yanaşı, oxşar və digər dolayı tədbirlərin icrasından birbaşa asılıdır".

# Ombudsmandan çağırış: Uşaqlarımızı onlayn risklərdən qorumalıyıq!

**"Rəqəmsal inkişaf yeni ictimai münasibətlər formalaşdırır və bu mühitdə uşaqların təhlükəsizliyi xüsusi hüquqi mexanizmlərlə təmin olunmalıdır".**

Adalet.az xəbər verir ki, Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Milli Məclisdə çıxış edərək uşaqların rəqəmsal mühitdə qorunması məsələsinə münasibət bildirib.

O qeyd edib ki, ölkənin müxtəlif sahələrində rəqəmsal texnologiyaların tətbiqi mühüm inkişaf mərhələsi yaratsa da, bu proses eyni zamanda uşaqları müxtəlif onlayn risklərə də məruz qoyur. Ombudsman bildirib ki, informasiya əl-



də etmək imkanlarının genişlənməsi müsbət hal olsa da, zərərli məzmun və kibertəhlükələr ciddi çağırışlar yaradır. Səbinə Əliyeva vurğulayıb ki, Azərbaycan bir sıra beynəlxalq sənədlərə qoşularaq uşaqların hüquqlarının qorunmasını öhdəlik kimi qəbul edib. Bu sənədlər uşaqların rəqəmsal mühitdə müdafiəsi üçün daha güclü qanunvericilik və institusional mexanizmlərin tətbiqini tələb edir:

"Hazırda bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin edilməsi istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi zəruridir".

Ombudsman bildirib ki, məqsəd uşaqların internet və sosial şəbəkələrdən istifadəsini məhdudlaşdırmaq deyil, onların hüquqlarını qoruyan təhlükəsiz rəqəmsal mühit formalaşdırmaqdır.

# Natiq Məmmədli: "Azərbaycan mediası bu istiqamətdə maarifləndirici fəaliyyət həyata keçirib"

**"Bu məsələ ilə bağlı media gündəmində ilk müzakirələri başladan tərəflərdən biri də biz olmuşuq. Azərbaycan mediası da bu istiqamətdə müəyyən maarifləndirici fəaliyyət həyata keçirib. Hesab edirəm ki, jurnalist camiəsinin üzərinə düşən əsas vəzifə bu qanundan irəli gələn məsələlərin cəmiyyətə düzgün izah edilməsidir".**

Adalet.az xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyi (MEDİA) İcraçı direktorunun müavini Natiq Məmmədli Milli Məclisin İnsan hüquqları, Ailə, qadın və uşaq məsələləri, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin iclasında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

O bildirib ki qanun layihəsi ilə bağlı müxtəlif fikirlər səslənəcək: "Təcrübə göstərir ki, belə təşəbbüslər ortaya çıxanda çox zaman spekulyativ yanaşmalar və yanlış şərhlər daha sürətlə yayılır. Sonradan isə biz həmin məlumatları təkzib etməyə və ya düzəliş verməyə çalışırıq. Təəssüf ki, bu yanaşma hər zaman kifayət qədər effektiv olmur. Bu qanun cəmiyyətə qadağa kimi deyil, uşaqlar üçün yeni imkanlar yaradan bir təşəbbüs kimi təqdim edilməlidir. Çünki burada məqsəd sadəcə məhdudiyyət tətbiq etmək deyil. Biz nəyi məhdudlaşdırırıq? Sosial şəbəkələrdə məqsədsiz və sistemsiz şəkildə vaxt keçirilməsini. Eyni zamanda bunun alternativini də təklif etməliyik.

Uşaqlara faydalı informasiya təqdim etməli, maarifləndirmə işini elə qurmalıyıq ki, sosial şəbəkələrdə keçirilən vaxtın əvəzinə kitab oxumaq, yeni biliklər əldə etmək, maraqlı məzmun yaratmaq və digər faydalı fəaliyyətlər təşviq olunsun".

N.Məmmədli qeyd edib ki, bu gün uşaqlar və yeniyetmələr internetdən geniş istifadə edirlər:

"Məktəblərdə verilən bir çox tapşırıqların yerinə yetirilməsi də internet resurslarından istifadəni zəruri edir. Ona görə də məqsəd internetdən istifadənin qarşısını almaq deyil, onun daha səmərəli və təhlükəsiz istifadəsini təmin etməkdir. Bu baxımdan rəqəmsal mühitdə maarifləndirici və faydalı resursların sayını artırmalıyıq ki, uşaqlar zərərli məzmunun alternativini görə bilsinlər. Qeyd etmək istəyirəm ki, hətta 18 yaşından sonra da sosial şəbəkələrdən və rəqəmsal imkanlardan məqsədsiz istifadə insanın vətəndaş kimi formalaşmasına ciddi töhfə vermir.

Buna görə də rəqəmsal düşüncə və rəqəmsal mədəniyyət uşaqlarda və gənclərdə daha erkən yaşlardan formalaşdırılmalıdır. Bugünkü çıxışlardan da cə-



miyyətin bu məsələ ilə bağlı narahatlığını hiss etmək mümkündür. Lakin rəqəmsal reallıq yalnız təhdidlərdən ibarət deyil. Onun çox geniş və əhəmiyyətli müsbət tərəfləri də var. Hesab edirəm ki, bu qanunun ictimai müzakirəsi ilə paralel olaraq media da öz fəaliyyət istiqamətlərini daha dəqiq müəyyənləşdirməlidir. Cəmiyyətin rəqəmsal savadlılığının artırılması, gənc nəslin qorunması və onlara yeni imkanların yaradılması istiqamətində ciddi fəaliyyət göstərilməlidir.

Maarifləndirmə Azərbaycan mediasının yaranışından etibarən əsas funksiyalarından biri olub. Düşünürəm ki, bu gündən başlayaraq həmin istiqamətdə fəaliyyətimizi daha da gücləndirməliyik".

# "Əslində dövlət idarəçiliyinin keyfiyyəti də məhz budur..."

**"Ölkə prezidenti il ərzində yüzlərlə fərman və sərəncam imzalayır. Açıqlamalara görə, 2003-2023-cü illərdə Azərbaycan Prezidentinin 6 mindən çox fərman və 14 mindən artıq sərəncam imzaladığı bildirilib. Təbii ki, bu sənədlərin hər birinin ideyası, məzmunu və texniki əsaslandırılması birbaşa prezident tərəfindən sıfırdan hazırlanıb təqdim edilmir. Dövlət idarəetməsinin mahiyyəti də məhz burada ortaya çıxır".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, bəzi məsələlər üzrə siyasi iradə və birbaşa göstəriş ölkə başçısından gəlir:

"Amma çox böyük hissə üzrə təşəbbüslər aidiyyəti qurumlar tərəfindən hazırlanır, əsaslandırılır, razılaşdırılır və təqdim edilir. (Son günlər dövlət qərarlarının təşəbbüs və məsuliyyət mexanizmi ətrafında gedən müzakirə bu məqama ayrıca toxunmağı zəruri edir.) Son mərhələdə isə hüquqi qərar mexanizmi işə düşür və sənəd imzalanır.Yeni dövlət idarəçiliyində "son imza kimindirsə, təşəbbüsü də o göstərməlidir" düşüncəsi doğru deyil".



E.Əmirov bildirib ki, dövlət idarəetməsində bir məsələni düzgün anlamaq vacibdir:

"Milli Məclis, Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, yerli icra hakimiyyətləri, dövlət agentlikləri, komitələr, xidmətlər, tənzimləyici qurumlar və digər institusional strukturlar yalnız qərarın icraçısı deyil, eyni zamanda təşəbbüs formalaşdıran, problem qaldıran, əsaslandırma hazırlayan və təklif verən institusional mexanizmlərdir. Əslində dövlət idarəçiliyinin keyfiyyəti də məhz budur. Problem yalnız o zaman gündəmə gəlməməlidir ki, məsələ artıq sosial narazılıq mərhələsinə çatsın və ya televiziyalarda müzakirə olunsun. Dövlət institutlarının funksiyalarından biri də cəmiyyətin ehtiyaclarını əvvəlcədən görmək, təhlil etmək və aidiyyəti üzrə təşəbbüslərlə çıxış etməkdir.Üstəlik bu təşəbbüslər "mütləq şəkildə ictimailəşdirilməlidir" kimi fikir də doğru deyil. Hər məsələ efirdən, sosial şəbəkədən və ya populist açıqlamalardan keçmədən də peşəkar əsaslandırma ilə aidiyyəti üzrə təqdim edilə bilər. Bu həm mümkündür, həm də institusional məsuliyyətin bir hissəsidir.Əlqərəz, dövlət idarəçiliyində "bu məsələ bizlik deyil" yanaşması sadəcə passiv müdafiə mövqeyidir. Halbuki effektiv idarəetmə sistemi məsuliyyəti ötürən deyil, təşəbbüs göstərən institutlar üzərində qurulur".

**Sübhan**

*Elxan Şükürlü*



# Təhlükə var, ayıq-sayıq olmalıyıq...

**Bu gün nüfuzlu CNN kanalında yayılan və geniş əks-səda doğuran məlumat İran-Azərbaycan əlaqələrinin yaxşılaşmasının qarşısını almağa hesablanmış növbəti informasiya əməliyyatı olmaqla, aprelin 21-də İsrail mediası üzərindən həyata keçirilən planın davamıdır, onu gücləndirən tezisdir.**

**Əsas məqsədlərdən biri isə kibeməkandan istifadə etməklə, İran və Azərbaycan əhalisi arasında qarşılıqlı inamsızlıq və nifrət atmosferini saxlamaq, münasibətlərin yaxınlaşmasına imkan verməməkdir!**

**3 aydır gözlənilir ki, tezliklə Azərbaycanla İranı birləşdirən və Naxçıvana, Türkiyəyə gediş-gəlişimizi asanlaşdıracaq "Araz dəhlizi" - Ağbənd-Kəlalə avtomobil yolu, gələcəkdə isə dəmiryolu istifadəyə verilsin.**

**ABŞ və İsrail isə 3 müsəlman ölkə - Azərbaycan - İran - Türkiyə arasında münasibətləri yaxşılaşdıracaq bu dəhlizin işlək olmasını qətiyyən arzulamır, hər vasitəylə İranın həm Azərbaycan, həm də Türkiyə ilə gərgin vəziyyətdə olmasına çalışır.**

**Bu ehtimalımızı gücləndirən daha bir mühüm detal CNN-in dezinformasiyasının Azərbaycan və İran sərhədçilərinin iyunun 1-də Astarada görüşməsindən, sərhəd-keçid məntəqələrinin açılış üçün hazır olduğuna dair bəyanatlarından dərhal sonra ortaya çıxmasıdır.**

**Təhlükəli olan isə bu dezinformasiyanın yayılmasından sonra atılacaq addımlardır.**

**Dəfələrlə etdiyimiz çağırışı bir daha təkrarlayırıq: Azərbaycan cəmiyyəti və dövlət qurumlarımız ayıq-sayıq olmalı, xüsusən də kibeməkan üzərindən çəkildiyimiz fitnəkar addımlara uymamalı, "özgə bayraq" adı altında daha irimiqyaslı əməliyyatlara əlverişli zəmin hazırlayan kənar qüvvələrin anında ifşası üçün informasiya-təbliğat işini gücləndirməlidir!**

**İlk növbədə də hər iki ölkənin efir və media məkanı üçüncü tərəfin maraqları naminə münasibətləri korlamağa çalışan zir-zibil yığınından təmizlənməlidir!**

## *Bu məhsullar bahalaşdı*



**Bu ilin may ayında Azərbaycanda qida məhsulları, alkoqollu içkilər və tütün məmulatlarının qiymətləri əvvəlki ayla müqayisədə 0.1 faiz azalıb. İllik müqayisədə isə bu kateqoriya üzrə qiymətlər 6.6 faiz artıb.**

Adalet.az xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Məlumata görə, may ayında qarabaşaq yarması, mal və qoyun əti, kolbasa məmulatları, pendir, kəsmik, süfrə marqarini, günəbaxan və qarğıdalı yağı, limon, alma, kivi, ağ kələm, brokkoli, göyərti, göy lobya, süfrə çuğunduru, soğan, eləcə də qazlı və qazsız sular bahalaşıb.

Eyni zamanda təzə balıq, yumurta, banan, çiyələk, xiyar, pomidor, şirin bibər, badımcan, yerkökü, sarımsaq və kartof ucuzlaşıb. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişiklik qeydə alınmayıb.

Qeyri-qida məhsulları üzrə istehlak qiymətləri aylıq müqayisədə 0.1 faiz, illik müqayisədə isə 3.9 faiz artıb. Hesabat dövründə boya, plastik boru, yuyucu vasitələr və şəxsi gigiyena məhsulları bahalaşıb, zərgərlik məmulatlarının qiymətində isə azalma müşahidə olunub.

May ayında əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri əvvəlki ayla müqayisədə 0.2 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə isə 5.7 faiz yüksəlib. Bu dövrdə beynəlxalq hava sərnişindaşıma xidmətləri bahalaşıb, digər xidmətlərin qiymətlərində ciddi dəyişiklik baş verməyib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-may aylarında istehlak qiymətləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 5.6 faiz artıb. Bu göstərici qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6.7 faiz, qeyri-qida məhsulları üzrə 3.7 faiz, ödənişli xidmətlər üzrə isə 5.7 faiz təşkil edib.

Ötən ilin may ayı ilə müqayisədə illik inflyasiya 5.6 faiz, aylıq inflyasiya isə 0.1 faiz olub.



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# İstedad ölürsə...

**... Hər bir sahədə istedadlı insanlar var! Və bu heç kimə sirr deyil. Bir də Allah-Təala bütün bəndələrini sevir və onlara istedad bəxş edir. İntəhası, zəhmət çəkənlər, əziyyətə qatlaşanlar bu istedadı inkişaf etdirir, cilalayır, üzə çıxarır, tənbəllər isə məhv edirlər...**

**Amma bu gün istedadlı insanların üzə çıxmasına, inkişafına bir çox halda qara qüvvələr imkan vermir. Hamıya gün kimi aydındır ki, istedadlı həkimə, müəllimə, şairə, yazıçıya, jurnalistə bəzən həmin kollektivin özündə imkan vermirlər. Hər yolla onları gözümçıxdıya salır, badalaq atır, hətta müdiriyyətin gözündən salmağa çalışırlar və çox vaxt da buna nail olurlar! Axı istedadlı insan yalan danışa, dələduzluq edə, eləcə də ev yıxa bilmir.**



**Cahil və nadan adamlarsa, bunları çox yaxşı bilirlər. Ona görə də onlar vəzifəli şəxslərə, müdiriyyətə daha yaxındırlar. Bir çox halda müdiriyyətin də istedadlı adamlardan xoşu gəlmir. Qorxur ki, günlərin birində istedadlı adamı onun yerinə təyin edə bilərlər! Bunu hiss edən o vəzifəli şəxslər ətrafına savadsız, cahil və nadan adamları yığır! Ki, istediyini eləsin və ətrafındakılar ona baş əysinlər! Amma onlar bir şeyi başa düşmürlər ki, istedad gün işığı kimi bir şeydi, o nə vaxtsa üzə çıxacaq! Məgər, belə hadisələr az olub??? Savadsız rəis, müdir və vəzifəli şəxslər həmişə özündənrazı olub və düşünüb ki, o, olmasa heç kəs bu işləri görə bilməz!**

**İstedadlı sair-publisist Şükür Şenolla uzun müddət idi ki, əlaqəm yox idi. Bu gün telefonla əlaqə yaratdım və o ki var, ürəyimizi boşaltdıq. Və istedadlı yazara da vaxtilə işlədiyi yerdə qiymət verə bilməyiblər, axırda bezib o kollektivdən uzaqlaşıb. Düz beş ildir ki, işsizdir! Çox təəssüf ki, belə bir istedadlı adamın jurnalist, şair kimi peşəkarlığından istifadə edilmir!**

**Ona görə də Şükür qardaşımız insanlardan küsüb, doğma yurdu - Füzuli rayonunun Böyük Bəhmənli kəndinə gedib. Amma Allahdan küsməyib! Bir neçə il kənddə yaşayb və bir neçə roman, povest qələmə alıb. Doğma kəndi ona yeni nəfəs, yeni güc verib! İnsan həmişə çətin gündə anadan olduğu yerə gedir. Çünki oranın havası, suyu, hətta adamları belə insana yeni ruh, yeni bir təkan verir! Amma Şükür kimi istedadlı, peşəkar yazarları itirmək bu cəmiyyətə çox böyük ziyan vurur.**

**Belə bir tərbiyəli, əxlaqlı, vətənpərvər və istedadlı bir yazarın kölgədə qalması mənim ürəyimi ağrıdır! Çünki onunla eyni orta və ali məktəbi bitirmişik. Və uzun müddət onun mətbuatdakı fəaliyyəti də gözlərimin önündə olub! Yəni Şükür Şenolun böyük mətbuata qayıtmasına cəmiyyətin çox ehtiyacı var! Ən azından ona görə ki, bu istedadlı adamların sönməsi cəmiyyətin işığının azalması və sönməsi deməkdir!!!**

## Eskalatorlar niyə işləmir?



**Bakıda piyadaların təhlükəsizliyini təmin etmək üçün çoxlu sayda yeraltı keçidlər inşa edilib! Çox gözəl! Və bu yeraltı keçidlərdə eskalatorlar da istifadəyə verilib.**

Təəssüf olsun ki, bir çox yeraltı keçidlərdə eskalatorlar davamlı olaraq işləmir. Məsələn, " Azneft" dairəsindəki yeraltı keçiddə dörd eskalator mövcuddur. Filormaniya bağından keçib yeraltı keçidə düşəndə orda olan hər iki eskalator altı aya yaxındır ki,işləmir. Ordan keçib Adil İsgəndərov küçəsinə çıxmaq istəyəndə burda da iki eskalatordan biri işləyir.

Yəni piyadalar bu yeri pilləkənlə qalxmağa məcbur olurlar.Özü də xəstə və yaşlı adamlar eskalator işləməyəndə çox əziyyət çəkirlər. Hətta bir yaşlı və çəkisi ağır olan qadın yıxıldı . Ona yaxınlıqdakı insanlar kömək edərək ayağa qaldırdılar! Demək olar ki, belə hadisələr həmin yerlərdə tez-tez baş verir! Biz hər gün bu yeraltı keçiddə işləməyən eskalatorları görürük və qanımız qaralır. Amma aidiyyəti qurumların əməkdaşları əfsuslar olsun ki, bu eskalatorları nə görür, nə də qanları qaralır. Çünki əziyyəti onlar çəkmirlər! Əziyyəti o eskalatorlardan istifadə etməli olan insanlar çəkirlər!!!

**Emil FAİQOĞLU**

## Dua edək ki, yağış yağmasın...



**Biz həmişə yağışın yağmasını istəmişik. Ən azından ona görə ki, yağış yağanda bütün təbiətə, ağaclara, güllərə, çiçəklərə , otlara, zəmiyə can verir.**

Əgər uzun müddət yağışlar yağmasa, dəmiyə torpaqlarda əkilən taxıl sahələri hamısı puç olar, orada əkilən hər şey quruyar! Başqa sözlə, demiş olsaq , taxıl bol olmasa , çörək bol olmaz! Bunlar hamısı aydındır! Aydın olmayan odur ki, həddindən artıq yağış yağanda kəndə təsərrüfatının əsas sahələri ziyan görür.

Belə ki, fasiləsiz yağışlar , mer- meyvələri məhv edir, taxılı, arpanı yetişməyə qoymur və biçilmiş otlar sahələrdə qalıb çürüyür. Və aramsız yağışlar otu biçməyə də imkan vermir! Artıq ölkəmizdə arpa biçimi başlayır. Onu da deyək ki, dolu və leysan yağış taxıl və arpa sahələrinə böyük ziyan vurub.

Çünki güclü yağışdan və doludan sonra həmin sahələrə yerə yatıb. Bu da arpa və taxıl biçən kombaynların işini çətinləşdirir və biçini ləngidir!!! Ona görə də Allaha dua edək ki, biçin vaxtı yağışlar yağmasın və insanların çəkdiyi zəhmət hədər yerə getməsin. İnşallah , Ulu Yaradan səsimizi eşidər !!!

## Bazarlarda meyvələr od tutub "yanır"



**Bazarlıq eləmək üçün bu gün Bakıda ən çox ucuz məhsullar satılan 8- ci Kilometr bazarına getdim. İstədim , az da olsa , mer-meyvə alım. Ancaq meyvələrin qiymətinə baxanda gözlərim hədəqəsindən çıxdı.**

Gördüm ki, bazarda qiymətlər od tutub " yanır" . Gilas 3-4 manat, yaxşısı 8 manat, albalı ( gilənar) 5 manat, ərik, 7-8 manat, göyçə alçası 4-5 manat, çiyələk 3-5 manat, alma 4 manat ( özü də köhnə) , bir sözlə, bütün mer-meyvələrin qiyməti çox baha idi. Hətta bostan- tərəvəz məhsulları və digər məhsulların qiyməti həddindən artıq baha idi! Bu isə bazardakı insanlar arasında böyük narazılıq yaradırdı.

Onlar deyirdilər ki, ötən il indi satılan məhsullar ucuz idi! Bazardakı bahalıqla bağlı satıcılar dedi ki, bazarda ona görə bahalıqdır ki, məmləkətimizdə normadan dəfələrlə artıq yağış yağıb. Təbii ki, bu da bahalaşmaya münbit şərait yaradıb. Və biz də bazardan ancaq gilas ala bildik. O biri meyvələri almağa pulumuz çatmadı. Yəni bu bahalıqda digər meyvələri yeməmək də olar! Təki can sağlığı olsun!!!

## Subsidiyaları əsl kənd adamlarına vermək lazımdır...



**Ölkəmizdə kənd təsərrüfatını inkişaf etdirmək üçün hər fermerlər, kənd adamlarına dövlət subsidiyalar ayrır. Bunlar hamısı çox gözəldir! Amma bu subsidiyalar və kreditlər əsl fermerlərə , sahibkarlara veriləndə daha ədalətli olur. Yəni hər şey obyektiv və şəffaflıq əsasında olanda bundan insanlar da razılıq edirlər.**

Təəssüf ki, bu, bir çox halda ədalətli olmur.Belə ki, böyük məbləğdə subsidiyalar ayrı - ayrı imkanlı adamlar verilir. Çox da sənəd üstündə olur. Yəni dövlətdən küllü miqdarda pul alır, amma ortalıqda bir iş olmur.Dövət kənd təsərrüfatını inkişaf etdirmək üçün yüz milyonlarla vəsait ayırıb. Bəs kənd təsərrüfatı niyə inkişaf etməyib və o vəsaitlər hara xərclənib! Təbii ki. bunu aidiyyəti qurumlar araşdırmalıdır.

Əsas məsələ odur ki, kənd təsərrüfatından xəbəri olmayanlar, bu sahəyə rəhbərlik edir. Ataların belə bir deyimi deyimi var:" Çörəyi ver çörəkçiyə , birini də üstəlik". Amma bizdə bir çox halda bu dəyərlər pozulur. Və işi iş bilənə yox, iş bilməyənə tapşırırlar! Bax onda da həmin adamın ğordüyu iş bərbad gündə olur. Ona görə də işi , iş bilənə tapşımaq lazımdır ki, insanlar bundan əziyyət çəkməsinlər!!!

## Ali məktəbləri bitirib ortada qalmaqdansa...

**Məlum mövzu ilə bağlı dəfələrlə yazılar qələmə almışıq.Və yenə həmin mövzuya qayıtmaq istəyirik! Bu fikri həmişə demişik , yenə də deyirik; universitetləri bitirib , ortada qalmaqdansa , hər hansı sənəti seçib, işləmək , pul qazanmaq daha yaxşıdı. Təəssüf ki, hələ də bizim millət qəflət yuxusundan oyanmayıb! Çünki ali məktəblərə qəbul olmaq bizim əsas "xəstəliyimiz" dur. Bir faktı qeyd edək ki, müxtəlif ali məktəbləri bitirmiş gənclərin 80 faizi işsizdir.**



Amma yaxşı bərbərə, yaxşı dərziyə, yaxşı maşın ustasına, yaxşı idmançıya çox yerdə iş var . Əfsuslar olsun ki, " prestij" xatirinə yenə çoxları ali məktəblərə üz tutur, xüsusilə də hüquq fakültəsinə . Elə ki, həmin universitetləri bitirirlər, iş tapa bilmirlər. Bax onda düşünürlər ki, cavan ömürlərini fəda ediblər. Yəni el dilində demiş olsaq, " papağı günə yandırıblar". Bu yaxınlarda bir ali məktəb müəllimi ilə söhbət elədim. O dedi ki, mənim indiki tələbələrə və valideynlərə yazığım gəlir. Çünki hər il ali məktəbləri on minlərlə gənc bitirir. Heç onların on faizi i? tapmır! Bax , bu, bizim faciəmizdir. Ona görə də bu barədə valideynlər dərindən düşünməlidir . Ki, uşaqlarını oxudanda hər il bir ətək pul xərcləyirlər. O pullara heyfləri gelsin. Əgər bir şeyin bəhrəsini görməyəcəksənsə, o pulu xərcləməyə dəyməz!!!

## Velosiped və skuterler təhlükə mənbəyidir...



**Bu gün ölkəmizdə , o cümlədən Bakıda velosipedlərdən və skuterlerdən istifadə edənlərin sayı çoxalıb. Bunu nəzərə alan aidiyyəti qurumlar Bakıda bu nəqliyyat vasitələri üçün ayrıca yol zolağı təşkil edilib.**

Amma bəzən bir çox halda görürük ki, bu nəqliyyat vasitələrini idarə edənlər təyin olunmuş və onlar üçün ayrılmış yolla deyil avtobusların, avtomobillərinin yolu ilə hərəkət edir. Bu isə birbaşa təhlükə mənbəyi deməkdir. Bir dəfə avtobusdan qabaqda hərəkət edən skuderin sürücü onu aşırdı. Əgər avtobus sürücüsü peşəkar olmasaydı və cəld tərpənməsəydi, sürücü avtobusun altında qalacaqdı. Bax bu gün də həmin mövcud təhlükə durur.

Məsələn, Yeni Günəşli yaşayış sahəsinin " Fatimeyi-zəhra" məscidinin yanındakı parkda volsepedçilərin və skuterlər idarə edənlərin əlindən tərpənmək olmur. Bir neçə gün bundan əvvəl parkda yaşlı bir kişini skuter sürən yeniyetmə vurub. Xoşbəxtlikdən xəsarət yüngül olub.

Amma bu gün də həmin parkda bu nəqliyyat vasitələrindən istifadə edənlər çoxdur! Ona görə də ictimai yerlərdə və parklarda bu işə nəzarət gücləndirilməlidir. Avtomobil yollarında isə hələ də volsepedçilər və skuter idarə edənlər təhlükə yaradır!!!

## Əlli nömrəli avtobusda...




**Yol hərəkəti qaydalarını pozan bir çox sürücülər var. Və onların məsuliyyətsizliyi üzündən teztez qəzalar baş verir. Nəticədə ya kimsə ölür, ya xəsarət alır, ya da avtomobilə ziyan dəyir. Burdan belə bir məntiqi nəticə çıxarmaq olur ki, hansısa, sürücü yerində deyil və səhlənkarlığa yol verib!**

Bu mənada 50 nömrəli marşrutda sükan arxasında əyləşən bəzi sürücüləri öz üzərinə düşən məsuliyyətə səhlənkar yanaşırlar. Bir neçə gün əvvəl həmin marşrutda hərəkət edən avtobusun sürücüsü sükan arxasında ölarkən körpünün altından Babək prospektinə çıxarkən nəqliyyat vasitəsini saxlamadan və sağa baxmadan yüksək sürətlə həmin yola çıxdı. Az qala sağ tərəfdən gələn maşınla toqquşmuşdu və xoşbəxtlikdən heç bir hadisə baş vermədi . Sürücü körpünün altından yola çıxan kimi yenidən avtobusu yüksək sürətlə idarə etməyə başladı. Avtobusdakı sərnişinlər bir ağızdan onun bu hərəkətinə etiraz edib dedilər ki, aşağıda qəza vəziyyəti yaratdın , indi də maşını sürətlə sürürsən. Nədir, bizi öldürmək istəyirsən, sən sərnişin aparırsan ey, tikinti materialları daşımırsan? Sərnişinlərin bu sözlərindən sonra sürücü avtobusu normal sürətlə və təhükəsiz idarə etdi! Əgər sərnişinlər vaxtında etiraz etməsəydi, bəlkə də o, qəza törətmişdi! Ona görə də 50 nömrəli marşrutun sahibə sürücülərin nizam- intizamına nəzarət etməli, onları maariflendirməli və yol hərəkəti qaydalarını pozanlar növbə buraxılmamalı, inzibati məsuliyyətə cəlb edilməlidir. Belə olmasa , bəzi intizamsız sürücüləri islah etmək mümkün deyil!!!

**Emil FAİQOĞLU**



# DAXİLİMİZDƏKİ HAKİM



Fikrət Əkbərli,
Türkiyə üzrə
araşdırmaçı-yazar

**1957-ci ildə ekranlaşdırılmış "12 Angry Men" filmini izləyənlər bunu yaxşı bilirlər: bir insanı günahlandırmaq çox asandır. Halbuki hər kəs günahı sübuta yetirilənədək təqsirsiz sayılır. Günahı sübut etmək səy və zəhmət tələb edir. Səy tələb edən işlər isə çox vaxt diqqətdən kənarda qalır, tez unudulur. Halbuki əsaslı bir şübhə belə ilk hökmü dəyişməyə kifayət edə bilər. Hər birimizin daxilində hər gün, hər saat görünməz məhkəmələr qurulur. Çox zaman heç bir araşdırma aparılmadan hökm verilir. Daxilimizdəki səslər xorunda ən gur eşidilən səslərdən biri ittihamçının səsdir. Təqsirləndirilən tərəfin vəkili isə öz vəzifəsini layiqincə yerinə yetirmədikdə, daxilimizdəki hakim ən qısa zamanda onu günahkar elan edir.**

Özünütənqidçi səs kimi də tanıdığımız bu daxili səslər psixoloji sağlamlığımız üçün son dərəcə dağıdıcı və sarsıdıcı nəticələrə səbəb ola bilər. Gün yeni başlayarkən daxilimizdəki qəzəbli insan söz almağa başlayır. Aynaya hər baxışımızda əslində yalnız simamızı görmürük; bir qədər diqqətlə nəzər salsaq, illərdir daxili dünyamızda hökmranlıq edən o görünməz fiqurun izlərini də seçə bilərik. Ancaq necə ki, göz özünü görə bilmir, eləcə də çox vaxt bu səsləri həqiqi səsimiz hesab edirik. Onların bizdən ayrı bir varlıq kimi fəaliyyət göstərdiyini fərq etmək isə heç də asan olmur.

Məhz buna görə də, üzərimizə yağdırılan ittihamların və amansız hökmlərin ağırlığını daşıyarkən həmin səsi sorğulamaq getdikcə çətinləşir. Zehnimizin dumanlı vadilərində gizlənən bu daxili səs nə kifayət qədər yaxşı insan olduğumuzu qəbul etməyə imkan verir, nə də çatışmazlıqlarımıza anlayışla yanaşmağı.

Psixologiyada bu daxili səslərin xarici səslərdən necə formalaşaraq daxililəşdirildiyini izah edən çoxsaylı nəzəriyyələr mövcuddur. Söhbət uşaqlıq illərində valideynlərimizin, müəllimlərimizin və cəmiyyətin bizə təlqin etdiyi, zaman keçdikcə isə öz səsimiz kimi qəbul etdiyimiz düşüncə və mesajlardan gedir. Bir vaxtlar kənardan eşitdiyimiz bu səslər sonradan daxili dünyamızın ayrılmaz hissəsinə çevrilir və çox vaxt fərqinə varmadan həyatımıza istiqamət verməyə başlayır. Bəzən kifayət qədər çalışmadığımız üçün tənbeh edilirik, bəzən hisslərimiz çox emosional adlandırılır, bəzən isə başqaları ilə müqayisə olunaraq yetərsiz və ya natamam elan edilirik.

Nə qəribədir ki, bu daxili səslər başqalarına göstərdiyi mərhəməti çox zaman özünə göstərməmiş olur. Öz kədərimizə səbir və anlayışla yanaşmağımıza imkan vermir. Halbuki başqasının dərdi qarşısında yumşalan qəlbimiz, özümüzə gəldikdə asanlıqla daşa dönür.Niyə? Çünki içimizdəki bu qəzəbli səslər bizim üçün tamam başqa meyarlar müəyyən edib:

"Yalnız uğur qazandıqda dəyərlisən." "Yalnız güclü olduqda sevilə bilərsən." "Zəiflik xarakter çatışmazlığıdır." Bu sərt qaydalar zamanla həyatımızı idarə edən görünməz bir cəza sisteminə çevrilir; sanki daxilimizdə durmadan çalışan, hökm verən və bizi ölçən səssiz bir məhkəmə kimi. Bəzən bu səslər sanki bir avtoritet kimi danışır: "Belə olmamalı idi." "Bu çoxdur, bu azdır." "Bunu necə edə bildin?" Hər dəfə bir səhv etdiyimizdə, dərhal zehnimizin ortasında məhkəmə salonu qurulur. Təqsirləndirilən də, ittihamçı da, hakim də özümüz oluruq. Və ən acısı odur ki, müdafiə hüququmuz belə yoxdur. Çünki bu məhkəmədə hökm əvvəldən verilib: günahkarsan!

Təhsil psixoloqu Kristin Neffin şəfqətli olmaq üzərinə apardığı araşdırmalar göstərir ki, özünü mühakimə etmədən müşahidə edə bilən fərdlər həm psixoloji dayanıqlıq baxımından daha güclü olur, həm də sosial münasibətlərində daha doyumlu və sağlam bağlar qururlar.

Neffin yanaşmasına görə özünə şəfqət üç əsas ünsürdən ibarətdir: özünüdərk, ümumi insanlıq duyğusu və nəzakət. Bu çərçivədə daxilimizdəki qəzəbli səsləri tamamilə susdurmaq deyil, onlarla yeni bir münasibət forması qurmaq mümkündür. Bu münasibət bir növ daxili yetkinlik yaradır. Sanki bir uşağın qəzəbini anlamağa çalışırmış kimi, içimizdəki hökm verən səsin də köklərini idrak edə bilərik. Bəlkə də bu səs, illər əvvəl bizi qorumağa çalışan, lakin zamanla həddindən artıq sərtləşmiş daxili bir keşikçidən başqa bir şey deyildir.

Daxilimizdəki hakimi sorğulamaq, onun dediyi hər şeyə kor-koranə inanmaqdan imtina etmək deməkdir. Bir çox insan başqalarına qarşı anlayışlı olmağı bacarır. Hətta həmin insanlar çox sevdiyimiz, dəyər verdiyimiz, hörmət etdiyimiz şəxslərdirsə, anlayışdan da artığını göstərmək istəyirik.

Onların dərdinə şərik olar, köməyə tələsərik. Bir dostumuza bu da keçər deyə bilər, ağlayan bir uşağı qucaqlayıb sakitləşdirməyə çalışa bilərik.

Amma məsələ özümüzə gəldikdə, mənzərə dəyişir: özümüz ağladığımızda "özü düşən ağlamaz" kimi sərt daxili səslər bizim üçün tanış ola bilər. Niyə? Çünki içimizdəki bu səslər "biz" və "başqaları" arasında görünməz bir iyerarxiya qurur. Ən sərt ikili standartı isə çox vaxt özümüzə tətbiq edirik: "Başqaları ağlaya bilər, bu insandır. Amma mən güclü olmalıyam." Beləliklə, özümüzü insan olmağımızın təbii tərəflərindən məhrum edirik. Bu isə əslində daxili resurslarımızı tükətmək, öz iç enerjimizi qurutmaq deməkdir.

**Halbuki mərhəmət və şəfqət bir zəiflik deyil, əksinə, daxildən qidalanan, bərəkətli bir qaynaq kimidir. O, ağrını görən, yaraları sağaldan, qaranlıq anlarda insana nəfəs olan bir dostdur. "Qüsursuz dost axtaran dostsuz qalar." Bu fikir təkcə başqalarına deyil, özümüzə münasibətdə də keçərlidir. Özümüzə dost olmağımızın qarşısındakı əsas manеə isə mükəmməl olma xülyamızdır. Mükəmməllik gözləntisi özümüzə yönəldikdə, o zaman tənhalıq və utanma duyğusuyla qarşı qarşıya qalmış oluruq.**

# «Pezeşkianın bu yöndəki çağırışları tamamilə ağıla, təcrübəyə, reallığa əsaslanır»

**"İran prezidenti Məsud Pezeşkiyan praqmatik, səmimi etiraflarla müşaiyət olunan açıqlama verib. O, dialoq və həmrəylik çağırışı edərək bəyan edib ki, bu gün İran cəmiyyətinin "hər zamankından daha çox" tolerantlığa, dialoqa və həmrəyliyə ehtiyacı var. Bəyanatdan görünür ki, sərt sirkənin yalnız öz qabını çatlatmasını dərk edən Məsud bəy ölkəsində tolerantlığın ağır dərəcədə pozulmasını etiraf edib, hətta tolerantlığa həmişəkindən daha çox ehtiyacın olduğunu bildirib".**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Tural İrfan deyib.

Onun sözlərinə görə, demək tolerantlığa İranda həmişə ehtiyac olduğunu danmayıb:

"Pezeşkian İmam Musa əl Kazımın kəlamlarına istinad edərək qeyd edib ki, cəmiyyət "qəzəb, aqressiya və qütbləşmə vasitəsilə" inkişaf edə bilməz. O əlavə edib: "Bu gün hər zamankından daha çox qarşılıqlı anlaşmaya, fərqliliklərə qarşı tolerantlığa, həmrəyliyə və əməkdaşlığa ehtiyacımız var". Həqiqətən də İran rejimi fərqli yanaşmaya, fərqli fikrə, fərqli dinə, fərqli mədəniyyətə, fərqli məzhəbə, fərqli dilə həmişə aqressiya, düşmənçiliklə yanaşıb. Hətta bu ideologiyanı qonşu və digər müsəlman ölkələrinə də ixrac etməyə çalışıb, müəyyən qədər buna nail də ola bilib. Prezidentin bu çağırışı əsl İslam dəyərlərinə və prinsiplərinə tam uyğundur. Burada nifrət, küdurət və yezidçilik elementləri yoxdur. Bu çağırışda qeyd olunur ki, "həmişəkindən daha çox əməkdaşlığa ehtiyac var, cəmiyyət qəzəb, aqressiya və qütbləşmə ilə inkişaf edə bilməz."Bəli, doğrudur ki, hakimiyyət Əhli Beyt həlimliyi, Peyğəmbər humanizmi və İmam mərhəmətinin əvəzinə Əməvi qəddarlığı, Yezid sərtliyi nümayiş etdirir. Özü də xalqına, digər müsəlmanlara qarşı. Asmaq, doğramaq, hədələmək, terror etməklə cəmiyyət qurmaq, inkişaf etmək olmaz".



T.İrfan deyib ki, Məsud Pezeşkianın bu yöndəki çağırışları tamamilə ağıla, təcrübəyə, reallığa və praqmatizmə əsaslanır:

"Düşmənçilik edən iki tərəf zaman keçdikcə bir-birinə bənzəməyə başlayır. Biri-digərinin metodlarını mənimsəyir. İran da həmçinin aqressiya, qəddarlıq, qeyri-tolerantlıq, özündən başqasını rədd etmək, yalnız güc və qanı əsas istiqamət seçməklə İsraili təkrar edir.

Yaxud dini - ideoloji düşmən hesab etdikləri Əməvilərin, Müaviyə və Yezidin metodlarını mənimsəyiblər. Əməvi tarixini öyrənmək üçün artıq kitabları oxumağa ehtiyac yoxdur. Sadəcə İranın seçdiyi anti-İslam, qeyri-tolerant, aqressiv yola, din pərdəsi altında yürüdülən siyasətə baxmaq kifayətdir. Eynilə Əməvilərin təkrarıdır. Hətta başqa müsəlmanları hədəf seçmələri, trol dəstələri ilə söydürmələri kimi detallar belə Müaviyyənin Əhli Beyt yolçularını söydürmələrinin ənənəvi davamıdır...Bu mənada Məsud bəyin bu kimi çağırışları əslində İran hökumətinin islahı, dünya ilə ayaqlaşması, mədəniləşməsi, müasirləşməsi, İslam dəyərlərinə qayıtması üçün önəmli çıxışlardır. İran xalqı bəlkə də bu gün dünyanın ən məzlum, öz ixtiyarı, seçimi əlindən alınmış məhrum xalqıdır. Çünki ABŞ və İsrail bir tərəfdən hücum edir, rejim də digər tərəfdən zülm edir.

Nəticədə Məsud Pezeşkiyanın ifadə etdiyi zülm mənzərəsi yaranır. Göstərilən çıxış yollarına əməl ediləcəyinə, Məsud bəyin çağırışlarına məhəl qoyulacağına isə təəssüf ki, ümid çox azdır".

**Vasif**

## Günay Əfəndiyeva: "Biz birlikdə güclüyük!"



**Türk dünyası bizim ailəmizdir. Bu gün burada - bu məktəbdə keçirilən tədbir də həmin ailənin birliyini və həmrəyliyini nümayiş etdirir. Şagirdlər türk dövlətlərini təmsil edən guşələr hazırlayıb, həmin ölkələrin adət-ənənələrini, milli mətbəxini, geyimlərini və mədəniyyətini təqdim ediblər. Milli rəqslərin nümayişi tədbirə xüsusi rəng qatıb.**

Bunu Bakının Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən 156 nömrəli tam orta məktəbdə keçirilən "Türk dünyasına səyahət" adlı tədbirdə Milli Məclisin deputatı, Mədəniyyət komitəsi sədrinin müavini Günay Əfəndiyeva bildirib.

"Bu cür tədbirlər çox vacibdir. Çünki biz birlikdə güclüyük. Birliyimiz nə qədər möhkəm olsa, qarşılaşdığımız çətinlikləri də bir o qədər asanlıqla dəf edərik, qarşımıza çıxan maneələri birlikdə aşarıq. Bu cür tədbirlər şagirdlərdə Türk dünyasına mənsubluq hissini gücləndirir, ortaq tariximizin, mədəniyyətimizin və dəyərlərimizin gələcək nəsillərə aşılanmasına mühüm töhfə verir. İnanıram ki, bu kimi təşəbbüslər Türk dünyası arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcək", - deyə deputat vurğulayıb.

**AZƏRTAC**

## "Bu qərar həmin sahibkarlarının daxili bazara inteqrasiyasını daha da gücləndirə bilər"

**"Azərbaycanın qeyri-neft ixracının genişləndirilməsi və yerli sahibkarın beynlxalq bazarlara çıxış imkanlarının artırılması baxımından mühüm addımlardan biri atılıb. Prezident İlham Əliyevin imzaladığı yeni Fərmana əsasən Azərbaycan mənşəli qeyri-neft-qaz məhsullarının ixracı zamanı yaranan nəqliyyat xərclərinin əhəmiyyətli hissəsi dövlət tərəfindən dəstəklənəcək. Belə ki, dəmir yolu, hava və dəniz nəqliyyatı, eləcə də Azərbaycanda qeydiyyatda olan avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilən daşımalar üzrə nəqliyyat xərclərinin 70 %-ə qədəri, xarici qeydiyyatlı avtomobil nəqliyyatı ilə daşınmalarda isə 50 %-ə qədəri dövlət tərəfindən kompensasiya ediləcək".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, bununla yanaşı, dəstəyin yekun məbləği məhsulun gömrük dəyərinə uyğun limitlərlə də tənzimlənəcək:

"Belə ki, avtomobil, dəmir yolu və hava daşımalarında dəstək məhsulun gömrük dəyərinin 15 %-ni, dəniz daşımalarında isə 5 %-ni keçə bilməyəcək. Yeni mexanizm həm sahibkarın real logistika xərclərini nəzərə alır, həm də dövlət dəstəyinin daha balanslı və səmərəli tətbiqinə imkan yaradır.

Bu qərarın ən mühüm tərəflərindən biri odur ki, ixrac zamanı sahibkarın üzərində olan əsas maliyyə yüklərindən biri hesab edilən logistika xərcləri azalır. Bir çox hallarda məhsul istehsal etməkdən daha çətin və bahalı proses onun xarici bazara çatdırılması olurdu.

Yeni mexanizm xüsusilə kiçik və orta sahibkarların ixrac imkanlarını genişləndirə, onların yeni bazarlara çıxışını sürətləndirə və Azərbaycan məhsullarının rəqabət qabiliyyətini artıra bilər".

İqtisadçının sözlərinə görə, Fərmanda Naxçıvan Muxtar Respublikası ilə bağlı ayrıca dəstək mexanizminin nəzərdə tutulması da xüsusi diqqət çəkir:

"Naxçıvanda istehsal olunan qeyri-neft məhsullarının Azərbaycanın digər ərazilərinə quru yolu ilə daşınması üçün çəkilən nəqliyyat xərclərinin 70 %-nin dövlət tərəfindən qarşılanması regionun istehsal və satış imkanlarının genişlənməsi baxımından mühüm addımdır. Bu qərar Naxçıvan sahibkarlarının daxili bazara inteqrasiyasını daha da gücləndirə bilər.

Həm də bu fərmanla Naxçıvandan olmayan digər azərbaycanlı sahibkarlar üçün də Naxçıvanda istehsal müəssisələri yaratmaq və bu dəstək mexanizmindən faydalanmaq baxımından yeni maraq yarana bilər.Digər vacib məqamlardan biri də odur ki, mexanizm qısamüddətli deyil. Fərmanın tətbiqi 2026-cı ilin sentyabrından başlayaraq 2036-cı ilin sonunadək nəzərdə tutulur. Bu isə sahibkarlar üçün uzunmüddətli planlaşdırma, ixrac strategiyası qurmaq və yeni bazarlara investisiya etmək baxımından mühüm etimad mühiti formalaşdırır.

Əlqərəz, bu qərar qeyri-neft ixracının artırılması, regional istehsalın təşviqi, logistika xərclərinin optimallaşdırılması və "Made in Azerbaijan" məhsullarının xarici bazarlarda mövqeyinin gücləndirilməsi istiqamətində strateji iqtisadi addımdır".

**Sübhan**



Züleyxa Allahverdiyeva

# Nağd pul tarixə çevrilirmi?

**Müasir dövrdə texnologiyanın sürətli inkişafı insanların həyat tərzində və gündəlik vərdişlərində ciddi dəyişikliklərə səbəb olub. Bu dəyişikliklərdən biri də ödəniş üsulları ilə bağlıdır. Əgər bir neçə il əvvəl alış-veriş zamanı insanların əksəriyyəti nağd pula üstünlük verirdisə, bu gün bank kartları, mobil tətbiqlər və digər rəqəmsal ödəniş vasitələri geniş yayılıb. Artıq bir çox insan gündəlik maliyyə əməliyyatlarını telefon vasitəsilə həyata keçirir və nağd puldan daha az istifadə edir.**

**Rəqəmsal ödəniş sistemlərinin populyarlaşmasının əsas səbəblərindən biri onların yaratdığı rahatlıqdır. İnsanlar istənilən vaxt və istənilən məkanda ödəniş edə, pul köçürə və müxtəlif xidmətlərdən yararlana bilirlər. Xüsusilə kommunal ödənişlərin, internet və mobil rabitə haqlarının elektron qaydada həyata keçirilməsi vətəndaşların vaxtına qənaət etməyə imkan verir. Bundan əlavə, onlayn alış-verişin geniş yayılması da rəqəmsal ödənişlərə olan tələbatı artıran əsas amillərdən biri hesab olunur.**



**Azərbaycanda da son illərdə bu sahədə əhəmiyyətli inkişaf müşahidə edilir. Bank sektorunda aparılan yeniliklər, təmassız ödəniş imkanlarının genişlənməsi və mobil bankçılıq xidmətlərinin inkişafı rəqəmsal maliyyə sisteminə marağı artırıb. Bu gün iri ticarət mərkəzlərindən tutmuş kiçik mağazalara qədər əksər obyektlərdə kartla və ya telefon vasitəsilə ödəniş etmək mümkündür.**

**İctimai nəqliyyatda tətbiq olunan elektron ödəniş sistemləri də vətəndaşların gündəlik həyatını daha rahat edir.**

**Rəqəmsal ödənişlərin iqtisadi baxımdan da mühüm üstünlükləri var. Elektron əməliyyatların artması maliyyə dövriyyəsinin daha şəffaf şəkildə izlənilməsinə şərait yaradır. Bu isə həm biznes subyektləri, həm də dövlət qurumları üçün daha effektiv nəzarət imkanları formalaşdırır. Eyni zamanda, rəqəmsal iqtisadiyyatın inkişafı innovativ texnologiyaların tətbiqini sürətləndirir və yeni biznes imkanlarının yaranmasına şərait yaradır.**

**Bununla yanaşı, mütəxəssislər kibertəhlükəsizlik məsələlərinin də diqqətdə saxlanılmasının vacibliyini vurğulayırlar. İnternet üzərindən həyata keçirilən maliyyə əməliyyatlarının təhlükəsizliyi istifadəçilərin məlumatlılığından da asılıdır. Şəxsi məlumatların qorunması, güclü şifrələrdən istifadə və şübhəli keçidlərdən uzaq durmaq kimi sadə qaydalar vətəndaşları mümkün risklərdən qoruya bilər.**

**Müşahidələr göstərir ki, xüsusilə gənc nəsil rəqəmsal ödənişlərə daha sürətlə uyğunlaşır. Yeni texnologiyalara maraq göstərən gənclər mobil tətbiqlərdən aktiv istifadə edir, alış-verişlərini onlayn həyata keçirir və maliyyə əməliyyatlarını rəqəmsal platformalar üzərindən idarə edirlər. Bu tendensiya gələcəkdə rəqəmsal maliyyə xidmətlərinin daha da genişlənəcəyindən xəbər verir.**

**Nəticə etibarilə, rəqəmsal ödəniş sistemləri artıq müasir həyatın ayrılmaz hissəsinə çevrilib. Onların yaratdığı rahatlıq, sürət və əlçatanlıq insanların gündəlik fəaliyyətinə müsbət təsir göstərir. Texnologiyanın inkişafı ilə birlikdə bu sahədə yeniliklərin davam edəcəyi gözlənilir. Görünən odur ki, gələcəyin maliyyə sistemi daha rəqəmsal olacaq və nağd pulun istifadə dairəsi tədricən azalacaq.**

# Son nəsil

**Ötən nəsillərə nisbətdə Z generasiyası obsessiyadan daha çox əziyyət çəkir. Latın mənşəyli bu söz "mühasirəyə almaq" kimi tərcümə edilsə də onu fiziki deyil, psixoloji mahiyyətdə başa düşməliyik. Bu mənada, "mühasirəyə almaq" hər hansı bir fikrin insanı dövrələməsidir. Əlbəttə, blokada qurulubsa, deməli bu düşüncələr heç də arzulanmır, əksinə, narahatedici sayılır. Bunu da əlavə etdikdə ən yalın ifadə ilə "obsessiya" istənməyən fikirlərdir və fərqli motivlərdə ortaya çıxa bilər. Məsələn, Z.Freyd yazdığı "Qurd adam" keysində pasiyentin indiki psixopatoloji durumunu onun uşaqlığı ilə əlaqələndirir. Məlum olub ki, xəstə altı-yeddi yaşlarında olarkən dini motivli vəsvəsələrdən əziyyət çəkib. Tanrı haqda "günahkar" fikirləri yaxasını buraxmayıb və buna görə də hər dəfə ilahidən bağışlanma diləyib. Zamanla şüurun örtbasdır etdiyi bu problem gənclik illərində artıq nevroz şəklində yenidən üzə çıxaraq ruhi vəziyyətinə mənfi təsir göstərib. Hadisələrin necə və niyə baş verdiyi özgə yazının mövzusudur. Amma bu qədərini bilməklə, vəziyyət başqa bir məsələdə katalizator rolunu oynayır.**

### *Naməlumun toxunuşu və ya obsessiyanın astanasında*

Bugünlərdə Z nəslinin bir çox xüsusiyyəti ötən generasiyaların qınaq obyektidir. Çox vaxt isə onların dinə və Tanrıya olan bağlılıqlarının azalması müzakirə olunur. Lakin bu iki anlayışın kor-koranə öyrədilməsi diqqətdən kənarda qalır.

Uşaq vaxtı Z nəsli valideynlərinə Tanrı ilə bağlı sual verəndə "Bunu demə, şeytanın vəsvəsəsidir!" cümləsindən başqa cavab eşitmirdi. Bu cür məhdudiyyətlər isə təsirsiz ötüşmür; nəticədə, gənclər özləri sorğulamağa başlayırlar.

Bəs bu araşdırmaların kökündə dayanan səbəb qorxu ola bilər? Belə ki, E.Kanettiyə görə, "insanı ən çox qorxudan şey naməlumun ona təmas etməsidir".



Ətraf mühit tərəfindən uşağa aşılanan hər bir fenomen ona məchul olduğu üçün, o, daxilindəki qorxunu aşmaq məqsədilə sorğu-sual yolunu seçir. Lakin elm baxımından mütləq varlığın mövcudluğu barədə dəqiq cavab tapılmadıqda, həmin qorxu xroniki hal alır. Şüur bu qorxunu dəf etmək üçün əksmüqavimət formalaşdırır və nəticədə vəsvəsələr baş qaldırır. Bu vəsvəsələr əslində Tanrının ona zərər verə bilməyəcəyinə dair müdafiə ssenariləridir. Axı dediyimiz kimi, insan bilinməyənin toxunuşundan qorxur və instinktiv olaraq onun şəxsinə zərər verə biləcəyini düşünür.

Beləliklə, Tanrı və ya dinlə bağlı obsessiyalar bəlkə də bu cür yaranır, lakin istənməyən fikirlər narahatedici ünsür olduğuna görə şüur onları dəf etmək üçün bu dəfə başqa müdafiə üsulu tapmağa məcbur olur.

### *İnancın azalması, yoxsa müdafiə mexanizmi?*

Məlumdur ki, şüurun müdafiə mexanizmi var. Necə ki, yuxarıda danışılan keysdə uşaq dini obsessiyalardan şüurun örtbasdır sistemi ilə müvəqqəti qurtulmuşdu. Bəlkə Z nəslinin Tanrıya inamının azalması da şüurun müdafiə mexanizmidir? Mümkündür ki, dini motivli obsessiyalardan qurtulmaq üçün şüur bu yolu seçib? Axı onlar dinə və tanrıya "vəsvəsə" ilə yanaşmağı arzulamırlar. Elə olsa idi, o qədər araşdırmanın heç bir rasional tərəfi olmazdı. Beləliklə, bu fikirlərdən artıq əzab çəkməmək üçün inamın azalması şüurun obsessiyalardan müdafiə sistemi ola bilər. Amma unutmamaq lazımdır ki, şüur problemi bu cür pərdələməklə gələcəkdə onu başqa formada müxtəlif fəsadlarla üzə çıxarır. Bunu Freydin bəhs edilən keysində obsessiyanın uşağın gənclik illərində ağır bir nevroz kimi baş qaldırması da sübut edir. Əslində bu müdafiə üsulu da (inancın azalması) ağrıkəsici rolunu oynayır, təsiri bitəndən sonra bəlkə ağrı yeni dalğası ilə gələcək. Necə ki, naməlumluq qorxusunu uzaqlaşdırmaq üçün şüur obsessiyalar yaratdı, daha sonra bu istənməyən fikirlərin təsirini azaltmaq üçün inancı pərdələdi, eynilə bu da fəsad verdikdə növbəti ağrıkəsici rolunu oynayan müdafiə sisteminə keçid edəcək. Nəticədə mənzərəyə uzaqdan baxdıqda qarışıq və sonsuz çevrə görünür. Bütün bunlar Z nəslindən asılı olmayan qeyri-şüuri proseseslərdir.

**Ağa Rza**

# Varlı olmaq üçün ağıllı olmaq kifayət etmir



**Ağıllı olmaq insanın daha çox pul qazanmasına kömək etsə də, varlı olmaq üçün təkcə yüksək zəka kifayət etmir.**

Bu barədə "Intelligence" jurnalında dərc olunan araşdırmada qeyd olunub.

Tədqiqatda 40 yaşlarının ortalarında olan 7403 amerikalı iştirak edib. İştirakçılar uzun illər ərzində bir neçə dəfə sorğuya cəlb olunub və alimlər onların zəka səviyyəsini xüsusi qabiliyyət testi vasitəsilə qiymətləndiriblər. Eyni zamanda, onların gəlirləri, topladıqları sərvət, kredit kartı borcları, ödənişləri gecikdirib-gecikdirmədikləri və müflis olub-olmadıqları da araşdırılıb.

Nəticələr göstərib ki, yüksək IQ-ya malik şəxslər orta hesabla daha çox maaş alsalar da, bu, onların daha çox sərvət toplaması anlamına gəlmir. Məsələn, yüksək IQ göstəricisinə sahib bəzi insanlarda kredit kartı borcları, gecikmiş ödənişlər və digər maliyyə problemləri müşahidə olunub.

Araşdırmada diqqət çəkən məqamlardan biri də orta səviyyədə zəka göstəricisinə malik şəxslərin bəzi hallarda maliyyələrini daha düzgün idarə etmələri olub.

**Tədqiqatın müəllifi Cey Zaqorski bildirib ki, yüksək gəlir əldə etmək və sərvət toplamaq eyni şey deyil. Onun sözlərinə görə, bəzi ağıllı insanlar daha çox qazansalar da, qazandıqları pulu yığa bilmirlər.**

**Fəridə Əsədzadə**
**BDU, Jurnalistika fakültəsinin**
**IV kurs tələbəsi**

# Məktəblərdəki zorakılığın arxasında bu səbəb dayanır

**Araşdırmalara görə, məktəblərdə zorakılıq halları daha çox sosial status qazanmaq istəyən yeniyetmələr tərəfindən öz dostlarına və yaxın həmyaşıdlarına qarşı törədilir.**

Bu barədə "American Journal of Sociology" jurnalında dərc olunan araşdırmada qeyd edilib.

Tədqiqat göstərir ki, bəzi yeniyetmələr zorakılığı psixoloji problemlərə görə deyil, məktəbdə daha populyar olmaq məqsədilə istifadə edirlər.

3000-dən çox şagird üzərində aparılan araşdırma nəticəsində məlum olub ki, dost olan yeniyetmələrin bir-birinə zorakılıq etmə ehtimalı üç dəfədən çoxdur. Dostluq davam etdikdə bu risk daha da artır. Hətta eyni sosial dairəni paylaşan, lakin birbaşa dost olmayan şagirdlər arasında da zorakılıq riski yüksəkdir. Tədqiqatçılar qeyd edirlər ki, zorakılıq çox vaxt rəqib dostlar arasında baş verir. Eyni sinifdə, klubda və ya sosial qrupda yer alan yeniyetmələr arasında rəqabət artdıqca aqressiya da yüksəlir. Bu da göstərir ki, zorakılıq yalnız zəiflikdən deyil, sosial üstünlük qazanmaq istəyindən də qaynaqlana bilər.

Tədqiqat həmçinin qeyd edir ki, dostlar tərəfindən zorakılığa məruz qalmaq xüsusilə ağır psixoloji nəticələrə səbəb olur və depressiya, narahatlıq, həmçinin məktəbə bağlılığın azalması ilə əlaqələndirilir.

Alimlər hesab edirlər ki, məktəblərdə yeniyetmələr arasında sağlam dostluqların və sosial mühitin gücləndirilməsi zorakılığın azalmasına kömək edə bilər.

**Fəridə Əsədzadə**

# Qəlbimizin sönməyən qürur məşəli

**Beş il öncə, sentyabr... Bir xəbər eşitdik: bəzi kəndlərimiz işğaldan azad edilib! Bəli, Vətən Müharibəsi başlamışdı... Azadlığın ilk qədəmləri idi... Amma içimizdə tək qorxu əsgərlərimiz idi... Hər kəsin dilində eyni dua səslənir, göylərə qalxırdı duaların sədası... Naxçıvanda nə zaman təyyarə səsi gəlsə, hər kəsin üzündə eyni ifadə olurdu: kədər və qürurun vəhdəti... Çünki o təyyarə, ana vətənə, bayrağa canını fəda edən igidləri, elə canını uğrunda fəda etdiyi bayrağa sarılı gətirirdi, anasının qucağından düşərək ilk addımı atdığı vətən torpağına...**

Xatırlayıram, nə zaman şəhid gəlsə, hava buludlu, qaranlıq olar və yağış yağardı... Az deyil, çox yağardı... Örtə bilməsə də göz yaşlarını, sanki, göy də xalqla bərabər ağlayardı... Amma hər kəs qürurlu dayanar, fəxrlə "Şəhidlər ölməz, Vətən bölünməz!", "Qarabağ bizimdir, bizim olacaq!" şüarını səsləndirərdi..! Beş il keçməsinə baxmayaraq, necə ki 33 il öncə qəhrəman olan bacı və qardaşlarımız hələ də qəlbimizdə və dualarımızdadırsa, onlar da bizim hər zaman qəlbimizdədir, əsrlər də keçsə, bu belə də qalacaqdır...

Bəzən gecə başımı qaldırıb göyə baxanda... İçimdən deyirəm: nə qədər çox və gözəl ulduzlar var göydə... Və bir gün belə bir cümlə ilə rastlaşdım ki: "Hər bir şəhid, Vətənin göy üzündə yanan ulduzudur." Elə həmin andan, haçan göydə bir ulduz görsəm, bu cümləni xatırlayıram: həqiqətən bu Vətənin nə qədər yanan ulduzu varıymış... Parlayan hər bir ulduz, hərəsi bir şəhiddir...

***Ayağın yerdədir, yolun göylədi,***
***Göydən ulduz uçdu, yaram göynədi...***

Oğulların məzarına gül ləçəyi səpən analar... Baş daşına göz yaşıyla sarılan, balasının soyuq şəklini bağrına basan analar... Baxışlar da daşa dönüb... Şahidi olmuşam: "Kaş dil açа bir, ana! deyə" deyilən cümlələrin...

***Analar şəhid olur oğul şəhid olanda,***
***Büküldüyü bayrağın adı qaldırır səni...***



"Ağaran saçlarında gizlətdilər səni, şəhidim..." Anaların, ataların saçları bir gecədə ağardı... Ağaran hər bir telində, balasının bir xatirəsi gizləndi... Tökülən hər bir damla göz yaşında, balasına qurduğu bir arzusu gizləndi...

Mən qürurla baxıram ağ saça, qırış üzə,
Gözünlə "Mənim oğlum dünyaya tən" deyirsən. Nə üçün yaşarsan, onu örtərlər üzərinə... Elədir, neçə-neçə qəhrəman oğlumuz bayrağı, Vətəni üçün canından keçdi, uğruna can fəda etdiyi bayrağına sarıldı tabutu, uğruna qan tökdüyü Vətən torpağı "örtüldü" üzərinə...

***Can fəda etdin ki, Vətən yaşasın,***
***Bayrağa bürünüb ötən şəhidim...***

"Gəl, elə bir torpağa girək ki, əbədi yata biləк!" Vətən torpağını özlərinə ana qucağı tək isti, doğma bildi onlar. Balanın anaya olan sevgisini Vətənə bəslədilər... Axı Vətən ANAdır... Əbədi sevginin, əbədiyyətinə qovuşdu onlar...

Bir gün Naxçıvanda, şəhidimizin evində çəkilişdə oldum. Qapıdan girdiyim andan o qapıdan çıxan ana qədər, sanki yenidən illər əvvəli yaşadım... Ana şəhidimizin dolabını açdı, geyimlərindən o qədər gözəl qoxu gəlirdi ki, izahı mümkün deyil... Aşağı baxanda qara üzəri palçıqla örtülü bir cüt ayaqqabıya gözüm sataşdı... Ana dedi ki, bu ayaqqabı oğlunun şəhid olan an ayağında olub, üstündəki palçıq isə şəhid olduğu yerdən qalıb... Əlimlə o ayaqqabını ehtiyatla əlimə aldım... Bu ayaqqabı şəhidin son addımlarına şahid olmuşdu, qəhrəmancasına atılan addımlara, bəlkə də son sözlərə, son hisslərə...

***Yoluna su səpim, göz yaşı sıxım?***
***Çəkməndə torpaq var, torpaq, bir sıxım...***

***Ver, əsgər çəkməni köksümə sıxım,***
***Çəkməsində çiçək bitən şəhidim...***

İşğaldan azad olan torpaqlarımızın birindən bir video çəkilib paylaşılmışdı... Minlərlə lalə bitmişdi, al qırmızı, gözəl lalələr... Məhz o yerdə, oğullarımızın qanı ilə yuyulmuşdu Vətən torpağı... Deyirlər, şəhid qanı düşən yerdə lalə bitərmiş...

Sonradan işğaldan azad olunan torpaqlara mən də getdim... Atdığım hər addımda bəlkə də bir oğlumuzun addımının izi varıydı. Basdığım Vətən torpağının azadlığını, yaşadığım qüruru, fəxri mən onlara borcluyam, biz onlara borcluyuq... Beş ildir ki, övladını illərdir səsləyən Vətən övladlarına qovuşubdur... Qəhrəman övladlarını isə "bağrına basıb"dır... Torpağın bağrına cəsədləriylə azadlıq toxumu əkdi şəhidlər.!

***Basdığın yerləri "torpaq" deyib keçmə, tanı!***
***Düşün altındakı minlərlə kəfənsiz yatanı!***

***Sən şəhid oğlusan, incitmə, yazıqdır, atanı,***
***Vermə, dünyaları alsan da bu cənnət Vətəni!***

"Biz yolunan saçların əvəzini yolmağa gəlmişik! Biz Xarıbülbülün haqqını almağa gəlmişik!" Neçə analarımız, bacılarımız saçlarını yoldular, fəryadları yeri-göyü sirkələdi... Evlərindən, ocaqlarından ayrı düşdülər... Qadınlarımızın, kişilərimizin, uşaqlarımızın bağırlarına Vətən dağı çəkildi... Xarıbülbül torpağında həsrətlə bitirdi... Amma oğullarımız yolunan saçların da, Xarıbülbülün də haqqını aldı... Onlar haqqımızı aldı, haqlarını bizə halal etsinlər... Vətən həsrətinin alovu söndü, indi isə qəlbimizdə sizin həsrətinizdir... Sizə olan sevgimizin alovudur yanan qəlbimizdə, elə bir alovdur ki, sönməz... Sönə bilməz...

**Nuray Qurban,**
**Bakı Dövlət Universitetinin IV kurs tələbəsi**

# "Yox" deməyin incəsənəti: Başqalarını xoşbəxt etmək üçün özümüzü necə qurban veririk?

**Müasir insanın ən böyük problemlərindən biri heç də zaman çatışmazlığı, maddi sıxıntı və ya texnologiyadan asılılıq deyil. Bəzən insanın öz həyatını çətinləşdirən ən ciddi problem sadəcə iki hərfdən ibarət olan bir sözü deyə bilməməsidir: "Yox".**

Bir çoxumuz kimisə incitməkdən, münasibətləri korlamaqdan, xoş təsir bağışlamamaqdan və ya eqoist görünməkdən qorxduğumuz üçün istəmədiyimiz işlərə razılıq veririk. Dostun xahişi, qohumun tələbi, iş yerində əlavə tapşırıqlar, sosial öhdəliklər - bütün bunlar zaman keçdikcə insanın öz həyatını ikinci plana atmasına səbəb olur. Nəticədə başqalarının xoşbəxtliyi naminə öz ehtiyaclarını, arzularını və hətta sağlamlığını qurban verən insanlar meydana çıxır. Psixoloqlar hesab edirlər ki, "yox" deməyi bacarmamaq təkcə ünsiyyət problemi deyil, həm də insanın özünə münasibətinin göstəricisidir. Bu problem görünəndən daha dərin köklərə malikdir və çox zaman uşaqlıqdan başlayaraq formalaşır. Cəmiyyətimizdə insanın mehriban, qayğıkeş və köməksevər olması müsbət keyfiyyət kimi qiymətləndirilir. Bu, şübhəsiz ki, vacib xüsusiyyətdir. Lakin bəzən bu keyfiyyətlər həddindən artıq olduqda insanın özünə qarşı haqsızlıq etməsinə gətirib çıxarır. Bir çox insanlar başqalarının gözündə yaxşı görünmək üçün öz maraqlarından imtina edirlər. Onlar yorğun olduqları halda əlavə iş götürür, istirahət etmək istədikləri vaxt qonaqlığa gedir, öz büdcələri imkan vermədiyi halda borc verir və ya istəmədikləri qərarları qəbul edirlər. Əslində isə hamını razı salmaq mümkün deyil. İnsan nə qədər çalışsa da, hər kəsin gözləntilərini qarşılaya bilməz. Birinə yaxşı görünmək üçün verilən güzəşt başqa birinin narazılığına səbəb ola bilər. Bu səbəbdən daim başqalarının məmnunluğunu qazanmağa çalışan insanlar çox vaxt daxili gərginlik və narahatlıq yaşayırlar. Mütəxəssislərin fikrincə, insanların əksəriyyəti bir neçə əsas səbəbə görə "yox" deməkdən çəkinir. Ən geniş yayılmış səbəb rədd edilmək qorxusudur. İnsan düşünür ki, əgər qarşı tərəfin istəyini qəbul etməsə, münasibətlər pozulacaq və ya insanlar onu sevməyəcəklər. Digər səbəb günahkarlıq hissidir. Bir çox insanlar öz ehtiyaclarını ön plana çıxardıqda vicdan əzabı çəkirlər. Onlara elə gəlir ki, başqasına kömək etməmək mənfi xüsusiyyətdir. Bəzi hallarda isə problem uşaqlıqdan gəlir. Valideynlərin və ya müəllimlərin daim itaət tələb etdiyi mühitdə böyüyən uşaqlar sonradan öz sərhədlərini qorumaqda çətinlik çəkirlər. Onlar başqalarının istəklərini öz istəklərindən üstün tutmağa öyrəşirlər. Bundan əlavə, sosial şəbəkələrin yaratdığı "ideal insan" obrazı da insanlara təsir göstərir. Hər kəsə kömək edən, hər vəziyyətdə müsbət olan və heç vaxt etiraz etməyən insanlar sanki nümunə kimi təqdim olunur. Halbuki real həyatda belə yaşamaq mümkün deyil. İlk baxışdan başqalarına kömək etmək və onların istəklərini yerinə yetirmək müsbət davranış kimi görünür. Lakin bu proses davamlı xarakter aldıqda ciddi problemlər yarana



bilər. Daim başqalarının ehtiyaclarını öz ehtiyaclarından üstün tutan insanlar zamanla emosional tükənmə yaşayırlar. Onlar yorulur, əsəbiləşir və həyatlarından narazı qalırlar. Psixoloqlar qeyd edirlər ki, həddindən artıq fədakarlıq depressiya, stress və narahatlıq hallarının artmasına səbəb ola bilər. İnsan uzun müddət öz istəklərini boğduqda daxilində narazılıq yığılır və bu hiss bir müddət sonra partlayış nöqtəsinə çatır.

Maraqlıdır ki, daim "hə" deyən insanlar ətrafdakılar tərəfindən daha çox istifadə olunmağa başlayırlar. Çünki insanlar zaman keçdikcə onların sərhədlərinin olmadığını hiss edir və hər yeni xahişlə yenidən müraciət edirlər. Beləliklə, başqalarını xoşbəxt etmək üçün edilən həddindən artıq güzəştlər nəticədə həm insanın özünə, həm də münasibətlərinə zərər vurur.

Cəmiyyətimizdə geniş yayılmış yanlış fikirlərdən biri də budur ki, "yox" demək eqoist olmaq deməkdir. Əslində isə sağlam sərhədlər qoymaq eqoizm deyil, özünəhörmətin göstəricisidir. Təsəvvür edin ki, insanın enerjisi bir qab su kimidir. Əgər o, bütün suyunu başqalarına paylasa, bir müddət sonra özünə heç nə qalmayacaq. İnsan əvvəlcə öz fiziki və psixoloji vəziyyətini qorumalıdır ki, başqalarına da faydalı ola bilsin. Təyyarələrdə təhlükəsizlik təlimatlarında deyilən məşhur qayda da bunu təsdiqləyir: oksigen maskasını əvvəlcə özünüz taxın, sonra başqasına kömək edin. Həyatda da eyni prinsip keçərlidir.

Öz ehtiyaclarını nəzərə almayan insan uzun müddət başqalarına dayaq ola bilməz. Bir çox insanlar düşünür ki, "yox" demək kobudluqdur. Halbuki bunu nəzakətli şəkildə etmək mümkündür. Məsələn: "Bağışlayın, amma bu dəfə kömək edə bilməyəcəyəm.", "Bu məsələ ilə məşğul olmaq üçün vaxtım yoxdur.", "Təklifiniz üçün təşəkkür edirəm, amma qəbul edə bilməyəcəyəm.", "Hazırda başqa işlərim var və buna vaxt ayıra bilmərəm." Bu cür ifadələr həm qarşı tərəfə hörmət göstərir, həm də insanın öz sərhədlərini qorumasına imkan verir. Ən vacib məqamlardan biri isə uzun-uzadı bəhanələr gətirməməkdir. İnsan öz qərarını sakit və aydın şəkildə ifadə etməyi öyrənməlidir. Psixoloqların fikrincə, xoşbəxt və balanslı həyatın əsas şərtlərindən biri sağlam şəxsi sərhədlərin mövcudluğudur. Sərhəd insanın harada başladığını və harada bitdiyini müəyyən edir. Bu sərhədlər həm ailədə, həm dostluq münasibətlərində, həm də iş mühitində vacibdir. İnsan öz imkanlarını, vaxtını və enerjisini düzgün bölüşdürməyi bacarmalıdır. Əks halda başqalarının istəkləri insanın həyatını idarə etməyə başlayır və o, öz arzularını həyata keçirmək üçün lazım olan vaxtı və enerjini itirir.

**"Yox" demək sadəcə bir söz işlətmək deyil. Bu, insanın öz dəyərini qəbul etməsi, şəxsi sərhədlərini qoruması və həyatına sahib çıxması deməkdir. Başqalarına kömək etmək, qayğı göstərmək və fədakarlıq etmək gözəl xüsusiyyətlərdir. Lakin bunlar insanın özünü unutması hesabına baş verməməlidir. Unutmaq olmaz ki, başqalarının xoşbəxtliyi üçün daim özünü qurban verən insan bir gün öz həyatında xoşbəxtlik tapmaqda çətinlik çəkə bilər. Həqiqi balans isə həm başqalarına hörmət etməyi, həm də öz ehtiyaclarını dəyərləndirməyi bacarmaqdan keçir. Bəzən insanın özünə verə biləcəyi ən böyük hədiyyə sadəcə bir kəlmədir: "Yox".**

**Saida Ramazanova**

**Redaktor: Ağa Rza**



Seyran SƏXAVƏT

# SÖZÜN BELİNDƏN GƏLƏN ADAM

Mənim bir yazıçı olaraq oxuculuq stajım yaradıcılıq stajımdan çoxdur. Nə az, nə çox, düz yetmiş dörd il. Bu illər ərzində saysız-hesabsız kitablar oxumuşam, vəcdə gəlmişəm, gülmüşəm, kədərlənmişəm, oxuduqlarımın ardını yuxularımda görmüşəm, yuxularımda da təkrar vəcdə gəlmişəm, gülmüşəm, kədərlənmişəm, oxuduğum əsərlərin müəllifləri qədər, bəzən də ondan artıq dərəcədə sarsılmışam, ona bir müəllif olaraq yazığım gələn vaxtlar olub, onun yerində olmaq istəmişəm də, istəməmişəm də bəzən günlərlə, bəzən də aylarla o əsərin təsiri altında ilan kimi qıvrılmışam, əzilmişəm, dəymişim dura-dura kalım tökülüb, nəfəsimin kor bıçaqla kəsildiyi vaxt olub, dünyanın acığı duzsuz tər kimi dabanımdan tökülüb, günəş gözümdə özü boyda soyuq kömürə çevrilib, bu çevrilişin insanlara verdiyi əzab Allahın da xoşuna gəlməyəndə yer kürəsi adlı gen bol əbədi əzəli vətəndə heç olmasa tək ayağım üstə dik dayanmaq üçün özümə yer tapa bilməyəndə, bu dolu boşluğun varlığına şübhə eləyəndə, onun içində özümə bir künc tapmalı və bu küncü itirməkdən qorxa-qorxa, üşənə-üşənə dünyanı dərsi pozan məktəbli kimi küncə qoyulan görəndə dəli olmuşam və mənə elə gələndə ki, bütün bəşəriyyət məni barmağı ilə göstərir, bu dəfə əməli başlı dəli olub düşmüşəm öz doğma küncümün ucsuz-bucaqsız çöllərinə.

İndi sizlərə müraciət edirəm.

- Hörmətli oxucular deyə yox, hörmətli qohumlar, çünki mənim ən yaxın qohumlarım oxucularımdır. Qan qohumlarım onlardan sonra gəlir, bəli

İndi gələk mətləbə

Hörmətli qohumlar!

Mən bu gün bu yazımda yetmiş ilə yaxın yaradıcılıq illərimdə özümün Azərbaycanın, bəlkə də dünyanın (Bunu dəqiq deyə bilmərəm, imanım Allaha əmanət) ən böyük cümləsini yazdım - yüz yetmiş beş sözdən ibarət.

Ən böyük cümləni yazmağı qarşıma məqsəd qoymamışdım, sadəcə olaraq belə alındı. Dünyanın bu ən böyük cümləsi bilirsiniz nə vaxt doğuldu?

Yəqin ki, bilmirsiniz

Onda icazə verin deyim

Yüz yetmiş beş sözdən ibarət olan bu ən böyük cümlənin təvəllüdü, doğum tarixi 2 may 2026-cı il saat 12-də Mərdəkan söz doğum evində

Vüsal Cəbrayıloğlunun "Ölümün bəxş etdiyi həyat" əsərini oxuduğum gün.

Bu əsər haqqında uzun-uzadı danışmaq bu əsəri yazmamaq qədər günah olardı və Allah Vüsal Cəbrayıloğlunu bağışlamazdı. Ona görə də bu əsər haqqında yazılanı oxumaqdansa, bu əsərin özünü oxuyun, özünü

Mən dünya ədəbiyyatına bələdəm. Onunla çox yaxınam. Mən deyərdim ki, qardaş kimiyik, aramızdan su da keçmir

Dünya sözünün ağırlığını Atlant kimi çiynində saxlayan yazılar var.

Ad çəkmək istəmirəm, çünki onların əsl adları şərtidir. Hamısının bir adı var: Nəhənglər.

Yuxarıda deyəndə ki, dünya ədəbiyyatı ilə qardaş kimiyəm, aramızdan su da keçmir, o nəhəngləri nəzərdə tuturdum və bu nəhənglərin hər birinin böyük sözlə öz münasibətləri var. Biri digərinə bənzəməz, yüz il bənzətsək də.

O nəhənglərin hamısı böyük sözlə amansız və qəddar rəftar etməsəydilər, böyük sözlə dil tapa bilməzdilər. Çünki söz üzü yola uşaq deyil ki, nə desən, canla-başla əməl eləsin.

Qaldı Vüsal Cəbrayıloğluna

Maşallah

Allah saxlasın, o üzü yola olmayan böyük sözləri, Azərbaycan sözlərini Azərbaycan əsgəri kimi sıraya düzüb onlara belə əmr verir: "Haqqa bax, düzlən!"

Yorulmayasan, qardaş

Qardaşım dedim

Bəli

Biz qardaşıq

İkimiz də SÖZün belindən gəlmişik.

21-ci əsr, 2 may 2026-cı il.

# Sağlamlıq üçün gündə yarım saat piyada gəzin

**Mütəxəssislər bildirirlər ki, gündə cəmi 30 dəqiqə piyada gəzmək həm fiziki, həm də psixoloji sağlamlıq üçün əhəmiyyətlidir.**

Adalet.az xəbər verir ki, son araşdırmalar göstərir ki, müntəzəm yürüş xroniki xəstəliklərin riskini azaltmaqla yanaşı, əhval-ruhiyyəni yaxşılaşdırır və yuxu keyfiyyətini artırır.

Piyada gəzmək ürək-damar sistemini gücləndirən ən sadə və əlçatan fiziki fəaliyyət növlərindən biridir. Mütəmadi və tempolu yürüş qan dövranını yaxşılaşdıraraq ürəyin fəaliyyətini dəstəkləyir, yüksək təzyiq, ürək xəstəlikləri və insult riskini azaltmağa kömək edir. Həkimlər uzun saatlarla məşq etməyə ehtiyac olmadığını, gündə yarım saatlıq gəzintinin kifayət etdiyini vurğulayırlar.

Araşdırmalar göstərir ki, hətta 10 dəqiqəlik gəzinti belə insanın əhvalını yüksəldə bilər. Xüsusilə park və ya digər yaşıllıq ərazilərində edilən yürüşlər stressi azaltmağa və özünü daha rahat hiss etməyə kömək edir. Dost və ya ailə üzvü ilə birlikdə gəzmək isə bu müsbət təsiri daha da artırır.

Mütəxəssislərin sözlərinə görə, müntəzəm piyada gəzmək beyin fəaliyyətinə də müsbət təsir göstərir. Bu vərdiş diqqət, yaddaş və öyrənmə qabiliyyətini dəstəkləyir, yaş artdıqca yarana biləcək zehni geriləmə riskini azaltmağa kömək edir. Yürüş zamanı oynaqlara həddindən artıq yük düşmədən əzələlər işləyir. Bu isə ayaq əzələlərinin güclənməsinə, tarazlığın yaxşılaşmasına və sümük sıxlığının qorunmasına şərait yaradır. Nəticədə yaşlı dövrlərdə yıxılma və sınıq riski azalır.

Bundan əlavə, gün ərzində fiziki aktiv olmaq gecə daha rahat yuxuya getməyə kö-



mək edir. Müntəzəm piyada gəzən insanlar daha dərin və keyfiyyətli yuxu aldıqlarını bildirirlər.

Hər gün edilən yürüşlər həm də kalori sərfiyyatını artıraraq maddələr mübadiləsini sürətləndirir və sağlam qidalanma ilə birlikdə arıqlama prosesinə dəstək olur.

Mütəxəssislər sağlam həyat tərzi üçün hər gün ən azı 30 dəqiqə piyada gəzməyi tövsiyə edirlər. Bu sadə vərdiş uzunmüddətli sağlamlığın qorunmasına mühüm töhfə verə bilər.



Almaz Xanlarova

# Nənə, nağıl danış

(Hekayə)

Zeyn inanırdı ki, nənəsi onu hamıdan çox istəyir. Çünki bunu özü demişdi. O da bilirdi ki, nənəsini dünyalar qədər istəyir. Onsuz bərk darıxırdı. Hətta televizorda nənəsinə oxşayan birini görəndə kövrəlirdi.

O çox istəyirdi ki, nənəsi onlara gəlsin, qalsın, lap çox qalsın.

Amma nənə onlara elə gec-gec gəlirdi ki, buna "gəlir" deməyə adamın dili dönmürdü. Hələ üstəlik qalmırdı da. Zeyn hər dəfə atasına yalvaranda ki:

- Nənəmi gətir, bizdə qalsın...

Anası sözlü adam kimi susurdu, çünki bilirdi ki, nənənin tək bir cavabı olacaq. Cavabı da bu olurdu:

- Özünüz bilirsiniz ki, mən başqa yerdə qalmıram.

Nə isə... Zeyn nənə sarıdan öz evlərinin yetimçiliyini həmişə hiss edirdi. Xüsusi ilə də həyətdə nənələri ilə gəzən uşaqları görəndə. Evə gəlib anasından soruşardı:

- Ana, deyirsən ki, nənələr öz evlərindən aralananda xəstələnirlər. Bəs Maşanın, Səmanın nənəsi niyə xəstələnmir?

Anası bu suala cavab verə bilməyəndə kədərlə Zeynin atasına baxardı.

Zeyn artıq məktəbə gedirdi. İndi nənəsini lap gec görürdü. Çünki dərslərindən qalıb onlara gedə bilmirdi. Şənbə-bazar günü olardı, onda da atası deyirdi:

- Vacib işlərim çıxdı.

Zeyn öz-özünə təsəlli verirdi:

- Eh, eh, eh qoy böyüyüm, özüm gedəcəm nənəmgilə.

Qəribə uşaq idi Zeyn. Bir dəfə beş yaşında olanda anasından soruşdu:

- Ana, nənəm qocadır?

Anası dedi: - Hə.

Gördü Zeynin dodaqları büzüşdü, gözləri doldu, tez sözünü dəyişdi:

- Yox, ay bala, hələ qocalmayıb.

Zeyn dedi: - Ana, istəmirəm nənəm qocalSın. Axı deyirlər, adam qocalanda ölür, hə? Gəl elə edək ki, nənə qocalmasın. Xəstələnməsə, qocalmaz, hə?

"Yox" cavabını eşidəndə üzü gülərdi.

Və o gündən Zeyn kimdən nənəsini görüb xəbər alsaydı, soruşardı:

- Xəstələnməyib ki?

Amma bir dəfə qulağına çatdı ki, nənəsi xəstələnib. Anası gedib onlarda qalmışdı. Zeyn bilmirdi neyləsin. Uşağın gözlərinə elə bir kədər çökmüşdü ki, baxan o gözləri yaşlı adamın gözlərinə oxşadardı. Həm də gözlərində itirmək qorxusu vardı.

"Nənəm xəstələnibsə, qocalıb. Qocalıbsa deməli..."

Yox, yox...

"Eybi yox, qoy bizə gec-gec gəlsin, gəlib qalmasın, amma bilim ki, nənəm var, həmişə olacaq."

Bir gün Zeyn məktəbdən evə gələndə həyətdə uşaqlar ona dedilər:

- Nənən gəlib!

Zeyn təngnəfəs pillələri qalxdı. ... Həyətdə maşın dayandı. Bir-iki nəfər dü-



şüb ikinci mərtəbəyə qalxdı. Bir az keçdi geri qayıtdılar:

- Evdə yoxdur, - dedilər maşındakı qoca arvada.

Cavab gəldi:

- Nolar, gedək qonşudan soruşaq, bəlkə bilər nə vaxt gələcəklər.

Zeynin anası qapını açanda dəhlizdə bir qarı gördü.

- Axşamın xeyir, ay bala, bilmirsən bizimkilər hardadır?

- Yox, ay xala, gəl içəri, sən Allah. Nə vaxt gələrlər, gələrlər.

Beləcə, Zeyn gələndə onların evində nənə vardı.

Anası qapını ona açan kimi Zeyn içəri yüyürdü:

- Nənəəə...

Özgə nənəsini görüb tutuldu.

Amma Arastə arvadın:

- Can nənə, sənə qurban olum, ay bala... - deyib qucaq açaraq ona tərəf gəldiyini görəndə atılıb arvadın boynunu qucaqladı, üz-gözündən öpdü, onun boynunu buraxmadı.

Arastə nənə gəldiyi uzaq yolun yorğunluğunu, yad evdəki narahatçılığı unutdu. Elə bil öz nəvəsinin evinə gəlmişdi. Bayaqdan ehtiyatla baxdığı dərin kresloya arxayınlıqla çökdü. Arxası üstə düşüb ayaqlarının yerdən aralanması Zeyni güldürdü. Uşaq gülməkdən uğunub nənənin boynunu qucaqladı. Arastə nənə onun üzündən bir də öpdü.

Başladı suallar, nə başladı...

Zeyn çoxdan ürəyində nənəsinə verəcəyi sualların hamısına cavab tapmaq istəyirdi. Arastə nənə də elə bil yorulmurdu. Beləcə, nənə ilə Zeyn "öz dillərində" xeyli dərdləşdilər.

Gecəyarı Arastə nənənin oğlugil - Zeyngilin qonşuları - qayıdıb gəldilər. Kimsə nənənin Zeyngildə olduğunu demişdi.

Oğlu bir az tərəddüdlə qapının zəngini basdı. Axı bu qonşu ilə heç əməli-başlı gediş-gəlişləri olmamışdı. Qapını Zeynin atası açdı:

- Gəl içəri, ay qonşu, gəl. Neçə ildir qonşuyuq, amma bir-birimizin evinin kandarını tanımırıq. Yenə Arastə nənə sağ olsun.

Zeynin sevincindən hamıya pay düşmüşdü. Atanın da üzündə uşaq təbəssümü vardı. Kandarda azca ləngiyən oğul da yüngülləşdi, ərklə içəri keçdi.

Bir azdan bu evin xoş hay-küyü həyətdən eşidilirdi.

- Əşi, bir Qarabağlılığımızı göstərək, ay qonşu. Tarım var, gətirim çalım. Səsin olmamış olmaz. Ananı, sizi gördüm, kəndkəsəyim yadıma düşdü.

Zeyn sevincək nənəni qucaqladı:

- Nənə, ay nənə, bu gün bizdə qalacaqsan, hə?

Nənə bir anlığa duruxdu. Oğluna baxdı. Zeynin anasının gözlərindəki itirmək qorxusunu gördü. Uşağı bağrına basdı:

- Qalacam, ay bala, qalacam. Nənən sənə qurban.

Çaldılar, oxudular, çörək kəsdilər.

Nənənin gəlini gəldi:

- Ay ana, gəl gedək. Camaat da öz evində dincəlsin.

Bu söz Zeyni üşütdü. Büzüşdü. Rəngi şaxtaya düşən adamın rənginə döndü.

- Nənəəə...

- Sizdə qalacam, bala. Nənə qurban, qalıram.

Nənə gəlinini, oğlunu dəhlizə apardı. Nəsə dedi. Onlar yarıkönül getdilər.

Zeyn bunları görmürdü. Çünki yerindən tərpənməyə ürək eləmirdi. Elə bil onu tək otağa salıb qapını kilidləmişdilər. O da gözləyirdi ki, kimsə gəlib bu qapını açacaq.

Və nənə geri qayıdıb deyəndə ki:

- Ay qızım, yerimi Zeynlə bir sal...

Zeynə elə gəldi ki, bundan başqa dünyada heç nə arzulamayıb.

Yerinə girdi. Arastə nənənin də onun yanında uzandığını görən kimi nənəyə sığınıb onun boynunu qucaqladı. Pıçıltıyla dedi:

- Nənə, mənə nağıl danış...

# Əliyalınlıq qeyrətiyalınlıq deyilmiş!

## (1-ci Dərəcəli "Rəşadət" Ordeni ilə təltif olunmuş Vasif Tağıyevin anası ilə söhbətimiz)

*Seyran Səxavətin 80 illik yubileyi münasibəti ilə Azərbaycan Dövlət Filarmoniyasında keçirilən tədbirdə sevilən yazıçı-şairi təbrik edənlər sırasında təbii olaraq qadınlar çoxluq təşkil edirdi. Təbrikçilərinin hər birini ayrı-ayrılıqda təqdim edib, təşəkkür edən Seyran bəy həmin siyahıda bir xanımı xüsusi, fəxrlə vurğuladı:" Azərbaycanın İrandakı Səfirliyinə mənfur terrorçunun hücumu yəqin ki, hamınızın yadındadır. Həmin terrorçunu yalın əllə zərərsizləşdirən, avtomat ata-ata onun darağını çıxaran və Səfirlik binasında məskunlaşan neçə-neçə ailəni xilas edən igidimiz Vasif Tağıyevi bax bu qadın doğub. Qəhrəmanın anası, bax, həmən bu qadındır - Təranə Tağıyeva."*

*Səhnədə Xurşidbanu Natəvan ədasında, şux görkəmdə, məğrur bir Ana dayanmışdı. Keçirdiyi qürur və sevinc hissikövrəlmiş gözlərindən axmaq istəyən yaşa sərhəd çəksə də, həyəcanını cilovlasa da, ana nəvazişli səsi ilə zaldakı izləyicilərin qəlbini titrətmişdi.*

*Vasif Tağıyev haqqında "Əliyalın iradənin adı - Vasif Tağıyev" - məqaləni yazmamışdan əvvəl anası ilə görüşüb qəhrəmanımız haqqında daha ətraflı məlumat əldə etmək istədim. Görüşdük. Mehribanlığı və səmimiliyi gözəlliyi ilə birləşib ananın simasını nurlandırırdı. Məğrur və qürurlu olduğu qədər də kövrək ana.*

*Məqaləni yazanda Təranə ana ilə söhbətimizə (bəli, məhz "söhbətimiz" yazıram, çünki bizim ünsiyyətimiz o qədər səmimi və sevgi ilə dolu idi ki, ona "müsahibə" donu geyindirmək günah olardı.) bir neçə dəfə qulaq asdıqdan sonra qərara gəldim ki, şücaətli övladının, mərdliyi ilə böyütdüyü oğunun qəhrəmanlığından fəxr, həyəcan və ürəklə söhbət edən anayla görüşümüzü ayrıca bir esse-söhbət kimi qələmə alım.*

*Təranə anaya deyəndə ki, Vasifin uşaqlığından danışsın, söhbətə Şuşa ilə başladı. Təsəvvür edirsiz, anaya oğlunun uşaqlığından danış deyirəm və o, həmin dövrdə Şuşanın çətin vəziyyətindən, komendat saatı olmasından, ora gətirilən silah-sursatdan çiynindəki ağır bir yükmüş kimi danışır?! Baxışları dərin boşluğa zillənir. Elə bil həmin an Şuşanın sıxıntısı ilə çətinliyi birə beş artan doğum sancısının ağrısını canlandırırdı gözündə...*

- Komendant saatında doğuldu Vasif...

1989-cu ilin martında. O vaxt Şuşada hadisələr təzə-təzə başlayırdı. Tanklar, raketlər, BTR-lər bütün şəhərə düzülmüşdü. Xocalı soyqırımından sonra, mart ayında şəhərdən qadınları, uşaqları və yaşlıları çıxardılar. Vasif Şuşanı elə çox görmədi. Amma bilmirəm yadında qalıbmı, ya bizim danışdıqlarımız yaddaşına həkk olunubmu, elə hey deyirdi ki:"Mama, Şuşada eyvandan baxanda gördüyüm o tanklar, BTR-lər heç yadımdan çıxmır."

**- Faciənin böyüklüyünə bax, İlahi, 3-4 yaşında uşağın ayaqyalın qaçmağı, gizlənqaçda tapılmamağı, velosiped təkərinə sim keçirib maşın sürürmüş kimi oyanamağı yadında qalacağı halda, eyvandan baxanda gördüyü od püskürən dəmir əjdahalar daş kimi asılıb xatirəsindən.**

- Sonra Bakıya gəldik, dəniz qırağında məcburi köçkünlərin kütləvi məskunlaşdığı bir məkana yerləşdik. Çox çətin günlər idi. Hər an ümidlə gözləyirdik ki,Şuşaya ya bu gün qayıdarıq, ya sabah. Beləcə 30 illik ömürgün gəlib-keçdi... Vasif Xocalı məktəbinə getdi və ordan da məzun oldu. Məktəb illərində də çox mehriban uşaq idi. Həm tay-tuşları, həm də müəllimləri çox istəyirdilər onu.Uşaqlıqdan mərd, vətənsevər, istiqanlı idi.

Vasifdi də, başqa nə deyim ki?! *(Gülümsəyir)* Çox qəşəng xətti var Vasifin, hərfləri elə yazır, elə bil muncuq düzür.

Hərbi xidmətini də Milli Qvardiyada başa vurduqdan sonra Prezidentin Mühafizə Xidmətində işə düzəldi. Əsgərlikdə olnda hərbi hissədən təşəkkür məktubu da gəlmişdi Vasifə görə. Bu da çox qürur verici idi ki, tərbiyyə etdiyimiz övladımızın nümunəvi davranışına görə valideyini olaraq təşəkkür edilib, təqdir edilirdik. Çox kövrəlmişdik. Sonrakı illərdə artıq xarici kəşfiyyata keçdi və fərqli-fərqli ölkələrdə xidmət etməyə başladı: Türkiyə, İran, Gürcüstan, Rusiya, Ukrayna.

Ukraynaya və İrana iki dəfə gedib. İndi də Ukrayinada o odun alovun içindədir. Öz istəyi ilə ora getdi. *(Yenə də dərin boşluğa baxıb, fikrə gedir.)*

**- Müsahibələrinizdə demisiniz ki, ikinci dəfə oranı seçməyinə səbəb rəhmətlik Orxan Əsgərovla birlikdə ilk təyinatının məhz Ukraynaya verilməsi olub.**

Maşallah, hər şeyi araşdırıb, bilib gəlmisən, ay qızım. Söhbət əsnasında hərdən elə şey deyirsən, sən deyəndən sonra yadıma düşür ki, hə, belə bir məqam da var idi.



Doğrudur, ilk diplomatik xidmətinə rəhmətlik Orxan Əsgərovla birlikdə Ukraynada başlamışdı. Həmin hücum zamanı təəsüf ki, Orxan şəhid oldu. Orda işləməsi bizim üçün çox çətindir, demək olar ki, hər gün həyəcan siqnalı verilir. Amma Vasifdi də... Özü getdi.

Elə İrana da ikinci dəfə gedəndə orda vəziyyət yaxşı deyildi. Sosial şəbəkələrdə təhdid videolar yayılmışdı. Deyilirdi ki, Azərbaycandan gələn yük maşınlarına, Azərbaycan Səfirliyinə hücumlar təşkil olunacaq. Buna baxmayaraq 2022-ci il, noyabrın 26-sında Vasif ora getdi. Çox nigaran idik. Hər gün danışsaq da içimizdə bir təlaş var idi. 2023-cü il yanvarın 27-də də bu hadisə baş verdi.

**- Hadisəni siz nə vaxt öyrəndiniz?**

- Həmin gün səhər, işə getməmişdən əvvəl, saat səkkizin yarısı olardı Vasiflə danışmışdım. Demişdi ki, o da indi işə düşəcək. Sakitlikdir, hər şey yaxşıdı, nigaran qalmayım. Səfirliyin binasının üst mərtəbələrində səfirlik əməkdaşlarının ailələri, nisbətən alt mərtəbədə isə orada xidmət göstərən əməkdaşlar və birinci mərtəbədə də səfirliyin ofisi yerləşirdi.

Saat hardasa doqquz olardı yoldaşım zəng elədi və dedi:"Birdən xəbərlərdə bir şey eşidərsən, narahat olma ha, Vasiflə özüm danışdım hər şey yaxşıdır. Səfirlikdə hadisə olub, Vasif yaxşıdır, Orxan isə... Şəhid olub."

"Orxan şəhid olub" - deyəndə elə bildim ki, dünya başıma çökdü. (Ağladı...) Vasiflə çox yaxın dost idilər. Orxan şəhid olubsa bildim ki, Vasifin də vəziyyəti yaxşı ola bilməz. Bəlkə 100 dəfə zəng elədim Vasifə, cavab vermədi. Axırda səs atdım ki, mamanqurban, bircə zəng elə özünü görüm, bilim ki, salamatsan, sonra daha sənə yığmayacam.

Biraz sonra görüntülü zəng elədi, üzü-gözü qan içindəydi, yavaş səslə dedi:" mama, nigaran qalma, yaxşıyam, danışa bilmirəm, sağ olun." İnanırsan, həmin hadisədən sonra xəstəlik tapdım. Elə indi də çantamda dava-dərmanla gəzirəm. Allah heç bir ananı övladı ilə sınağa çəkməsin.

**- Hadisənin sonrakı günlərində Vasif bəylə əlaqə saxlaya bilirdinizmi?**

- Vasifin özüylə əlaqə saxlaya bilmirdik. Ancaq orda olan bir dostu ilə danışırdıq tez-tez. O da deyirdi ki, verəcəm danışacaqsız, bir az başı qarışıqdır, müsahibə verir. Sən demə yalandan deyirmiş hamısını. Sən demə Vasif əməliyyatdaymış. Görüntülü danışanda da özünü o qədər gümrah göstərmişdi ki, heç birimizin ağlına da gəlmirdi ki, o cür yaralana bilər.

**- Çiynindən və çənəsindən yaralanmışdı, hə?**

- Hə, birinci güllə çiynindən dəyib, kürəyindən çıxmışdı, ikinci isə çənəsinin sol tərəfindən dəyib yanağından çıxmışdı. Bütün günü Vasifdən xəbər gözlədik, özü ilə danışa bilmədik.

Bir gün sonra dedilər ki, Vasifin iş yerindən bizə kimsə gələcək. Ürəyim uçunurdu, elə bilirdim Vasifdən pis xəbər gətirəcək gələnlər. Günorta saat bir oladı, gözlədiyimiz adamlar gəldi. Elə qapıdan girən kimi biri dedi:"Çox şükür, Vasif salamatdır. Uğurlu bir əməliyyat olunub, vəziyyəti qənaətbəxşdir." İnanın ki, o an ayaqlarım əsdi, özümü toplayıb soruşa da bilmirdim ki, nə əməliyyatı? Axı görüntülü danışmışdım, heç nəyi yox idi.

**- Deyəsən əməliyyat zamanı kliniki ölüm də keçirib, hə?**

- Elə İranda əməliyyat olunub, doqquz saat da koma vəziyyətində qalıb Vasif. Dostu da min bir bəhanəylə bizi aldadırmış. Sonralar bildim, bacım oğluna deyibmiş ki, Vasif güllə yaras alıb, əməliyyatdadır, komaya düşüb.

Hətta ayılandan sonra, görüntülü danışanda da güllə yarası aldığını, komaya düşdüyünü deyən yox idi. Elə bilirdik ki, şüşə qırığıdır, nədirsə dəyib yaralayıb onu atışma anında. Sonra özü mediaya müsahibə verəndə dedi, öyrəndik ki, iki güllə yarası alıbmış.

**- Maraqlı bir məqam odur ki, Vasif bəy, terrorçunu zərərsizləşdirdikdən sonra belə onu öldürmür, binadan çölə çıxarır.**

**İnsanın o anda bu qədər təmkinli yanaşması və düşünülmüş hərəkət etməsinin özü belə böyük şücaət göstəricisidir. Yanılmıramsa avtomatın darağını belə silahdan atəş açıla-açıla çıxarmışdır.**

- Elə çənəsidən ikinci güllə yarasını terrorçunu binadan uzaqlaşdırandan sonra alır. Demək, onun əlindəki silahı alır və çölə çıxarıb, uzaqlaşdırır. Nə bilsin ki, bunun cibində tapança da var. O da "Səni öldürəcəm, hamınızı öldürəcəm"- deyib, cibindəki tapançanı çıxarır və çənəsinə atəş açır, süpürləşirlər orda.

Bundan sonra da Vasif onu buraxmır və İran polisi gələnə qədər eləcə saxlayır. Sonradan həmin hadisənin video görüntülərinə baxanda Vasif dəqiqliyi ilə olanları anbaan danışır və göstərirdi bizə. Həmin an özü də hiss eləməyibmiş ki, çənəsindən güllə dəyib.

**- Həmin an orada xilas etməli olduğu şəxslərin, ailələrin məsuliyyətinin ağırlığı güllə yarasının ağrısına güc gəlibmiş deməli.**

- Qızım, görürəm ki, hadisənin yayılan videolarını sən də izləmisən və bu barədə geniş məlumatın var. İnan ki, sizi belə görəndə elə bilirəm ki, bir yox çox bacısı var, qardaşları var. O vaxt damətbuat nümayəndələri yaxından izləyirdilər, araşdırırdılar. Vasifin səhhəti ilə bağlı narahat olurdular, tez-te zəng edib hal-əhval tuturdular. Elə indi də hamısı ilə ünsiyətimiz, yaxınlığımız davam edir. Allah hər birinizdən razı olsun.

**- Sizin bu cür qürur və fəxrlə danışmağınız da nəinki mənə və əminəm ki, bütün Azərbaycan analarına örnəkdir ki, ana öz qəhrəman oğlu ilə ilk növbədə bir vətəndaş kimi qürur duyur.**

- Mən o uşaqların təyyarədən sağsalamat düşdüyünü gördükcə fikrləşirdim ki, ay Allah, Vasif həmin an öz ailəsini, öz uşaqlarını fikirləşməyib. Yoxsa bu uşaqları, bu ailələri necə xilas edərdi. Nə yaxşı ki, o an yalnız orda olan uşaqları xilas etməyi düşünüb. Vasif hadisə zamanı üç balasını fikirləşib, arxa qapıdan qaça da bilərdi, buna şansı da var idi. Amma nə yaxşı ki, o mübarizəni seçdi, nə yaxşı ki onlarla ailənin üzünü güldürdü.

**- Müsahibələrinizdə bir məqam xüsusilə diqqətimi çəkdi, deyirsiniz ki, 1-ci Dərəcəli "Rəşadət" Ordeni ilə təltif olunmağını sevinə-sevinə ilk dəfə özü deyib sizə. Həm də sərbəst danışa bilmədiyi halda bunu sizə izah edib.**

- Ay qızım, necə diqqətlə izləmisən prossesləri. (gülür.) Xəstəxanadan zəng elədi, gördüm ki, kövrəlib. Sol tərəfdən ağız nayihəsinin damarlarını tikmişdilər və dəmir qoyulmuşdu ora. Bir zülümnən, bir təhər dedi:"Prezident məni "Rəşadət" Ordeni ilə təltif edib." - sonra yenə də kövrəldi. Xəbəri verdiyi anı uşaqlar şəkil kimi çəkiblər, heyf ki videoya çəkilməyib. O da, biz də çox sevinmişdik.

**- Vasifin hansı davranışı, hansı sözü sizi həmişə kövrəldir?**

- Bir mənə "Təriş-Təriş" deməyi, bir də onu boynundan öpürəm həmişə. İndi də doğmalarımızdan kim yanına getsə, deyirəm ki, mənim əvəzimə onun boynundan öpün. Elə bilirəm onun uşaqlığının, yeniyetməliyinin, indisinin qoxusu boynuna hopub. Özü uzaqda olanda da burnuma o qoxusu gəlir həmişə.

**- Bir ana kimi ürəyinizdə elə bir söz olubmu ki, onu demək istəyəsiniz Vasifə, amma deməmisiniz?**

- Vasifə ancaq xəstələnəndə, təzyiqim qalxanda, haramsa ağrıyanda, nəsə bir narahatlıq olanda demirəm, hamıya da tapşırıram ki, deməsinlər. Amma demək istədiyim bir söz var, onu da həmişə deyirəm özünə, ürəyimdə saxlamıram. Deyirəm:"Maman saa qurban". Həmişə ona bircə bu cümləni demək istəyirəm və deyirəm. O da məni hamıdan çox istəyir.

Bax, mən sənə hər şeyi danışıram, amma hələ səndən heç nə soruşmamışa ha. Mən də səndən müsahibə alacam. *(Gülürük)*

**- Təranə xanım, necə düşünürsüz qəhrəman doğulurlar, genlər vasitəsilə ötürülür ya sonradan bu bir xarakter, bir xüsusiyyət kimi formalaşır adamda?**

- Yəqin ki, elə qəhrəman doğulurlar. Adamın qanında igidlik, mərdlik, vətənpərvərlik olmalıdır ki, qəhrəmanlıq edə bilsin. Bir sual da mən sənə verim, bəs sən necə düşünürsən?

**- Mən də düşünürəm ki, mərdik, cəsurluq genlə keçir, qəhrəman doğulurlar. Sonradan xasiyyətdə formalaşan qəhrəmanlıq biraz yamaq kimi görünür.**

- Nə gözəl dedin, həqiqətən də insanın mərdliyi, şücaəti elə geni ilə ötürülür. Atalar əbəs yerə deməyib ki, ot kökü üstə bitər. Sonrdan gələn həqiqətən də yamaq kimi olur.

Düzdü ey, analar həmişə oğullarını qəhrəman bilirlər, evdə də, bayırda da. Biz hər yerdə elə bilirik ki, oğlumuz qəhrəmandır.

**- Təranə xanım, maraqlı və səmimi söhbətiniz üçün təşəkkür edirəm sizə.**

- Xoş oldu, Vallah. Gələndə fikirləşirdim ki, tanımadığım biridir, görəsən münasibətimiz, söhbətimiz tutar ya yox. Amma o qədər ürəyimə yatdın ki, indi heç ayrılmaq istəmirəm səndən. Hamı ilə az-çox münasibət qurmaq olur ey, ancaq sən lap ürəyimcə oldun, Pərvanə xanım.

Mənim üçün də həm fəxr ediləsi bir haldır ki, qəhrəmanımızı dünyaya gətirənana ilə həmsöhbət oldum, həm də sizin kimi səmimi, gözəl bir xanımı tanıdım. Bir daha əmin oldum ki, Vasifin timsalında olan bütün qəhrəman oğulları məhz elə sizin kimi mərd, qəhrəman analar dünyaya gətirə bilər.

**Pərvanə Eyvazqızı**

## *Bakcell yeni baş icraçı direktor təyinatını elan edib*

**8 iyun 2026-cı il tarixində Bakcell baş icraçı direktor vəzifəsinə yeni təyinatla bağlı rəsmi məlumat yayıb. Telekommunikasiya sahəsində 35 ildən artıq beynəlxalq təcrübəyə sahib Qunnar Panke şirkətin baş icraçı direktoru vəzifəsinə təyin olunub.**

Adalet.az xəbər verir ki, Qunnar Panke telekommunikasiya sektorunda müştəriyönümlü biznes transformasiyası, strateji inkişaf və dayanıqlı artım istiqamətlərində geniş təcrübəyə malikdir. O, Azərbaycan, Almaniya, Fransa, Rumıniya və digər ölkələrin aparıcı telekommunikasiya şirkətlərində müxtəlif rəhbər vəzifələrdə çalışıb.

Qunnar Panke Fransanın Poitiers Universitetində strateji idarəetmə üzrə fəlsəfə doktoru (PhD) dərəcəsinə, həmçinin ENSPTT Universitetinin MBA dərəcəsinə sahibdir. Bundan əlavə, o, INSEAD (Fransa), Oksford Universiteti (İngiltərə), London Biznes Məktəbi (İngiltərə), IE (Madrid), ESMT (Almaniya) və Darden Biznes Məktəbi (ABŞ) kimi dünyanın nüfuzlu ali təhsil müəssisələrində rəhbərlik proqramlarını uğurla tamamlayıb.

"Ölkənin rəqəmsal inkişafında mühüm rol oynayan Bakcell-ə təyinatım mənim üçün böyük məsuliyyət və şərəfdir. Məqsədim innovasiya, süni intellekt və müştəriyönümlü həllər vasitəsilə abunəçilərimiz üçün daha çox dəyər yaratmaqla, Bakcell-in telekommunikasiya sektorundakı mövqeyini daha da gücləndirmək və ölkənin rəqəmsal inkişafında strateji rolunu genişləndirməkdir", - deyə Qunnar Panke vurğulayıb.

Yeni təyinat Bakcell-in müştəriyönümlü innovasiya, süni intellekt və rəqəmsal xidmətlər istiqamətində uzunmüddətli strateji prioritetlərinin daha da sürətləndirilməsinə təkan verəcək. Qunnar Pankenin rəhbərliyi ilə şirkət müştəri təcrübəsinin daha da təkmilləşdirilməsi və süni intellekt əsaslı həllərin tətbiqinin genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcək.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə və sahələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibində olan Azerconnect Group-a daxildir.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Sözün və adamlığın ƏŞRƏFİ

Mən həmişə gecikmişəm. Özü də istəyərək yox, yəni qəsdinə durmadan, arzu etmədən, hətta ağlıma gətirmədən gecikmişəm. Maraqlı bir də burasıdır ki, gecikdiyim yer, gecikdiyim məqam və gecikdiyim an həmişə məni ağrıdıb. Çünki o istəyə içimin ehtiyacı olub. O yeri görmək, o anı yaşamaq, o adamın gözlərinin içinə baxıb ürəyini oxumaq istəyim gözümdə qalıb. Ona görə həmişə özümü qınamışam, bu gün də qınayıram. Xüsusilə, indiki anda o qınaq, o daxili əzab məni qəlbən sıxır, ağrıdır, hönkürtüm içimdə qalır, boğuluram elə bil. Çünki...

Əlimi ürəyimin üstünə qoyub Allah və vicdan qarşısında etiraf edirəm ki, onu həmişə ən yaxşılardan, ən ucalardan, ən dəyərlilərdən biri hesab etmişəm. Və onun imzasını, sözünü, söhbətini eşidəndə nəfəs dərmədən bütün diqqətimi cəmləyib özümə hakim olmuşam dinləmək üçün, öyrənmək üçün, yaddaşıma köçürmək üçün. Bəlkə də inanmayacaqsınız, amma mən daxili inamla deyirəm ki, bu dünyada onunla cəmi ikicə dəfə görüşdüm. Daha doğrusu, görüşmək nəsibim oldu. Onların ikisi də ona və mənə ruhən yaxın olan doğma adamların övladlarının xeyir məclisləri oldu. Necə deyərlər, toy adamı kimi atüstü hal-əhval tutduq. Bir-birimizi oxuyub izlədiyimizi bir-birimizə dedik. Və o, əlini çiynimə qoyub "Yaxşıdı, xoşum gəlir" - dedi. Bu mənə bir ustad, bir müəllim, bir sözün içalatını bilən adamın verdiyi qiymət idi. Mən onda özümə söz verdim ki, onunla ayrıca bir yerdə, ayrıca bir məkanda üz-üzə oturub sözdən, ədəbiyyatdan danışmaq və onun dünyasında olmaq fürsətini əldə edəcəm. Elə bu istəklə də hər telefon söhbətində vaxtı dəqiqləşdirməyə çalışdıq. Amma...

Onu ilk dəfə mənə rəhmətlik, dəyərli yazıçı-publisist Nemət Veysəlli təqdim etdi. Nemət müəllim hər görüşümüzdə məni Sumqayıta aparacağını, Əşrəf Veysəlli ilə yaxından tanış edəcəyini deyirdi. Və biz bu ömürdə Nemət Veysəlli ilə Əşrəf Veysəllinin qonağı ola bilmədik...

Onun barəsində mənə dəyərli yazıçımız, mənim üçün doğma olan Seyran Səxavət də dəfələrlə söz açdı. Hər dəfə də dedi ki, "Əbili, Əşrəf çox böyük şairdi, lap çox böyük". Seyran müəllim də bir gün Sumqayıta gedəcəyimizi deyirdi. Yenə gedə bilmədik...

Onun barəsində el-obamızın ağsaqqalı, çox hörmətli Nəbi müəllim də söhbətlərində mənə danışırdı. Hər dəfə də deyirdi ki, "biz Xocavənddə (keçmiş Martuni qəsəbəsində - Ə.M) orta məktəbdə oxuyanda mən Əşrəfi lap yaxından tanıdım. Biz bir kənddənik. Əşrəfin fitri istedadı, canıyananlığı, qayğıkeşiyi heç kimdə yoxdu, Əşrəf ayrı adamdı".

Bax bu, onun barəsində eşitdiklərimin sadəcə bir qismidi. Amma onun barəsində ən çox özü danışıb, özü deyib mənə. Təkcə mənə yox, bütün Azərbaycana. Deyib ki:

*Nəvələri gözü kimi sevərdi,*
*Gec görəndə ürəyini yeyərdi.*
*"Allah, məni daşa döndər" - deyərdi,*
*Mənim anam daşa döndü axırda.*

Nəvələrinə yazmışdı bu şeiri Əşrəf Veysəlli. Sevgisini belə ifadə etmişdi. O sevginin içərisində hər şey vardı. Daş da ana olmuşdu hətta. Onun ardınca ataya üz tutmuşdu. Demişdi ki:

*Allahdan aşağı Allahım ata!*

Bu, İlahi bir sevgidi, bu, İlahi bir pıçıltıdı. Onu duymaq və duyduğun kimi də demək sözün və adamlığın əşrəfi olanların gücündədəir. Çünki sözün və adamlığın əşrəfi açıq şəkildə hamıya etiraf edir:

*Nə mən özüm bir gün gördüm,*
*Nə sizə bir gün ağladım.*

Bu, övlada, ürəyinin parçasına olan ata etirafıdır. Özü də mərdi-mərdanə. Hər şeyi çılpaq şəkildə, amma poetik etirafdı. Çünki bu etiraf sahibi ömrün hər üzünü görüb. Dəyişən cəmiyyətdə, dəyişən çevrədə duymadığı, gözündən yayınan heç nə olmayıb. Və onun öz həyatı ürəyinin səsi ilə qol-qola girib ağayana bir şəkildə sanki əlini havada yelləyərək bəyan edib ki:

*Günlər qanadlanır, uçur, quş olur,*
*İllərin karvanı ötüşmüş olur,*
*Ömür yetmişində yetişmiş olur -*
*Yetmişdən o yana qorxusu yoxdu.*

Yetmişin qorxusu olmadığını hər kəsə şair ərkiylə çatdıran Əşrəf Veysəlli əlini səksənin ətəyində görür və yazır:

*Deyirlər səksəndə səksənir insan,*
*Səksəndən o yana qorxusu yoxdu.*

Və səksənlə görüşüb bizimlə həmsöhbət olacağını telefonda mənə söyləyən Əşrəf Veysəlli onu da əlavə etdi ki:

*Doxsana yetməyin özü qorxudu,*
*Yüzdən o tərəfə qorxusu yoxdu!*

Mən bu şeirin sonuncu bəndini oxuyanda eləcə telefonda dedim ki, Əşrəf müəllim, mənə elə gəlir ki, siz biraz tələsmisiniz. Yüzdən sonrasına da yazmaq nəsibiniz olacaq. O isə özünəməxsus səsi ilə "təki sizə nəsib olsun" - dedi. Söz ilişib qaldı yaddaşımda. Demək vəhy varıymış sözün və adamlığın Əşrəfində. Ona görə doxsana yetməyin qorxu olduğunu öncədən deyib. Amma...

Mən bugün onun barəsində keçmiş zamanda düşünmək istəməsəm də dinlədiyim xatirələr, eşitdiyim söhbətlər zaman hökmünün gücünü mənə də göstərir. Və mən Sumqayıtda onunla üz-üzə otura bilmədiyim üçün özümü qınayıram. Bəlkə də görüşsəydik bir gözəl müsahibə alınacaqdı, bir maraqlı söhbətimiz olacaqdı. Mütləq nəsə olacaqdı. Təəssüf. Bu təəssüfün bircə təsəllisi var. O da Əşrəf müəllimin öz misralarıdı:

*Yazan qalar söz ömrünün hayında,*
*Ozan qalar saz ömrünün hayında,*
*İnsan da var - öz ömrünün hayında,*
*İnsan da var - Vətən ömrü yaşayır!*

Bəli, bu gün bizdən barmaq sayı məsafədə bir ayrılıq yaşanır. Cismani ayrılıq. Amma Əşrəf Veysəlli həm söz ömrü, həm də Vətən ömrü yaşayır. Çünki o, şair kimi - şair, adam ki ADAM idi. Və ümumilikdə sözün və adamlığın Əşrəfi idi.

Ruhuna sonsuz sayqılar.



Qardaşxan FƏRZİ

# Sevginin başlanğıcı

(hekayə)

Zəminə xanım adət etdiyi vaxtda oyandı. Gözlərini açmağa cəhd göstərsə də, bunu bacarmadı. Elə bil hər kirpiyindən bir batmanlıq daş asılmışdı. Digər tərəfdən isə gördüyü yarımçıq yuxunun təəssüratlarından ayrılmaq istəmirdi. Ağır da olsa, təəssüf içində səhərin tez açılmasını qınadı. Ərinin ölümündən sonra ilk dəfə idi ki, sifətinə təbəssüm qonmuşdu. Sanki gördükləri yuxu deyil, həqiqət idi. Haçandan-haçana göz qapaqlarını qaldıra bildi, sağ böyrü üstə çevrildi. Divardan asılmış kəfkirli saata gözucu nəzər yetirdi. Əqrəblər saatın altıya beş dəqiqə qaldığını göstərirdi. Başını buladı. Çarpayıdan cəld qalxıb stulun üzərindəki ipək xalatı əyninə keçirdi. Tələsik oğlunun yataq otağının qapısını bir neçə dəfə taqqıldatdı.

- Qalxıram, ana, - otaqdan Muradın kal səsi eşidildi.

Zəminə xanım yeyin addımlarla mətbəxə keçdi. Su dolu çaydanı qaz pilitəsinin üstünə qoydu. Əl-üzünü yuyub soyuducunun qapısını açdı. Ötən axşam marketdən aldığı pendir, kolbasa və kərə yağından dilimləyib stolun üzərinə düzdü. Bu vaxt Murad içəri daxil oldu.

- Sabahınız xeyir, ana! - deyə iki-üç addım atıb, həmişəki kimi Zəminə xanımın üzündən öpdü.

- Sabahınız xeyir, oğlum! - ana qeyri-ixtiyari gülmsədi.

Zəminə xanımın gülümsəməsi Muradın gözlərindən yayınmadı. Çörək diliminə bir parça yağ yaya-yaya özü də gülümsədi. Astaca dedi:

- Ana?

- Can ana!

- Çox sevindim, lap dünyalar qədər.

Zəminə xanım təəccüblə:

- Nəyə oğlum? - soruşdu.

- Atamın ölümündən sonra ilk dəfə olaraq ürəkdən gülümsəməyinə görə, - Murad stuldan astaca qalxıb bu dəfə anasının vaxtsız ağarmış ipək saçlarından öpdü, - elə bil dünyanı mənə bağışladın.

Zəminə xanım kövrəldiyindən ürəyi yerindən oynadı. Göz yaşlarını gizlədə bilmədi. Handan-hana yaylığının ucu ilə yanaqlarını sildi. Dodaqları əsə-əsə:

- Yuxunun təsirindəndir, oğlum, - dedi. - İnşallah gördüklərim gerçəkləşsə, üzüm həmişəlik güləcək.

Murad bir anlıq maraq dolu nəzərlərini anasının sifətində gəzdirdi. Ona elə gəldi ki, hər şey yaxşılığa doğru gedir. Anası bir gecədə xeyli dəyişib, cavanlaşıb. Tələsik soruşdu:

- Yuxuda nə görmüsən ki?

- Sənin elçiliyinə getmişdim, bala. Elə mehriban adamlar idilər ki, elə qapıda gülərüz qarşılandım. Hətta, hə cavabını da aldım. Heyif, çox heyif tez oyandım.

Bu yerdə Murad özünü saxlaya bilmədi. Elə şaqqanaq çəkdi ki, az qala mətbəxin tavanı qopub başlarına töküləcəkdi. Gözləri yaşaracan güldü. Sağ qolunu anasının boynuna doladı.

- Oynun olsun, ana, - dedi. - Sən demə, qız evində toy imiş, oğlanın bundan xəbəri yox.

Muradın gözlənilməz qəhqəhəsini Zəminə xanım istehza kimi qəbul etdi. Bir anın içində çöhrəsindəki sevinc qığılcımları söndü. Nazik qaşları çatıldı, sanki alnındakı qırışların sayı da çoxaldı. Güclə eşidiləcək tərzdə dedi:

- Məni məsxərəyə tutmusan?

Murad çaşıb qaldı. Bilmədi nə cavab versin. Dalğın-dalğın başını yellədi. Dərindən köks ötürüb dedi:

- Əstəğfürullah, bu nə deməkdir, ana? Zarafat eləyirəm. Yuxudur görmüsən də, bütün anaların arzuladığı yuxudan.

Zəminə xanım əlinin arxasını çənəsində düyünlənən göz yaşlarında gəzdirdi. Rəngi avazmış halda:

- Yox, məni digərləri ilə eyniləşdirmək səhvdir, oğlum, - Dedi. - Yaşın otuzu haqlayıb. Axı mən də başqaları kimi oğul toyu görmək, gəlin-nəvə sahibi olmaq istəyirəm. Bütün bunlardan sonra mənə heç yazığın gəlmir? Nəyin əskikdir ki? İkimərtəbəli evin hazır, beş-altı aydan sonra qırmızı diplomun da əlində olacaq. Sağ olsun dövlətimiz, işə də düzələcəksən.

Murad dinmədi. Susdu. İçindəki anlaşılmaz hiss sanki birdən-birə çat verdi, bütün vücudu sızladı. Saata baxdı. Dərslərin başlanılmasına az vaxt qalırdı. Tələsik geyinib evdən çıxdı. Yolboyu Zəminə xanımın tənələri onu rahat buraxmırdı: "Yazıq arvad doğru deyir də. Haçana kimi dərd daşıyacaq. Mən isə... Orta məktəbi bitirən ili orduya çağırıldım. Sinif yoldaşlarımın çoxu ali məktəblərdə təhsil ala-ala sevgi mesajları yazanda mən əlimdə silah torpaqlarımızı qorudum. Qayıtdım, imtahanlara hazırlaşdım, bəxtim gətirmədi. Ömrümün dörd ilini universitetin pilləkənlərində əritdim. Amma inadımdan dönmədim. Axır ki, istəyimə nail ola bildim. Hə, bütün bunlar çox yaxşı. Bəs bu illərdə bir qızın belə gözlərinə baxmadığıma, sevib-sevilmədiyimə nə ad vermək olar?" - deyə özünü qınadı.

...Murad universitetin həyətində qrup yoldaşlarından kimisə gözləyirdi. Bu vaxt tələbə qızlardan biri pilləkənləri tələsik düşərkən ayağı sürüşdü. Müvazinətini itirib büdrədi. Az qala yerə yıxılacaqdı. Nə yaxşı yıxılmadı. Murad dərhal irəli atılıb bir anın içində onun qolundan yapışdı.

- Deyəsən ayağın burxuldu, yaxşısınız? - soruşdu.

Qız asta-asta başını qaldırdı. İlk anda baxışlar toqquşdu. Zaman sanki bir neçə saniyəlik dayandı. Murad qarşısında heç vaxt görmədiyi bir cüt göz gördü. Və bu gözlərdə qəribə işıq vardı. Ömrünün iyirmi doqquz ilində duymadığı və anlamadığı bir işıq. Qız özünü itirmiş kimi oldu. Üzünə dağılan tellərini sağ əliylə tələsik arxaya atdı, astaca dedi:

- Təşəkkür edirəm, hər şey qaydasındadr.

Oğlan ətrafa qısa bir nəzər salıb gülümsədi:

- Pilləkənlərdən belə sürətlə enmək hər qızın işi deyil. Məncə, bu sizin çox cəsarətli olmağınızdan xəbər verir

Muradın səmimi və zarafatyana yanaşması qızın xoşuna gəldi. Çöhrəsindəki gərginlik bir andaca yox oldu,özünü xeyli rahat və sərbəst hiss etdi. Yola düzələrkən:

- Səmimiyyətinizə görə bir daha sağ olun, - dedi. - Hə, lap unutmuşdum, adınız nə oldu?

- Murad. Bəs sizin?

Qız gülümsəyərək:

- Nərmin, - dedi.

İlk tanışlıqdan Muradın ürəyi elə döyündü ki... Titrək səslə:

- Yola düşməyiniz tez deyilmi? - soruşdu.

Nərmin cavab vermədi. Sakitcə universitetin həyətindən çıxdılar. Hərə bir səmtə gedəcəkdi. Ayrılmadılar, park boyunca birgə addımladılar. Hava soyuq idi. Quşbaşı qar yağırdı. Hər tərəf ağ örpəyə bürünmüşdü. Birdən Murad ayaq saxladı. Maraqlı tərzdə soruşdu:

- Nərmin xanım, bilmək olarmı gələcəkdə kim olacaqsınız?

Qız gözlərini ondan çəkmədən suala sualla cavab verdi:

- Olarmı əvvəlcə siz deyəsiz?

Murad gözlənilməz cavab qarşısında xəfifcə gülümsədi. Ona elə gəldi ki, bu, sadəcə gənc bir qızın hazırcavablığı deyil, ömür boyu unudulmayacaq bir sevginin pıçıltısıdır.

- Əlbəttə olar, gələcəyin hüquqşünası, - deyə Murad qızın çiynindəki qarı təmizlədi.

- Çox gözəl. Amma...

- Nə amma? - Murad təəccübləndi.

Nərmin yarı ciddi, yarı zarafatla cavab verdi:

- Ammanın birincisi məktəbin həyətindən çıxandan sonra yollarımız ayrı idi, ayrılmadıq. İkincisi, ixtisaslarımızda yaxınlıq az deyil. Məncə, soruşmadan kim olacağımı bilməliydin.

- Üzürlü sayın, psixoloq xanım, - Murad ucadan güldü.

Bu yerdə Nərminin qaşları düyünləndi. Durdu. Qəribə tərzdə:

- Cənab müstəntiq, - dedi. - Hüquqşünas insan psixologiyasını yaxşı anlayaraq cinayətin motivini tam dərk etdiyi kimi, yaxşı psixoloq da onunla üzüzə durduğu bir oğlanın sevgi sükutunu tam dərk etməkdə heç də aciz deyil.

- Onda razısınızmı ürəyimdən keçənlərlə? - deyə Muradın ürəyi çırpındı, sualın cavabını gözləmədən qızın əlindən tutdu.

Nərmin bir qədər duruxdu. Ona elə gəldi ki, ruhu Muradın ruhuyla çoxdandır qovuşub. Yanaqları qızardı. Elə sevindi ki... Amma cavab verməyə tələsmədi. Gözlərini oğlanın gözlərindən ayırmadan:

- Hava qaralır, sabah görüşənədək, - dedi. Və əlləri bir xeyli sevginin başlanğıcından od tutub yanan Muradın ovcunda qaldı...



*Rafiq ƏLƏKBƏR*

# Gəl, elə dost olaq ki...

(sərbəst esse poema)

Gəl, elə dost olaq ki,
Heç kəs bizi tanıya bilməsin.
Biz haralardan gəlmişik,
Hansı dünyanın adamıyıq,
Bizə qarşı qısqanclıq edənlər
Tanrının hədəfinə düşsün.
Sevgimizi elə quraq ki,
Burada qəzəb, kin olmasın.

Biz paralel dünyanın adamıyıq...
Yerlə göyün arasında
Milyonlarla paralel dünya var, -
Eynən ulduzlar kimi...
Bu paralel dünyanın biri bizə məxsusdur,
Biz orada hakimik.
Ayağımız yerdə, əlimiz göydədir,
Əlimizin, ayağımızın üzülən yeri yoxdur.

Gəl, elə dost olaq ki,
Özümüz özümüzə cığır açaq,
Hələlik cığır bizə bəs edər...
Eşqi üstümüzə yük etməyək,
Bil ki, biz eşqdən də üstünük.
Bəzən biz eşqi çox böyüdürük,
Onun kölgəsində əsir-yesirik.
Bir az eşqin kölgəsndən kənara çıxaq,
Görəcəyik ki, paralel dünyalarda
Eşqdən də üstün müqəddəs nəsnələr var.
Eşq bu dünyanın başını qatmaq üçündür...

Paralel dünyalarda da şeytan var,
Amma insanlar fərqlidir.
Paralel dünyalarda ancaq seçilmiş
insanlar yaşayır...

Dünyanın iç üzü paralel dünyalardan
daha çox görünür.
Paralel dünyalar hələ göy deyildir,
amma göyə çox yaxındır.
Paralel dünyalardan dünyaya həm gülür,
həm də ağlayırsan.
Niyə dünya özünü bu qədər alçaldır?
Müharibələr paralel dünyalara
hələ gəlib çıxmayıb.
Ruhlar dünyası paralel dünya deyil,
Ruhlar göylərin qatındadır,
Cənnət-cəhənnəm də göylər qatındadır.

Paralel dünyaların dünyaya
oxşarlığı olsa da, fərqli materiyadır.
Tanrı bu dünyaları fərqləndirib,
Onlara daha çox lütf verib;
Bir az şeytandan uzaqlaşdırıb,
Şeytan bu dünyalarda öz həddini aşa bilməz.

Gəl, biz elə dost olaq ki,
Gündüzü-gecəni bağrımıza basıb,
Günəşdən, Aydan payımızı alaq,
Uçan ulduzlara qoşulaq.
Qoy ulduzlar da torpağın ətrindən dadsınlar.
Axı biz torpağın ətrini göylərə daşıyacağıq...

Gəl, bir-birimizlə elə ünsiyyət quraq ki,
Yerdən bizə daş atanların daşı
gəlib bizə çatmasın.
Axı biz paralel dünyadayıq...

Paralel dünya bizim gəldiyimiz
dünyadan bir pillə yuxarıdadır.
Ruhu bu dünyaya sığışmayanları
Tanrı paralel dünyaya aparır.
Onlara orada fərqli münasibət var,
Onlar müqəddəsliyə qədər ucala bilirlər.

Mən elə bir dost axtarıram ki,
Öləndə mənim kimi ölə bilsin.
Bu, elə bir ölümdür ki, onun içində
milyon-milyon ölümsüzlük var.
Mən elə bir ölüm axtarıram ki,
Mələklər onu Tanrı dərgahında
özləri müşayiət etsin.
Tanrının hökmü və qüdrəti əzəli və əbədidir.
Bunun üçün əvvəl bu dünyadan
paralel dünyaya ucalmağı bacarasan...

Biz niyə bu dünyadan əlimizi üzüb
paralel dünyaya qalxdıq?
Bu, dünyanın günahıdır?
Yoxsa dünyada yaşayanların?
Bu qədər günahlardan, müharibələrdən
dünya məhvərindən çıxa bilər.
Bizim bu dünyada nə işimiz,
biz paralel dünyanın adamıyıq...




Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru


# OĞUZDA BİR ŞAİR YAŞAR

## ("Bölgələrdə ədəbi həyat" silsiləsindən)

**Nazim Hüseynlini mətbuatda dərc edilmiş şeirlərindən tanıyırdım, sonuncu "Kitab bayramı"nda isə görüşdük, mənə bir neçə şeir kitabını verdi ki, oxvuyum, fikrimi bildirim.**

Nazim Hüseynli ADU-nun Şərqşünaslıq fakültəsini bitirib, türk filologiyası ixtisasına yiyələnib. Qarşıda onu elmi sahədə fəaliyyət gözləyə bilərdi, ustad müəllimləri də belə düşünürdülər. Amma tale elə gətirdi ki, o, doğulduğu Oğuz rayonuna qayıtdı, elm yolunu jurnalistik fəaliyyəti ilə əvəz elədi. Əmək fəaliyyətinə rayon qəzetində ("Oğuz yurdu") ədəbi işçi kimi başladı, 25 ildir ki, həmin qəzetin redaktorudur. Rayonun ictimai-mədəni həyatında onun da, qəzetin də rolunu danmaq olmaz. Nazim Hüseynli Oğuz rayonunda ədəbi həyatın aparıcı üzvlərindəndir. O, rayonda yaradılan "Qönçə" ədəbi birliyinin yaradıcısıdır. Amma mən Nazim Hüseynlinin şeirlərindən söz açmaq istəyirəm. "Bütövlük həsrəti" (2018). "Torpaq uğrunda şəhid varsa vətəndir -Xaçmaz kəndinin şəhidləri" (2024), "Hamıdan da vətən üstün" (2025) kitablarında əsas mövzular Vətəndir, Qarabağdır, torpaqlarımız uğrunda şəhid olan oğulların ehtiramla yad olunmasıdır, bütövlük-birlik duyğusudur..Əslində, bütün bunları birləşdirən ali bir hiss var - VƏTƏN SEVGİSİ.

*Nə mən üstün, nə sən üstün,*
*Döyüşlərə gedən üstün,*
*Yağıyla cəng edən üstün,*
*Hamıdan da Vətən üstün!*

*Ömrü şam tək sönən üstün,*
*Qazi kimi dönən üstün*
*Düşmənləri yenən üstün,*
*Hamıdan da Vətən üstün!*

Azərbaycan şeiri həmişə vətənpərvərlik ruhu ilə nəfəs alıb, amma keçən əsrin 80-90-cı illərində müstəqillik uğrunda mübarizə bu ruhu istiqlal uğrunda mübarizələrə köklədi. "Ayağa dur, Azərbaycan!" nidası çox tezliklə poeziyanın da əsas nidasına, çağırışına çevrildi. Burada ayrı-ayrı şairlərin fəallığı xüsusi qeyd olunmalıdır. Məsələ onda deyil ki, xalqın bu çətin anında Azərbaycan şairləri öz yaxasını kənara çəkmədilər, məsələ ondadır ki, xalq belə çətin anında daha çox sevdiyi şairlərdən umurdu, onların səsini, çağırışını eşitmək istəyirdi. Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Qabil, Tofiq Bayram, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub kimi ustad şairlər öz şeirlərində istiqlal savaşına başladılar. Beləliklə, Azərbaycan poeziyasında yeni bir mərhələnin əsası qoyuldu- bu mərhələ Qarabağ savaşı ilə bağlı idi. Biz torpaq itkisinə məruz qalmışlıq, amma otuz ilə yaxın bir zamanda şeirimizdə mübarizə ruhu sönmədi, bütün ümidsizlik, pessimizm əhval-ruhiyyəsinə baxmayaraq qələbəyə inam heç vaxt xalqın ürəyindən çəkilmədi.

Və Azərbaycan Ordusu 44 günlük zəfər yürüşündə tariximizə Qələbə sözünü həkk elədi. Nazim Hüseynlinin şeirlərində də xalqımızın və ordumuzun keçdiyi çətin, əzablı, amma sonu qələbə ilə bitən canlı tarixi bədii tarixi öz əksini tapır. Bunu görkəmli söz adamları- İlqar Fəhmi və Əli Rza Xələfli xüsusilə qeyd etmişlər. "Ümumiyyətlə, şeirlərin böyük əksəriyyəti Qarabağ müharibəsinə, Azərbaycan, bayrağına, başı bəlalar çəkmiş Vətənimiz Azərbaycana, həmçinin II Qarabağ müharibəsinin şəhidlərinə və qəhrəman oğullarımıza həsr edilmişdir. Şairin şeirlərini oxuduqca onun içindəki ağrı və acını, şəhidlərə sonsuz ehtiramını, üstündə dolaşdığı hər qarış Vətən torpağına necə bağlı olduğunu hiss etməmək mümkün deyil" .İlqar Fəhminin Nazim Hüseynlinin şeirlərini bu bölgü ilə səciyyələndirməsi ilə tam razıyıq. Amma konkret olaraq biz onun ayrı-ayrı şeirləri və şəhidlərə həsr etdiyi publisistik oçerkləri barədə öz fikrimizi bildirək.

Nazim Hüseynli Oğuz rayonunun Xaçmaz kəndində dünyaya gəlib. Onun üçün böyük Vətən- Azərbaycan sevgisi bu kənddən başlayır. "Torpaq uğrunda şəhid varsa Vətəndir" kitabını Nazim Hüseynli Xaçmaz kəndinin şəhidlərinə həsr etmişdir.Amma bu kitab eyni zamanda Xaçmaz kəndinin tarixi, coğrafiyası, keçmişi və indisi barədə hər hansı bir oxucuda müəyyən təsəvvür və bilgi yaradan bir kitabdır. Yeri gəlmişkən qeyd edim ki, Xaçmaz kəndinin tarixi, inzibati ərazi vahidi olaraq



kənd, mahal, sahə kimi keçdiyi yol, kəndin ziyalıları haqqında geniş məlumatlar elə Nazim Hüseynlinin mənbələr əsasında yazılmış "Qədim Oğuz yurdu Xaçmaz kəndi" kitabında daha dolğun şəkildə əks olunub. Məlum olur ki, bu kəndin çox qədim tarixi var. Təbii ki, bu yazıda həmin kəndin keçdiyi tarixi yol haqqında söz aça bilməyəcəyik. Amma Nazim Hüseynlinin öz doğulduğu, nəşvi-nüma tapdığı kəndini Azərbaycan oxucularına tanıtması onun şair-nasir-publisist həyatında ən önəmli hadisədir. Vaxtilə bu sətirlərin müəllifi Vaqif Yusifli də "Ərkivan və ərkivanlılar" adlı kitab yazmışdı və bu kitab onun mənəvi tərcümeyi-halında bir örnək oldu.

Oğuz kəndi iki Qarabağ müharibəsində xeyli şəhid verib. Müəllif onları "Birinci Qarabağ müharibəsi şəhidləri", "İtkin şəhidlər", "Hərbi tapşırığı yerinə yetirərkən şəhid olanlar" və "44 günlük Vətən müharibəsi şəhidləri" bölgüləri ilə təqdim edir. Bu şəhid oğulların hər biri haqqında ayrıca oçerklər-məlumatlarla tanış oluruq. Onların fotolarına baxırıq- hamısı cavan..çoxusu da toyunu görməmiş, həyatda hələ bərkiməmiş gənclər. Amma Vətənin başı üstünü qara buludlar alanda könüllü olaraq döyüşə yollandılar-VƏTƏNLƏŞDİLƏR. Baxırıq Kaml Araz oğlu Atakişiyevin, Təbriz İldırım oğlu Cumuzadənin, Səfa Əmirxan oğlu İsazadənin doğum tarixlərinə.2000-ci ildə doğulmuş bu uşaqlar heç iyirmi il yaşamadılar, Vətən uğrunda şəhid oldular. Qarabağ savaşında Xaçmaz kəndinin ilk şəhidi Vüqar Rauf oğlu İbrahimov olub. Nazim Hüseynli bu şəhid haqqında bir qədər geniş söz açır, keçdiyi döyüş yolunu indiki gənclərə nümunə göstərir.

Şəhidlik ihəm də qəhrəmanlıqdır. Dahi Məhəmməd Füzuli "Hədiqətüs-şühəda" əsərində nə yazmışdı: "Ya şəhid olmaq gərək, ya qəhrəman iolmaq gərək". O qəhrəmanlardan biri də Koroğlu Rəhimov idi. Mərhum şairimiz Oqtay Rza ona "İki Koroğlu" şeirini həsr edib:

*Bütövlük naminə keçib canından,*
*Müqəddləs Şəhidlər Xiyabanında*
*Əbədi yuxuda dincəlir indi.*
*Qəbri önündəyəm Görəsən onun*
*Gəzib damarında hansı duyğular?*
*Sübut eləyib ki, Qoç Koroğlunun*
*Vətəndə evi də, məzarı da var.*

Nazim Hüseynli hər bir şəhid haqqında söz açarkən onları ehtiram əlaməti kimi şeirlə də yad edir.

Onun iki kitabında toplanan şeirlərinə gəldikdə isə müxtəlif mövzularda qələmə alınsa da, bu şeirlərin hər birində Nazim Hüseynlinin özünəməxsus ifadə tərzi və üslubu ilə qarşılaşırıq. İstər yuxarıda adını çəkdiyimiz mövzularda olsun, istərsə "Bütövlük həsrəti" və "Turan" poemaları olsun, istərsə də sevgi şeirləri hamısında bir ürəyin səsini eşidirik. Elə mövzular var ki, bütün şairlərin yaradıcılığında öz əksini tapıb. Ustad sənətkar Habil Əliyev haqqında ən yaxşı şeirləri Əli Kərim və Fikrət Qoca yazıblar. Amma Nazim Hüseynlinin "Habil çalanda" şeirini də ustad sənətkar haqqında yazılan gözəl şeirlərdən biri hesab edirik:

*Anaram ilk eşqi, vəfasız yarı,*
*Qəm üstə köklənər könlümün tarı.*
*Dayanar göylərdə durna qatarı-*
*Habil çalanda.*

*Dalaram xəyala mən aram-aram,*
*Kövrələr ürəyim, göynəyər yaram.*
*Barmağım kəssələr xəbər tutmaram-*
*Habil çalanda.*

Onun orijinal bayatılarının bəzisi xalq bayatılarından qətiyyən seçilmir. Xüsusilə cinaslı bayatıları:

*Əziziyəm, dərd dərdim,*
*Sevinc əkdim, dərd dərdim.*
*Dər dərdə saldı məni,*
*Tanrım, nolar, dər dərdim*

*Əziziyəm, göy uca.*
*Səsim çatsın göy uca.*
*Mən yarımdan keçmərəm,*
*Yer titrəyə, göy uça.*

Onu da hiss etmək çətin deyil ki, Nazim Hüseynli klassik ədəbiyyata da az-çox bələddir və şeirlərinin bir çoxunu əruz vəznində qələmə alıb. Təbii ki, şeirlərində təşbih və metaforalardan yan keçməyib.

*Sənsizəm, hər günüm illərə bənzər,*
*Axan göz yaşlarım sellərə bənzər.*
*Yarın eşqi ilə keçdiyim yerlər,*
*Məcnunun gəzdiyi çöllərə bənzər.*
*Vüsala yetməyə heç bir ümid yox,*
*Həsrətim saralmış güllərə bənzər.*

Fikrimizcə Nazim Hüseynlinin müasir ədəbiyyatda ən çox sevdiyi şairlərdən biri, bəlkə də birincisi Bəxtiyar Vahabzadədir. Onun Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyinə şəsr edilmiş "Vətən şairi" silsiləsindən şeirlərini əslində lirik poema da adlandırmaq olar. Bu silsilədə Bəxtiyar Vahabzadənin ayrı-ayrı şeirlərindən gətirilən misallarla onun şair portreti canlandırılır.

Nazim Hüseynli "Bütövlük həsrəti" poemasını böyük şairimiz Şəhriyarın "Heydərbabaya salam" poemasına nəzirə kimi yazıb. Formasını saxlayıb, amma bu poemada vahid Azərbaycan ideyasının poetik ifadəsini görürük. Nazim Hüseynlinin şeir yaradıcılığı barədə sözümüzü elə bu poemadan gətirdiyimiz misralarla başa çatdıraq (Ona gələcək yaradıcılıq yollarında uğurlar diləməklə).

*Heydərbaba, xalqım param-paramdı,*
*Sağalmayan, o qan verən yaramdı.*
*Yediyimiz çörək bizə haramdı,*
*O tay, bu tay birdən qalxıb durmasaq,*
*Birləşməsək, bir məmləkət qurmasaq.*
*Torpaqların parçalandı, Vətənim,*
*Yeddi yerə şaqqalandı, Vətənim,*
*Sinən üstü qızıl qandı Vətənim,*
*Millətimin sözü, səsi: Bütövlük!*
*Ən birinci vəzifəsi: Bütövlük!*



# BAYAT



№ 86 (946)

# Bu ürək şairi, könül şairi...



Əşrəf Veysəlli

## QORXUSU YOXDUR

Altmışım arxada qalıb haçandır,
Haçandır gözümün yuxusu yoxdur.
Yaşın çətinliyi altmışacandır,
Altmışdan o yana qorxusu yoxdur.

Günlər qanadlanıb uçur, quş olur,
İllərin karvanı ötüşmüş olur.
Ömür yetmişində yetişmiş olur,
Yetmişdən o yana qorxusu yoxdur.

Elə ki təklənir, təklənir insan,
Dərdi batman-batman yüklənir insan.
Deyirlər: Səksəndə səksənir insan,
Səksəndən o yana qorxusu yoxdur.

Yoxuşun sərtliyi dizi qorxudur,
Baxışın sərtliyi gözu qorxudur.
Doxsana yetməyin özü qorxudur,
Yüzdən o tərəfə qorxusu yoxdur.

Hər gün əsəb, təzyiq, qan qorxusudur,
Ürək ağrısıdır, can qorxusudur...
Bizik bu dünyanın ən qorxulusu,
Bizdən o tərəfə qorxusu yoxdur.

## AXIRDA

Anam vardı-yanan vardı mənə də,
Gözlərimdə yaşa döndü axırda.
Dörd tərəfdən qar ələndi başıma,
Növbaharım qışa döndü axırda.

Yağmalanmış yurdumuzdan söz açar,
Sinəsində yaraları göz açar.
Yanağında cığır salan, iz açan
Barmaqları xışa döndü axırda.

Mələklərtək səmalardan endi o,
Başımızda üzərliktək yandı o,
Hara getdim, yolum üstə qondu o,
Ağ xalatlı quşa döndü axırda.

Nəvələri gözü kimi sevərdi,
Gec görəndə ürəyini yeyərdi.
"Allah, məni daşa döndər"-deyərdi,
Mənim anam daşa döndü axırda.

## ANALAR

Beşiklər başında laylalar deyər,
Sevincdən don biçib geyər analar.
Körpələr nə zaman böyüyər deyə,
Günləri, ayları sayar analar.

Öpüb sığallayar gözlərimizi,
Min bir qayğı ilə böyüdər bizi.
Dilimiz söz tutar, sözlərimizi
Ellərdən ellərə yayar, analar.

Yolu duman tutsa, dağı qar alsa,
Aylı gecələri birdən qaralsa,
Başımız üstünü buludlar alsa,
Birinci hiss edər, duyar analar.

Kövrəldər bir kiçik söz ürəyini,
Xəzanlar bürüyər yaz ürəyini.
Çıxarıb köksündən öz ürəyini,
Yaramız üstünə qoyar analar.

O bütün qəlblərin dostu, yaxını,
Bu yerlər, bu göylər ona sığınır.
Oğul günahını, qız günahını,
Gözünün yaşıyla yuyar analar.

Oğlan qızın, qız oğlanın qisməti,
Gör nə gözəl pay böyüdür analar.
Özü bir gün görməsə də dünyada,
Gün böyüdür, ay böyüdür analar.

Elimizin ən şərəfli qadını,
Hər nemətdən uca tutar adını.
Söndürməkçün həsrətinin odunu,
Gözlərində çay böyüdür analar.

Dözüb durur intizarın içində,
Yuva qurur ahu-zarın içində.
Düşən qışın, yağan qarın içində
Yaz böyüdür, yay böyüdür analar.

Comərd olur comərdlərin önündə,
Saç yolmayır o dərdlərin önündə.
Alçalmayır namərdlərin önündə,
Qız böyüdür, toy böyüdür analar.

## ANAMA MƏKTUB

Az-az görüşürük, ay ana, az-az,
Analar bu sirri bilməmiş olmaz
Çoxları can atır şöhrətə, ada,
Şöhrət hər yetənin nəsibi olmur.
Təpədən dırnağa soyulmaqla da
Hamı şair olmur, Nəsimi olmur.

Canımda Füzuli yanğıları var,
Verə bilməmişəm imtahanımı.
Oxuya-oxuya qərib durnalar
Apardı qürbətə yarı canımı.

Bir yanıq bayatı qaldırıb yerdən,
Atar Kürə məni, Araza məni.
Yay kimi dartılıb cığırlar hərdən
Ox kimi tullayar harasa məni.

Durub seyr edərəm ağ buludları,
Nəsə pıçıldayar yağışlar mənə.
Bir xəzan əlimdən alar baharı,
Bir çiçək qaytarıb bağışlar mənə..

Az-az görüşürük, ay ana, az-az,
Analar bu sirri bilməmiş olmaz
Uçub qanadında fikrin-xəyalın,
Təzə məna tapmaq, təzə söz demək,
Qırıb inadını bir dağ çayının,
Hər dəfə tərsinə üzmək kimiymiş.
Vallah şair olmaq, ayağı yalın
Süngülər ucunda gəzmək kimiymiş.

## ATA

Dilimdə ən şirin, sözüm, söhbətim,
İnancım, güvəncim, pənahım ata.
Tükənmək bilməyən gücüm, qüvvətim,
Səngimək bilməyən ocağım ata.

Saralan qürubam, qaralan qaşam,
Yelkənsiz qayığam, yuvasız quşam.
Tufanlar içində azıb qalmışam,
Zülmət gecələrdə çırağım ata.

Ürəyim çırpınır fırtınalarda,
Sən ey son ümidim, hardasan, harda?
Gəl məni xilas et bu intizardan,
Sökülən dan yerim, sabahım ata.

Könlümün yuvası, yurdu da sənsən,
Mənim güvəndiyim ordu da sənsən.
Həyatın dörd şərti... dördü də sənsən
Odum, suyum, havam, torpağım ata.

Çəmənsən, üstündə şəbnəməm sənin,
Qəlbinə, ruhuna həmdəməm sənin.
Sənsən yaradanım. Bəndənəm sənin,
Allahdan aşağı Allahım, ata!

## YAŞAYAR

Arzularım qar altında gül açar,
Daş üstündə bitən ömrü yaşayar.
Ərənlərim qayalardan yol açar,
Yol, bu yolu gedən ömrü yaşayar.

Ürək nədir? Ürək sevgi, sayğıdır.
Bir -birinə nəvazişdir, qayğıdır,
Başdan-başa həyəcandır, duyğudur.
Ürək də var-gödən ömrü yaşayar.

Yazan qalar söz ömrünün hayında.
Ozan qalar saz ömrünün hayında.
İnsan da var-öz ömrünün hayında,
İnsan da var-Vətən ömrü yaşayar.

## YAXŞI Kİ

Qoy sənin başına dolanım, Allah,
Olmasın yanında yalanım, Allah.
Şeirdir olanım-qalanım, Allah,
Sən məni nə üçün şair yaratdın?

Əsən küləklərin dərs deyirdimi,
Çəkdiyim ağrılar dərs deyildimi?
Öz dərdim özümə bəs deyildimi,
Sən məni nə üçün şair yaratdın?

Qızmar səhralarda əsən mehəm mən,
Güldə şəbnəməmsə, otda şehəm mən,
Sanki bu dünyaya cavabdehəm mən,
Sən məni nə üçün şair yaratdın?

Gərək bir qanadlı quş yaradaydın,
Əngin səmalara tuş yaradaydın.
Ya da ki, bir qara daş yaradaydın,
Sən məni nə üçün şair yaratdın?

Qoruya bildimmi özümü yaddan,
Nəfsimi ləzzətdən,ağzımı daddan?
Çıxartdım oğlumu,qızımı yaddan,
Sən məni nə üçün şair yaratdın?

Qarış bu torpağa diril dən kimi,
Hörük sünbüllərə hörül dən kimi.
Dirilləm hər sözü dirildən kimi,
Yaxşı ki sən məni şair yaratdın!

Gül kimi bitiridin daşda bu ömrü,
Tapşırdın bir dəli eşqə bu ömrü,
Yaşaya bilməzdim başqa bir ömrü,
Yaxşı ki sən məni şair yaratdın!

## SƏN MƏNİ ÖYRƏTDİN AYRILIQLARA

Hər anım, hər günüm, hər ayım belə,
Dağıldı eşq adlı sarayım belə.
Dünyanı incidər harayım belə,
Hər gecə varlığım çəkilər dara,
Sən məni öyrətdin ayrılıqlara.

Adlaya bilmədim qəm hasarını,
Simləri qırıldı könül tarımın.
Boynu bükük qaldı arzularımın,
Niyyətim haraydı, mənzilim hara,
Sən məni öyrətdin ayrılıqlara.

Yolçunu yolundan əylədən kimi,
Dərdliyə dərdini söylədən kimi,
Uşağa əlifba öyrədən kimi
De nədən başlayım mən günüqara,
Sən məni öyrətdin ayrılıqlara .

Bir gül qönçəsiydi ürəyim mənim,
Eşqin təşnəsiydi ürəyim mənim,
Vüsal çeşməsiydi ürəyim mənim.
Mən hara, qəm hara, ayrılıq hara,
Sən məni öyrətdin ayrılıqlara.

İzim daş üstündə bitən yazıydı,
Sözüm Babəklərin "Bəzz" qalasıydı.
Arzum xan oğluydu, bəy balasıydı,
Həsrətin eşqimi gətirdi zara,
Sən məni öyrətdin ayrılıqlara.

## TORPAQ DƏRDİ, ŞƏHİD DƏRDİ

Allah, bu dərd hər bir dərddən baş olub,
Qəlbimizə tez ələnən dərd imiş.
Dərya-dərya, ümman-ümman yaş olub,
Gözümüzdən süzələnən dərd imiş.

Dağlar uçub üstümüzə tökülüb,
Sinəmizə neçə dağlar çəkilib.
Köksümüzdə yumaq kimi bükülüb,
Tərpətdikcə çözələnən dərd imiş.

Bu dərd bizi zirvələrə qaldırıb,
Bu dərd bizi qayalardan saldırıb.
Badəsini qanımızla doldurub,
Canımızla məzələnən dərd imiş.

Görmüşdünmü qəm qırmızı boyana,
Ürək gərək tab gətirə, dayana.
Torpaq dərdi, şəhid dərdi, ay ana,
Köhnəldikcə təzələnən dərd imiş.

## ƏLA

O uşaq arzumun uzaq mənzili,
Əla görünərdi yaxından, əla.
Çoxundan pis idim dağdan baxanda,
Dərədən baxanda- çoxundan əla.

Yatmadım gözümü yuxu yandırdı,
Dilimi könlümün ahı yandırdı.
Sinəmi fələyin oxu yandırdı?
Yayına bilmədim oxundan əla.

Dərdim oynayanda "Kərəmi" üstə,
Dağlar yıxılardı şələmin üstə.
Milçəklər qonardı şirəmin üstə,
Uçdu xəzan vaxtı bağımdan - əla.

Göylər qəzəbini tökər baxtıma,
Zülmət gecələri bükər baxtıma
De, necə edim ki, bu kor baxtıma
Bu kor gözlərimlə baxım mən əla.

Köhnə çəpərliyə bağlıq deyənlər,
Alçaq təpəliyə dağlıq deyənlər,
Solumda, sağımda sağlıq deyənlər,
Çəkildi solumdan, sağımdan, əla.

De, harda yatmısan, bozqurd balası
Çox yatma, olarsan manqurt balası.
Qar üstə iz salan ac qurd balası
Quduz köpəklərin toxundan əla.

Öyrət yeriməyi, öyrət yollara,
Bu bağlı yollara, bu sərt yollara.
Bir gün işıq düşər zülmət yollara,
Məşəllər alışar ahımdan əla.

Marten sobası da atom ES-i də,
Donuq vicdanları çətin isidər.
Azad bir ölkənin dilənçisi də
Kölə dövlətlərin şahından əla.

## Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 21 (2493) 12 iyun 2026-cı il

# AZƏRBAYCAN DÜNYA ARENASINDA

**Bir çox ekspertlər və mütəxəssislər deyirlər ki, hansı dövlətin zəngin sərvəti, faydalı qazıntısı varsa onlar dünyaya daha tez inteqrasiya olunurlar. Təbii ki, bu fikirdə müəyyən qədər həqiqət var. Ən azından ona görə ki, bu gün dünyanı neft və qazla zəngin olan ölkələr idarə edirlər. Yəni həmin ölkələr istehsal etdikləri nefti, qazı və digər sərvəti başqa ölkələrə ixrac etməsə, heç şübhəsiz, həmin dövlətlərin iqtisadiyyatı çökər və bir müddətdən sonra birmənalı olaraq o dövlətlərdə iqtisadi böhran yaranar. Əgər bir ölkənin işığı, qazı, nefti və eləcə də digər enerji daşıyıcıları xaricdən ixrac olunursa, şübhəsiz ki, həmin ölkə o istehsalçılardan asılı vəziyyətdədir.**



Əlbəttə, Azərbaycanın da dünyaya inteqrasiya olunması heç də belə asanlıqla başa gəlməyib. Heç kimə sirr deyil ki, 1990-92-ci illərdə ölkəmizi qeyri-peşəkar siyasətçilər idarə edirdi və onların da apardığı siyasi-iqtisadi və mədəni xətt demək olar ki, iflasa uğrayırdı. İş o yerə çatmışdı ki, dövlətin büdcəsində heç bir milyon manat da vəsait qalmamışdı. Bir yandan da ərazimizin 20 faizinin işğal olunması sözün həqiqi mənasında ölkəmizin ayağa durmasında ağır problemlər yaradırdı. Ümumiyyətlə, problemlər həmişə mövcud olub. Amma Azərbaycanın həmin illərdəki problemi həddindən artıq ağır idi. Bu ağırlığı isə yeganə bir siyasi xadim - Ümummilli Lider Heydər Əliyev aradan qaldıra bilərdi.

Bəli, xalqın tələbi ilə Ulu Öndər hakimiyyətə gətirildi və onun uzaqgörən və dünyəvi siyasəti ilə Azərbaycan hər ay, hər il dirçəlməyə başladı. Düzdür, ölkəmizin zəngin neft və qaz yataqları vardı. Amma onu hasil etmək, emal edib hazır məhsul kimi xaricə ixrac etmək çox çətin idi. Belə bir durumda Ulu Öndər yeganə çıxış yolu kimi dünyanın məşhur neft şirkətlərinin Azərbaycana dəvət edilməsində gördü. Düzdür, bir çox ölkələr bu layihəyə hər vasitə ilə maneə törədirdilər. Lakin bütün maneələrə və problemlərə baxmayaraq, Heydər Əliyevin qətiyyətli mövqeyi ilə "Əsrin müqaviləsi" imzalandı. Böyük Britaniyanın məşhur BP şirkəti neft və qaz sənayesinə milyonlarla vəsait yatırım etdi. Bir müddətdən sonra təbii ki, bu sərmayə nəinki özünü doğrultdu, həm də həmin ölkəyə və şirkətə böyük izafi dəyər gətirdi. Azərbaycanın büdcəsi bir müddətdən sonra xeyli artdı. Yəni əvvəllər bir milyon dollar pul olmayan büdcəyə milyardlarla vəsait daxil oldu. Bununla da ölkəmiz öz siyasi, iqtisadi və hərbi qüdrətini daha da möhkəmlətdi.



Heç kimə sirr deyil ki, Azərbaycanın sürətli inkişafı və dünyaya inteqrasiya olunması bizimlə müharibə aparan və ermənilərə havadarlıq edən ölkələrin elə də xoşuna gəlmirdi. Onların xoşuna gəlsə də, gəlməsə də artq ölkəmiz dünya arenasında öz sözünü demişdi və bununla yanaşı, iqtisadiyyatımıza sərmayə qoyan dövlətlərin sayı günbəgün artırdı. Türkiyə, Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Bolqarıstan, Macarıstan, Rusiya, Çin, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələr Azərbaycana böyük maraq göstərirdi. Təbii ki, hər bir ölkənin öz marağı və mənafeyi var. Azərbaycan da bu marağa uyğun olaraq dünya ölkələri ilə siyasi və iqtisadi əlaqələrini daha da gücləndirirdi.

İndi dünyada super dövlətlər var. Super dövlətlərlə yanaşı, isə orta gücü olan Azərbaycan kimi dövlətlər də dünyada tanındı. Ölkəmiz balaca dövlət olmasına baxmayaraq, dünyanın 30 dövlətindən birinə çevrildi. Bu da təsadüfi deyildi, iqtisadi yüksəliş siyasi arenada böyük nüfuz, beynəlxalq təşkilatlarda söz sahibi olmaq Azərbaycanı dünyaya daha yaxından tanıtdırdı. Prezident İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, bir vaxtlar Azərbaycana böyük dövlətlər sərmayə qoyurdu, indi isə Azərbaycan özü dünyanın inkişaf etmiş və zəngin ölkələrinə sərmayələr qoyur. Cənab prezident bu fikri çox düzgün vurğulayıb. Ölkəmiz bu gün Birləşmiş Ərəb Əmirliklərində, Səudiyyə Ərəbistanında, türk dövlətləri olan Orta Asiya respublikalarında, Gürcüstanda, eləcə də qardaş Türkiyədə çox böyük yatırımlar edib.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən prezident İlham Əliyev daha güclü və daha qüdrətli bir Azərbaycan yaratdı. Belə ki, Azərbaycan İkinci Qarabağ savaşında və eləcə də antiterror əməliyyatında ərazi bütövlüyünü tamamilə bərpa etdi. Bu isə o demək idi ki, artıq dünya gücləri Azərbaycanı suveren, mustəqil və demokratik bir ölkə kimi qəbul edir və onunla əlaqə yaratmağa çalışırlar.

Azərbaycan çox mötəbər neçə-neçə beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi edib. Bu da təsadüfi deyildir. Çünki artıq dünyanı idarə edən qüvvələr bir həqiqəti başa düşür ki, Azərbaycan kiçik dövlət olmasına baxmayaraq, dünyada öz mövqeyi, öz siyasi xətti və öz nüfuzu var.

Bu yaxınlarda Azərbaycanda keçirilmiş Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi bu deyilənlərin bir daha bariz nümunəsidir. Həmin tədbirdə ABŞ, Türkiyə, Böyük Britaniya və digər dövlətlərin rəhbərləri və ya yüksək səviyyəli rəhbərləri mütəmadi olaraq bu sərgiyə qatılırlar. Sərgidə əsas neft-qaz ölkələrinin stendləri qurulur, müasir texnologiyaların tətbiqi ilə bağlı məsələlər müzakirə edilir. Burada şirkətlər arasında yeni əlaqələr yaranır, əməkdaşlıq genişlənir və innovativ texnologiyalar tətbiq olunur.

Sabiq millət vəkili Vahid Əhmədov bu məsələlərlə bağlı fikirlərini belə ifadə edib:

"Bütün çətinliklərə baxmayaraq, Azərbaycan inkişaf edir, ölkənin dövlət borcu ÜDM-nin təxminən altı faizi səviyyəsindədir ki, bu da kifayət qədər aşağı göstəricidir. Valyuta ehtiyatlarımız isə 80 milyard dolları ötüb. Bütün bunlar ölkədə iqtisadi sabitliyin və inkişafın göstəricisidir. 2025-ci ildə iqtisadi artım tempində müəyyən zəifləmələr müşahidə olunsa da bu, əsasən dünyada baş verən geosiyasi proseslər, Rusiya-Ukrayna müharibəsi, qlobal iqtisadi durğunluq, inflyasiyanın yüksəlməsi və digər amillərlə bağlıdır".

**Azərbaycanın dünyaya inteqrasiyası, siyasi və iqtisadi mövqemizi möhkəmlətməklə yanaşı, əhalimizin rifah halının yüksəldilməsində önəmli əhəmiyyət kəsb edir. Təbii ki, belə bir sürətli inkişaf Azərbaycanın işıqlı gələcəyindən xəbər verir!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# RUHUN PAYIZ SƏFƏRİ

**Azərbaycan ədəbiyyatında elə qələm sahibləri vardır ki, onların yaradıcılığı yalnız söz sənəti deyil, həm də mənəviyyatın, həyat təcrübəsinin və daxili zənginliyin aynasına çevrilir. Sabir Abdin də məhz belə ziyalılardandır. O, həm şair kimi sözün qüdrətini incə poetik çalarlarla yaşadır, həm də prokuror və vəkil kimi qanunun aliliyinə xidmət edən məsuliyyətli bir ziyalı obrazını təcəssüm etdirir. Onun şəxsiyyətində ədalət ilə poeziya, hiss ilə məsuliyyət ahəngdar şəkildə birləşir. Bu ahəng həm həyat fəaliyyətində, həm də qələmə aldığı misralarda aydın hiss olunur.**

Sabir Abdin poeziyasında diqqət çəkən əsas xüsusiyyətlərdən biri obrazlı ifadələrin və bədii təsvir vasitələrinin ustalıqla işlədilməsidir. Şair duyğularını sadə şəkildə deyil, metaforalar və poetik rəmzlər vasitəsilə oxucuya çatdırır. Xüsusilə payız, yağış, yol və bulud kimi təbiət obrazları onun yaradıcılığında insan ruhunun ən incə qatlarını əks etdirən mənəvi simvollara çevrilir. Bu baxımdan onun şeirləri yalnız təbiətin təsviri deyil, insanın daxili aləminə edilən poetik bir səyahətdir.

Şairin yaradıcılığında payız xüsusi məna yükü daşıyır. O, payızı sadəcə ilin bir fəslinin adı kimi deyil, zamanın keçiciliyinin, həyat təcrübəsinin, daxili yorğunluğun və mənəvi tənhalığın ifadəsi kimi təqdim edir. Bu səbəbdən Sabir Abdinin poeziyasında payız təbiət hadisəsindən daha çox ruhun vəziyyətinə çevrilir.

Bu poetik dünyanın mühüm obrazlarından biri də yağışdır. Şair yağışı sadəcə təbiət hadisəsi kimi deyil, insanın dərdlərinə şərik olan, onun hisslərini anlayan və susqunluğunu dinləyən mənəvi bir dost kimi təqdim edir. Yağışla aparılan xəyali söhbət əslində insanın öz ruhu ilə dialoqudur. Şair yağışın səsində öz kədərini, öz tənhalığını və həyat hekayəsini eşidir.

Bu duyğular aşağıdakı misralarda xüsusilə təsirli şəkildə ifadə olunur:

***"Pəncərəmi döyən yağış,***
***Heyran-heyran sənə baxdım.***
***İstəmədim tək yağasan,***
***Sənə baxdım, mən də yağdım..."***

Bu misralarda yağış insan duyğularının rəmzinə çevrilir. "Mən də yağdım" ifadəsi daxildə yığılıb qalan hisslərin daşmasını, kövrəkliyin və mənəvi boşalmanın poetik təzahürünü əks etdirir. Şair yağışı öz hissləri ilə eyniləşdirərək təbiət və insan ruhu arasında dərin bir vəhdət yaradır.

Burada yağış göz yaşlarının, daxili ağrıların və emosional saflaşmanın simvolu kimi çıxış edir.

Yağış obrazından payız obrazına keçid isə şairin poetik düşüncəsini daha da dərinləşdirir:

***"Dolmuşam, yamanca payızlamışam,***
***Xəzəllər üstünə xəzəllər yağır..."***

Bu misralarda "payızlamaq" sözü yalnız fəslin dəyişməsini deyil, insanın daxili dünyasında baş verən mənəvi yorğunluğu və zamanın ağır yükünü ifadə edir. "Xəzəllər üstünə xəzəllər yağır" misrası isə həm təbiətdəki solğunluğu, həm də qəlbdəki kədərin qat-qat artmasını təsvir edir. Şair təbiət mənzərəsi ilə insan ruhunun vəziyyətini bir-birinə qovuşduraraq dərin emosional təsir yaradır.

Lakin Sabir Abdin poeziyası yalnız kədər və nisgil üzərində qurulmur. Onun yaradıcılığında insanın özünü axtarması, daxili aləmini dərk etməsi və mənəvi kamilliyə doğru yolçuluğu da mühüm yer tutur. Bu baxımdan onun: "Özümdən özümə çəkilən yolam..."misrası ilə başlayan şeiri insan ruhunun fəlsəfi etirafı kimi səslənir. Şair burada insanın həyatda keçdiyi ən uzun və ən çətin yolun öz daxilinə aparan yol olduğunu vurğulayır. İnsan başqalarını tanımağa çalışsa da, özünü tanımaq həmişə ən mürəkkəb və ağır sınaq olaraq qalır. Şair həm yolçu, həm yol, həm də mənzil obrazında çıxış edərək insanın öz daxilində yaşadığı axtarışları poetik dillə ifadə edir.

Şeirin növbəti misralarında bu daxili yolçuluğun müxtəlif məqamları canlandırılır:

***"Çiçəyi burnunda saralıb solan..."***

Bu misrada həyatın ən gözəl çağında belə insanın daxilən yorulması təsvir olunur. Gənclik və təravət anlayışları ruhun ağrıları ilə qarşılaşdırılır. Şair göstərir ki, insanın daxilindəki ağrılar bəzən ömrün baharını belə payıza çevirə bilir.

***"Həmişə gözləri yol çəkən yolam..."***

Bu misrada isə gözləmək motivi ön plana çıxır. Yol ayrılığın, ümidin və taleyin simvoluna çevrilir. İnsan ömrü daim nəyisə gözləyir: sevgini, rahatlığı, anlaşılmağı və bəzən də özünü tapacağı günü.

Şair özünü yol adlandırmaqla bütün bu gözləntilərin yükünü daşıyan mənəvi bir varlıq obrazı yaradır.

Daxili tənhalıq və özünə yadlaşma hissi şeirin sonrakı misralarında daha qabarıq şəkildə görünür:

***"Özüm öz gözümdə azıb gəlirəm,***
***Dərdimi min yerə yozub gəlirəm..."***

Bu misralarda insanın öz daxilində itib-batması, həyatın mənasını axtarması və ruhunun yorğunluğu poetik dillə ifadə edilir. Şair başqalarının deyil, məhz öz gözündə itdiyini söyləyir. Bu isə mənəvi böhranı, daxili hesabatı və kimlik axtarışını əks etdirən güclü poetik məqamdır.

"Sözümü durna tək düzüb gəlirəm"misrası isə Azərbaycan poeziyasında geniş yayılmış durna rəmzinə yeni çalar qazandırır. Durna həsrətin, uzaqlığın və köçün simvolu kimi tanınır. Şair sözlərini durnalar kimi düzərək düşüncələrini ahənglə, nisgillə və mənəvi köç hissi ilə oxucuya çatdırır.

Lakin bütün bu kədər və tənhalıq fonunda belə şair ümidsizliyə qapılmır. O, insan ruhunun saflaşmasına və yenilənməsinə inanır. Bu düşüncə şeirin son misralarında öz ifadəsini tapır:

***"Bahar buludusan, yağ gedək ömrüm."***

Bu misrada "bahar buludu" həm yenilənmənin, həm də keçiciliyin rəmzi kimi çıxış edir.

Şair ömrə müraciət edərək insanın daxilindəki hissləri yağış kimi boşaltmasının vacibliyini vurğulayır. Burada həyatın faniliyi ilə yanaşı, ruhun təmizlənməsi və yenidən doğulması ideyası da əks olunur.

Sabir Abdin yaradıcılığının ən dəyərli xüsusiyyətlərindən biri də hisslərin səmimiliyidir. Onun şeirlərində süni pafos və nümayişkarlıq yoxdur. Hər misra yaşanmış duyğuların, müşahidələrin və həyat həqiqətlərinin poetik ifadəsi təsiri bağışlayır. Məhz buna görə onun poeziyası oxucunun qəlbində iz qoyur, hər oxunuşda yeni məna qatları açır.

Şairin hüquq sahəsindəki fəaliyyəti də onun şəxsiyyətinin mühüm tərəfidir. Poeziyada insan ruhunun həqiqətlərini axtaran Sabir Abdin, hüquq müstəvisində də ədalətin keşiyində dayanaraq cəmiyyətə xidmət edir. Əslində həm sözün, həm də qanunun əsasında həqiqət dayanır. Bu baxımdan onun yaradıcılığı və peşə fəaliyyəti bir-birini tamamlayan mənəvi bütövlüyün ifadəsi kimi görünür.

Sabir Abdinin bu günlərdə yeni işıq üzü görən "Əlvida deyirəm ayrılıqlara" kitabı da məhz bu duyğuların, düşüncələrin və həyat müşahidələrinin bədii təcəssümüdür. Onun qələmi oxucunu yalnız poetik sözün gözəlliyi ilə deyil, həm də insanın öz daxilinə yönələn düşüncə yolçuluğu ilə zənginləşdirir. Şairin misralarında payız yalnız təbiətdə deyil, insan ruhunda yaşayır; yağış yalnız göydən deyil, qəlbdən yağır; yol isə uzaqlara deyil, insanın öz mənəviyyatına aparır. Elə buna görə də Sabir Abdin poeziyası oxucunu ruhun payız səfərinə çıxararaq ona həm kədərin, həm də mənəvi saflaşmanın hikmətini duyurur.



**Natəvan Hüseynova,**
**Bakı Dövlət Rabitə və Nəqliyyat kollecinin Azərbaycan dili və ədəbiyyat müəllimi**

## Qulu Ağsəsin "Saat 6-nı gözləyirəm" kitabının təqdimatı keçirilib



**İyunun 10-da "Litera" kitab evində müasir Azərbaycan ədəbiyyatının tanınmış siması, yazıçı-şair Qulu Ağsəsin "MİMTA Yayımları" tərəfindən nəşr olunmuş "Saat 6-nı gözləyirəm" adlı yeni kitabının təqdimat mərasimi baş tutub.**

Adalet.az xəbər verir ki, tədbirdə tanınmış ədəbiyyatşünaslar, mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri və çoxsaylı kitabsevərlər iştirak ediblər.

Tədbirdə Xalq yazıçısı Çingiz Abdullayev, Milli Məclisin deputatları, Aqil Abbas, Elçin Mirzəbəyli, "MİMTA Yayımları"nın direktoru Əsəd Aslanoğlu, ədəbiyyatşünas Məti Osmanoğlu çıxış ediblər. Çıxışçılar Qulu Ağsəsin özünəməxsus yaradıcılıq üslubuna, bədii dilinin dərinliyinə və yeni nəşrin müasir ədəbi mühitdəki önəmli mövqeyinə diqqət çəkiblər.




Qeyd olunub ki, poetik dillə nəsr təfəkkürünün uğurlu vəhdəti olan bu toplu, həyatın mahiyyətini dərk etməyə çalışan oxucular üçün dəyərli bir ədəbi bələdçidir. Yeni nəşr müasir Azərbaycan ədəbiyyatının qiymətli nümunələrindən biri kimi dəyərləndirilir.

Kitabın müəllifi Qulu Ağsəs bildirib ki, kitabın adı 2020-ci il Vətən müharibəsi dövründə yaşanan hisslərdən qaynaqlanır.

O, həmin günlərdə hər zaman səhər saat 6-da qələbə xəbəri eşidəcəyimizə inandığını, bunu tez-tez dilə gətirdiyini və məhz buna görə də kitabı "Saat 6-nı gözləyirəm" adlandırdığını vurğulayıb.

Kitab müəllifin daxili dünyasını, səmimi etiraflarını və qeyri-adi müşahidələrini əks etdirən müxtəlif mövzulu esselərdən ibarətdir.

Qeyd edək ki, "Saat 6-nı gözləyirəm" kitabı artıq "Litera" kitab evi və şəhərin digər kitab mağazalarında oxucuların ixtiyarına verilib.

**İri şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti PHŞ tərəfindən Fərzaliyev Fərasət Rəfi oğluna verilmiş 089 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.**

Aqil Abbas şair
**Əşrəf Veysəllinin**
vəfatından kədərləndiyini bildirir, mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Nəbi Muxtarov ailə üzvləri ilə birlikdə
**Əşrəf Veysəllinin**
vəfatından kədərləndiklərini bildirir, mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Aslan Mehdiyev ailə üzvləri ilə birlikdə
**Əşrəf Veysəllinin**
vəfatından kədərləndiklərini bildirir, mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə
**Əşrəf Veysəllinin**
vəfatından kədərləndiklərini bildirir, mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

## Əbdül Xalid: "Əxlaqsızlığı təbliğ edənlər cəzalandırılmalıdır"

**Əbdül Xalid son zamanlar daha çox sosial şəbəkələrdə popluyarlıq qazanan mahnılardan danışıb.**



Adalet.az xəbər verir ki, o, belə mahnıları ifa edənlərə müvafiq cəza tətbiq olunmasının tərəfdarıdır: "Son zamanlar insanların zövqünə, beyninə, əxlaqına mənfi təsir göstərən mahnıları ifa edirlər. Maraqlısı da odur ki, ifa edənlər belə mahnıları ifa etməkdən zərrəcə utanmır, çəkinmir. Belə mahnıları ifa edən adamlardan uşaqlar nə tərbiyə götürsün?! Pis mənalara yozulan sözlərlə mahnılar ifa edib ki, insanların şüuraltına pis vərdişlər yeridirlər. Bununla bağlı mütləq DİN məşğul olmalıdır. Əxlaqsızlığı təbliğ edənlər cəzalandırılmalıdır.

Uşaqlar sosial şəbəkələrdə belə mahnılara qulaq asa-asa, onları sevməyə başlayırlar. Bu da cəmiyyət üçün təhlükəli haldır".

**Əntiqə**

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 281
Çapa imzalanmışdır: 11.06.2026